Xalidə Həmidova, Aidə Musayeva

# Məntiqi və riyazi təfəkkürün inkişafı

Orta (3-4 yaş) qrup üçün

# Ətraf aləmlə tanışlıq və nitq inkişafı

Məktəbəqədər təhsil proqramı
(kurikulum) əsasında

# MƏŞĞƏLƏLƏRİ





Xalidə Həmidova, Aidə Musayeva

# Məntiqi və riyazi təfəkkürün inkişafı

*Orta (3-4 yaş) qrup üçün*

# Ətraf aləmlə tanışlıq və nitq inkişafı

**Məktəbəqədər təhsil proqramı (kurikulum) əsasında**

# MƏŞĞƏLƏLƏRİ

Nərgiz NƏŞRİYYATI

BAKI-2024

**Elmi məsləhətçilər:** **Müseyib İlyasov**
Pedaqoji elmlər doktoru, professor

**Şəhla Əliyeva**
Pedaqoji elmlər doktoru, professor

**Rəyçilər:** **Laləzar Cəfərova**
Əməkdar müəllim, pedaqogika üzrə fəlsəfə doktoru, dosent

**Şərafət Baxışova**
Pedaqoji elmlər doktoru

**Nailə Hüseynova**
Pedaqoji elmlər doktoru

**Vüsalə Əliyeva**
Pedaqogika üzrə fəlsəfə doktoru

**Redaktor:** **Hidayət Musabəyli**
AYB-nin üzvü, Akademik M.Mehdizadə adına və "Qızıl Qələm" mükafatları laureatı, Respublikanın Təhsil Əlaçısı

**Xalidə Həmidova, Aidə Musayeva.** Məntiqi və riyazi təfəkkürün inkişafı. Ətraf aləmlə tanışlıq və nitq inkişafı məşğələləri. *Məktəbəqədər təhsil proqramı (kurikulum) əsasında*. - Bakı, "Nərgiz" nəşriyyatı, 2024. 128 səh.

İSBN 978-99-52-37-233-4

$H\frac{742000000}{079} - 962$

© "Nərgiz", 2024

# *Məntiqi və riyazi təfəkkürün inkişafı məşğələləri*



# MƏŞĞƏLƏ 1

**2.3.1.** Əşyalarla 3 dairəsində riyazi əməliyyatlar yerinə yetirir.

**2.3.2.** Əşyaları forma və ölçüsünə (uzununa, eninə, hündürlüyünə, qalınlığına) görə fərqləndirir.

**Mövzu:** Say anlayışı.

**Məqsəd:** Əşyaları sayına görə bir-birindən fərqləndirir.

**İnteqrasiya: 4.2.3.** Problemin həllində iştirak edir.

**İş forması:** Kollektiv iş, fərdi iş, cütlərlə iş.

**Üsullar:** Əqli hücum, tap-tapmaca və s.

**Resurslar:** Müxtəlif əşyalar, səbətlər, kartlar, karandaşlar və s.

## Məşğələnin gedişi

**Motivasiya:** Tərbiyəçi-müəllim oyun kubiklərindən iki ev qurmalarını uşaqlara tapşırır. Birində az kubikdən, o birində çox kubikdən istifadə etmələri üçün kubiklər qoyur. Uşaqlardan soruşur: Evi nədən qurmuşuq? Bu evin fərqi nədədir?



**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqlarla birlikdə birində az miqdarda kubik olduğunu, o biri evdə çox miqdarda kubik olduğunu tapırlar.

**İdman dəqiqəsi:** Musiqi sədaları altında ritmik hərəkətlər.

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqlara qruplarla iş verir.

*I qrup:* Kartda verilən əşya qədər kvadratın içinə plastilindən nöqtələr yapışdır.

*II qrup:* İki kartda müxtəlif sayda şəkil var. Hər kartın altında neçə şəkil varsa, o qədər rəngli çubuq düz.

*III qrup:* Verilən kartlarda olan şəkil sayında oyuncaqları tap, stolun üstünə düz.

Məşğələ yekunlaşır.

## MƏŞĞƏLƏ 2

**2.3.1.** Əşyalarla 3 dairəsində riyazi əməliyyatlar yerinə yetirir.

**2.3.2.** Əşyaları forma və ölçüsünə (uzununa, eninə, hündürlüyünə, qalınlığına) görə fərqləndirir.

**Mövzu:** Çox-tək. Əşyaların qruplaşdırılması.

**Məqsəd:** Əşyaları sayına görə fərqləndirir. Əşyaları rənginə görə fərqləndirir.

**İnteqrasiya: 2.1.3.** Müşahidə etdiyi əşyaları fərqləndirir.

**3.1.2.** Təsvirlərində uyğun rənglərdən istifadə edir.

**İş forması:** Qruplarla iş, fərdi iş.

**Üsullar:** Əqli hücum, sual-cavab və s.

**Resurslar:** Müxtəlif kartlar, əşyalar, karandaşlar, plastilin və s.

### Məşğələnin gedişi

**Motivasiya:** Tərbiyəçi-müəllim gecə təsvir olunmuş şəkili lövhəyə asır və uşaqlardan soruşur: Uşaqlar, günün hansı vaxtıdır? Bu vaxtı nə edirik?



**Dərketmə mərhələsi:** Uşaqlar, gecə nə görürsünüz göydə? Ay və ulduzlar. -Sizcə ay çoxdur, yoxsa ulduzlar? Ay təkdir, yoxsa ulduzlar?

Uşaqlar sualları tərbiyəçi-müəllimin köməyi ilə cavablandırır. Tərbiyəçi-müəllim uşaqlardan birini sağa, 5-6 uşağı sola çağırır və deyir: Çox olan tərəf əllərini qaldırsın. Tək olan tərəf əlini qaldırsın.

**İdman dəqiqəsi:** Musiqi sədaları altında idman dəqiqəsi.

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllim qruplarla iş aparır.

*I qrup:* Kartların içindən tək olanı tapır.

*II qrup:* Şəkillərin içindən çox olanları tapır (eyni şəkillərdən).

*III qrup:* Günəş və buludların şəklini rənglə, tək və çox olanı göstər.

*IV qrup:* Şəklin içindən tək olanları dairəyə alır.

## MƏŞĞƏLƏ 3

**2.3.4.** Məkan (irəli, geri, yuxarı, aşağı, alt, üst) və zaman (səhər, günorta və axşam) anlayışlarını fərqləndirir.

**Mövzu:** Yuxarı-aşağı.

**Məqsəd:** Yuxarıda və aşağıda anlayışını fərqləndirir. Məkana görə əşyaların harada yerləşdiyini deyir.

**İnteqrasiya: 2.1.3.** Müşahidə etdiyi əşyaları fərqləndirir.

**2.2.1.** Dinləyib-anladığını verdiyi sual-cavablarla nümayiş etdirir.

**3.1.1.** Sadə təsvirlər çəkir.

**İş forması:** Qruplarla, cütlərlə, fərdi iş.
**Üsullar:** Əqli hücum, sual-cavab, tap-tapmaca.
**Resurslar:** Şəkilli kartlar, müxtəlif əşyalar, karandaşlar və s.

**Məşğələnin gedişi**

**Motivasiya:** Tərbiyəçi-müəllim kubiklərdən iki mərtəbəli ev düzəldir. Birinci mərtəbəsinə az əşya, ikinci mərtəbəsinə çox əşya düzür və soruşur: Uşaqlar, ev neçə mərtəbəlidir? Birinci mərtəbə aşağı, ikinci mərtəbə yuxarı adlanır.



**Dərketmə mərhələsi:** Uşaqlar yuxarı və aşağı sözlərini təkrarlayaraq, onların yerini göstərir. Tərbiyəçi-müəllim aşağıda az əşyanın, yuxarıda çox əşyanın olduğunu deyir.

**İdman dəqiqəsi:** Tərbiyəçi-müəllim uşaqlara deyir: Yuxarı deyəndə ayağa qalxın, əllərinizi qaldırın. Aşağı dedikdə əyilin, əllərinizi yerə qoyun.

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllim bir boş lövhədə təbiət şəkli düzəldəcəklərini deyir. Arxası maqnitli şəkilləri stolun üstünə düzür. Uşaqlar bir-bir lövhəyə gəlir. Bir əşyanı götürür və (məs: quşlar) yuxarı yapışdırır. Deyir, quşlar çoxdur və yuxarıda uçur, gül azdır aşağıda olur, lövhəyə yapışdırır.

## MƏŞĞƏLƏ 4

**2.3.1.** Əşyalarla 3 dairəsində riyazi əməliyyatları yerinə yetirir.

**Mövzu:** 1 rəqəmi.

**Məqsəd:** Rəqəmlər içərisindən 1 rəqəmini göstərir. Əşyalar içindən 1 əşyanı ayırır. 1 ədədini say çöpləri vasitəsilə göstərir.

**İnteqrasiya: 3.1.1.** Sadə təsvirlər çəkir.

**4.2.3.** Problemin həllində iştirak edir.

**İş forması:** Kollektiv iş, fərdi iş, cütlərlə iş.

**Üsullar:** Əqli hücum, sual-cavab, tap-tapmaca.

**Resurslar:** Rəqəmlər, 1 rəqəmi, əşyalar, kartlar, karandaşlar və s.

### Məşğələnin gedişi

**Motivasiya:** Tərbiyəçi-müəllim lövhəyə böyük 1 rəqəmini qoyur. Bir uşaq şəkli yapışdırır və deyir: Gəlin üzümüzdə bir dənə olan üzvümüzü tapaq (burun, ağız, dil).



**Dərketmə mərhələsi:** Gəlin əllərimizi qaldıraq, barmaqlarımızla bir barmağımızı göstərək və bir deyək. Uşaqlara lövhədə çoxlu şəkillər qoyur və bir dənə olan əşyaları göstərir: günəş, ay. Rəqəmlərin içindən 1 rəqəmini uşaqlara tanıdır.

**İdman dəqiqəsi:**

**Tətbiqetmə mərhələsi:** Qruplarla iş.

*I qrup:* 1 rəqəmini rəngləmək.

*II qrup:* Plastilindən 1 rəqəmi düzəltmək.

*III qrup:* Rəqəmlərin içindən 1-i tapmaq.

*IV qrup:* Əşyaların içindən 1 dənə olan əşyaları dairəyə almaq.

Qrupların işi dəyərləndirilir. Uşaqlar rəğbətləndirilir.

Məşğələ yekunlaşır.

## MƏŞĞƏLƏ 5

**2.3.4.** Məkan (irəli, geri, yuxarı, aşağı, alt, üst) və zaman (səhər, günorta və axşam) anlayışlarını fərqləndirir.

**Mövzu:** Məkan anlayışı: üstündə, altında.

**Məqsəd:** Məkan anlayışlarını (üstündə, altında) fərqləndirir. Əşyanın yerini müəyyən edərkən üstündə, altında, ortasında, yanında sözlərindən istifadə edir.

**İnteqrasiya: 2.1.3.** Müşahidə etdiyi əşyaları fərqləndirir.

**2.2.1.** Dinləyib-anladığını verdiyi sual və cavablarla nümayiş etdirir.

**4.2.3.** Problemin həllində iştirak edir.

**İş forması:** Kollektiv, fərdi, cütlərlə.

**Üsullar:** Əqli hücum, sual-cavab, tap-tapmaca.

**Resurslar:** Şəkilli kartlar, əşyalar və s.

### Məşğələnin gedişi

**Motivasiya:** Tərbiyəçi-müəllim uşaqlara təklif edir ki, gəlin oyuncaq guşəsini yenidən quraq.

**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim kollektiv olaraq uşaqları rəfin yanına çağırır və hər uşağa bir oyuncağın yerini deyir: Maşını rəfin ortasına qoy, ayını maşının yanına, gəlinciyi aşağıya, saatı yuxarıya qoy. Uşaqlar oyuncağı qoyarkən tərbiyəçi-müəllim hara qoyduğunu soruşur. Beləliklə, onlar əşyaları qoyduqca həm orta, yuxarı, aşağı, yanında sözlərindən istifadə edirlər, həm də onları fərqləndirirlər.





**İdman dəqiqəsi:**

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllim lövhəyə müxtəlif əşyalarla təsvir olunmuş şəkil yapışdırır. Hər uşağa bir şəklin adını deyir və soruşur. Məsələn: pişik masanın harasındadır, stul stolun harasındadır, gül qabı harasındadır və s.

Məşğələ yekunlaşır.

## MƏŞĞƏLƏ 6

**2.3.4.** Məkan (irəli, geri, yuxarı, aşağı, alt, üst) və zaman (səhər, günorta və axşam) anlayışlarını fərqləndirir.

**Mövzu:** Məkan anlayışı: irəli, geri.

**Məqsəd:** İrəli, geri anlayışlarını fərqləndirir. Əşyanın yerini müəyyənləşdirərkən qabaq-arxa, irəli-geri sözlərindən istifadə edir.

**İnteqrasiya: 2.1.3.** Müşahidə etdiyi əşyaları fərqləndirir.

**2.2.5.** Danışığında iki-dörd sözdən ibarət sadə cümlələrdən istifadə edir.

**4.2.3.** Problemin həllində iştirak edir.

**İş forması:** Qruplarla iş, cütlərlə iş, fərdi iş.

**Üsullar:** Əqli hücum, tap-tapmaca və s.

**Resurslar:** Müxtəlif əşyalar, şəkillər, karandaşlar və s.

## Məşğələnin gedişi

**Motivasiya:** Tərbiyəçi-müəllim yol maketinin üstünə iki maşın qoyur, bir qırmızı maşın irəlidə, bir göy maşın geridə. Uşaqlardan soruşur: Burada nə görürsünüz, yolda nə gedir? Hansı maşın irəlidə, hansı geridədir?



**Dərketmə mərhələsi:** Yolun kənarında oyuncaq adamı işıqfordan qabaq və arxa tərəfə qoymağı uşaqlardan xahiş edir. Onlar avtobus gözləyirlər. Biri işıqforun qabağında, biri isə arxasında dayanıb.

**İdman dəqiqəsi:** Musiqili ritmik hərəkətlər ("Kosmosda" oyunu. "Didaktik oyunlar" kitabından, səh.83).

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqlarla bir oyun oynamağı təklif edir. Uşaqlar dairəvi formada düzülür.

Tərbiyəçi-müəllim irəli dedikdə bir addım qabağa, geri dedikdə bir addım geri, qabaq dedikdə olduğu kimi qalır, arxa dedikdə dönürlər. Oyunu səhv edən oyundan çıxır.

## MƏŞĞƏLƏ 7

**2.3.2.** Əşyaları forma və ölçüsünə (uzununa, eninə, hündürlüyünə, qalınlığına) görə fərqləndirir.

**Mövzu:** Ölçü. Uzun-qısa.

**Məqsəd:** Əşyaların uzun və ya qısa olduğunu fərqləndirir. Əşyaların fərqini taparkən uzun-qısa sözlərindən istifadə edir.

**İnteqrasiya: 1.1.4.** Kiçik motor hərəkətlərini (əşyaları və oyuncaqları barmaqları arasında saxlayır, atıb-tutur, şəkil çəkir, yapışdırır, quraşdırır və s.) koordinasiya edir.

**2.1.3.** Müşahidə etdiyi əşyaları fərqləndirir.

**3.1.1.** Sadə təsvirlər çəkir.

**3.1.4.** Sadə yapma (bir, üç hissədən ibarət fiqurlar düzəltmək) bacarığını nümayiş etdirir.

**İş forması:** Kollektiv, cütlərlə, qruplarla, fərdi iş.

**Üsullar:** Əqli hücum, sual-cavab və s.

**Resurslar:** Plastilin, karandaşlar, uzun-qısa lentlər və s.



## Məşğələnin gedişi

**Motivasiya:** Uşaqlar, zürafə ilə dovşanın sizdən bir xahişi var. Onlar özlərinə dost axtarırlar. Gəlin onların boyuna uyğun dost tapaq.

**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim lövhəyə müxtəlif heyvan şəkilləri yapışdırır. Dələ, fil, kenquri, maral, pişik, it.

-Uşaqlar, gəlin uzun zürafəni uzun boylu heyvanlarla qısa boylu dovşanı qısa boylu heyvanlarla dostlaşdıraq. Onlar heyvanları birləşdirirlər.

**İdman dəqiqəsi:**

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllim qruplarla iş verir.

*I qrup:* Uzun karandaşları bir tərəfə, qısa karandaşları bir tərəfə yığın.

*II qrup:* Plastilindən uzun və qısa çubuq düzəldin.

*III qrup:* Uzun və qısa lentin içini rəngləyin.

*IV qrup:* Uzun nərdivanı hündür ağacın yanına, qısa nərdivanı alçaq ağacın yanına qoyun.

## MƏŞĞƏLƏ 8

**2.3.2.** Əşyaları forma və ölçüsünə (uzununa, eninə, hündürlüyünə, qalınlığına) görə fərqləndirir.

**Mövzu:** Ölçü. Hündür-alçaq.

**Məqsəd:** Əşyaları ölçüsünə görə fərqləndirir. Əşyaların fərqini taparkən hündür, alçaq sözlərindən istifadə edir.

**İnteqrasiya: 2.1.3.** Müşahidə etdiyi əşyaları fərqləndirir.

**2.2.1.** Dinləyib-anladığını verdiyi sual və cavablarla nümayiş etdirir.

**İş forması:** Kollektiv iş, qruplarla iş.

**Üsullar:** Əqli hücum, tap-tapmaca, sual-cavab.

**Resurslar:** Şəkilli kartlar, karandaşlar, müxtəlif əşyalar və s.

## Məşğələnin gedişi

**Aktuallaşma:** Uşaqlar, bənna iki ev tikmək istəyir. Biz bənnaya köməklik edə bilərikmi? Bənna bir evi hündür, bir evi alçaq tikmək istəyir.

**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim oyun kubiklərini uşaqların qarşısına qoyur. Uşaqları iki qrupa bölür.



Lövhəyə iki şəkil qoyur. Hündür ev və alçaq ev. -Gəlin ev şəkillərinə baxaraq ev tikək. Uşaqlar ev qurur. -Gəlin baxaq, hansı hündür, hansı alçaqdır və s. suallar verilir.

**İdman dəqiqəsi:**

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqları qruplara bölür.

*I qrup:* Hündür evləri alçaq evlərdən ayır.

*II qrup:* Hündür əşyaları qəhvəyi rəngləyin.

*III qrup:* Alçaq əşyaları sarı rəngləyin.

*IV qrup:* Nəqliyyat vasitələrinin içindən hündür və alçaqları ayırın.

## MƏŞĞƏLƏ 9

**2.3.2.** Həndəsi fiqurları (dairə, üçbucaq, kvadrat) adlandırır.

**Mövzu:** Həndəsi fiqurlar. Dairə.

**Məqsəd:** Dairəni adlandırır.

**İnteqrasiya: 1.1.4.** Kiçik motor hərəkətlərini (əşyaları və oyuncaqları barmaqları arasında saxlayır, atıb-tutub, şəkil çəkir, yapışdırır, quraşdırır və s.) koordinasiya edir.



**2.1.3.** Müşahidə etdiyi əşyaları fərqləndirir.

**2.2.1.** Dinləyib-anladığını verdiyi sual və cavablarla nümayiş etdirir.

**İş forması:** Kollektiv iş, fərdi iş, cütlərlə iş.

**Üsullar:** Əqli hücum, sual-cavab, tap-tapmaca.

**Resurslar:** Həndəsi fiqurlar, rəngli karandaşlar, şəkilli kartlar və s.

## Məşğələnin gedişi

**Motivasiya:** Tərbiyəçi-müəllim torbanın içinə çoxlu dairələr qoyur. Uşaqlara deyir ki, gəlin sehrli torbanın içində hansı fiqurların olduğunu tapaq. Uşaqlar əllərini salıb yoxlayırlar və yumru nələrinsə olduğunu deyirlər.

**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim fiqurları lövhəyə düzür. Bunların həndəsi fiqurlar adlandığını deyir. Dairə haqqında məlumat verir, suallar verir. Əşyanın içində dairə formasında nələrin olduğunu soruşur.

**İdman dəqiqəsi:** Uşaqlarla dairəvi formada dayanıb idman edirlər.

**Tətbiqetmə mərhələsi:** Qruplarla iş.

*I qrup:* Dairələrin kənarına paltar şpilkalarını düzək.

*II qrup:* Maşının təkərlərini yapışdır. Fiqurların içindən dairələri tap yapışdır.

*III qrup:* Rəngli tərəfləri olan çətir şəklinin hər rənginin içindən kiçik dairələr kəsilir. Kənardakı rəngli dairlər öz yuvasına yerləşdirilir.

*IV qrup:* Dairəyə bənzər meyvələri tap.

## MƏŞĞƏLƏ 10

**2.3.2.** Əşyalar forma və ölçüsünə (uzununa, eninə, hündürlüyünə, qalınlığına) görə fərqləndirir.

**Mövzu:** Ölçü. Böyük-kiçik.

**Məqsəd:** Əşyaları ölçüsünə görə fərqləndirir. Əşyaların fərqini taparkən böyük-kiçik sözlərindən istifadə edir.

**İnteqrasiya: 2.1.3.** Müşahidə etdiyi əşyaları fərqləndirir.

**3.1.1.** Sadə təsvirlər çəkir.

**2.2.1.** Dinləyib-anladığını verdiyi sual və cavablarla nümayiş etdirir.

**3.1.4.** Sadə yapma (bir-üç hissədən ibarət fiqurlar düzəltmək) bacarıqları nümayiş etdirir.

**İş forması:** Cütlərlə iş, kollektiv iş.

**Üsullar:** Əqli hücum, sual-cavab və s.

**Resurslar:** Şəkilli kartlar, böyük və kiçik əşyalar və s.



## Məşğələnin gedişi

**Motivasiya:** Tərbiyəçi-müəllim ata ayı ilə bala ayının əlində tutur və uşaqlara deyir: Uşaqlar, böyük ayı ilə kiçik ayının bizim köməyimizə ehtiyacı var. Biz böyük ayıya böyük əşyalar, kiçik ayıya kiçik əşyaları verməliyik.

**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim iki səbət və çoxlu əşyalar qoyur. Uşaqlar böyük və kiçik səbəti göstərir. Müxtəlif böyük və kiçik əşyaları bir-birindən fərqləndirərək adlarını deyirlər.

**İdman dəqiqəsi:**

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqları xalçanın üzərində otuzdurur. Qarşılarına böyük və kiçik ayını qoyur.

-Uşaqlar, gəlin indi səbətləri ayılara uyğun olaraq seçək. Böyük səbət ata ayının qarşısında olur. Tərbiyəçi-müəllim çoxlu əşyalar qoyur və deyir: Böyük əşyaları böyük səbətə, kiçik əşyaları kiçik səbətə yığaq və onları sevindirək.

Məşğələnin sonunda uşaqlar böyük və kiçik əşyaları öyrənir.

## MƏŞĞƏLƏ 11

**2.3.2.** Əşyaları forma və ölçüsünə (uzununa, eninə, hündürlüyünə, qalınlığına) görə fərqləndirir.

**Mövzu:** Ölçü: Qalın-nazik.

**Məqsəd:** Əşyaları ölçüsünə görə bir-birindən fərqləndirirlər. Əşyaların ölçülərini fərqləndirərkən “qalın”, “nazik” sözlərindən istifadə edirlər.

**İnteqrasiya: 2.1.3.** Müşahidə etdiyi əşyaları fərqləndirir.

**2.1.1.** Dinləyib-anladığını verdiyi sual və cavablarla nümayiş etdirir.

**3.1.1.** Sadə təsvirlər çəkir.

**İş forması:** Fərdi iş, kollektiv iş, cütlərlə iş.

**Üsullar:** Əqli hücum, sual-cavab, tap-tapmaca.

**Resurslar:** Şəkilli kartlar, plastilin, karandaşlar və s.



**Motivasiya:** Ustamıza kubiklər, taxtalar lazım olacaq. Biz taxtaları yığıb ustaya verməliyik. Usta da bir ev tiksin. Amma onun bir şərti var. Usta deyir ki, nazik taxtaları bir tərəfə, qalın taxtaları bir tərəfə yığmalısınız.

**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqlara qalın və nazik əşyaları göstərir. Əşyaların içindən qalınları və nazikləri bir-birindən ayırırlar. Onların hansının qalın, hansının nazik olduğunu deyirlər. Sonra usta üçün qalın taxtaları bir, nazik taxtaları bir yığırlar.

**İdman dəqiqəsi:**

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqlara qruplarla iş təqdim edir.

*I qrup:* Qalın taxtaları seç və rənglə.

*II qrup:* Nazik taxtaları seç və rənglə.

*III qrup:* Qalın əşyaları bir tərəfə, nazik əşyaları bir tərəfə yığ.

*IV qrup:* Plastilindən qalın və nazik lent düzəlt. Məşğələ yekunlaşır, uşaqlar rəğbətləndirilir.

## MƏŞĞƏLƏ 12

**2.3.2.** Əşyaları forma və ölçüsünə (uzununa, eninə, hündürlüyünə, qalınlığına) görə fərqləndirir.

**Mövzu:** Əşyaların forma və rənginə görə müqayisəsi.

**Məqsəd:** Əşyaları formasına görə fərqləndirir. Əşyaları rənginə görə fərqləndirir. Əşyaları forma və rənginə görə qruplaşdırır.

**İnteqrasiya: 2.1.3.** Müşahidə etdiyi əşyaları fərqləndirir.

**3.1.2.** Təsvirlərdə uyğun rənglərdən istifadə edir.

**4.2.3.** Problemin həllində iştirak edir.

**İş forması:** Qruplarla iş, fərdi iş.

**Üsullar:** Əqli hücum, sual-cavab, tap-tapmaca.

**Resurslar:** Şəkilli kartlar, rəngli kubiklər, rəngli karandaşlar və s.

## Məşğələnin gedişi

**Motivasiya:** Uşaqlar, gəlin oyuncaq rəfini səliqəyə salaq. Tərbiyəçi-müəllim uşaqlara təklif edir ki, eyni rəngli oyuncaqları bir yerə yığaq, eyni formalı fiqurları bir yerə yığaq.



**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim ilə birlikdə uşaqlar oyuncaqları qruplaşdırmağa çalışırlar. Tərbiyəçi-müəllim uşaqları yönləndirir. Gəlin yaşıl dairəli oyuncaqları bir yığaq, qırmızı kubikləri bir yığaq, sarı balaca eyni formalı fiqurları bir yığaq. Uşaqlar beləliklə qruplaşdırmanı öyrənirlər.

**İdman dəqiqəsi:**

**Tətbiqetmə mərhələsi:**

*I qrup:* Yaşıl və uzun əşyaları seçin.

*II qrup:* Qırmızı və dairəvi əşyaları seçin.

*III qrup:* Böyük və sarı kubikləri seçin.

*IV qrup:* Kiçik qırmızı halqaları seçin.

Məşğələdə qruplar dəyərləndirilir, uşaqlar rəğbətləndirilir.

Məşğələ sonlanır.

## MƏŞĞƏLƏ 13

**2.3.3.** Həndəsi fiqurları (dairə, üçbucaq, kvadrat) adlandırır.

**Mövzu:** Həndəsi fiqurlar. Kvadrat.

**Məqsəd:** Həndəsi fiqurları tanıyır. Kvadratı adlandırır.

**İnteqrasiya: 2.1.3.** Müşahidə etdiyi əşyaları fərqləndirir.

**3.1.1.** Sadə təsvirlər çəkir.

**4.2.3.** Problemin həllində iştirak edir.

**İş forması:** Kollektiv iş, qruplarla iş, fərdi iş.

**Üsullar:** Əqli hücum, sual-cavab, tap-tapmaca.

**Resurslar:** Həndəsi fiqurlar, şəkilli kartlar, karandaşlar və s.



## Məşğələnin gedişi

**Aktuallaşma:** Tərbiyəçi-müəllim dairəni uşaqlara göstərir və soruşur: Bu hansı fiqurdur? Fiqurun kənarları necədir? Dairəyə oxşar əşyaları deyin. Uşaqlar, fiqurumuzun yanına bir fiqur da qoyaq.

**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim kvadratı dairənin yanına qoyur və deyir: Uşaqlar, gəlin dairəylə dördbucağı fərqləndirək. Dairənin kənarları yoxdur, dairəvidir.

Dördbucağın 4 bucağı var. Gəlin dördbucağa oxşar fiqurları qrupumuzdan tapaq. Sonra tərbiyəçi-müəllim dairələr və kvadratları qarışıq qoyur və deyir: Gəlin böyük və eyni rəngli dairələri bir yığın, kiçik və eyni kvadratları bir yığın.

**İdman dəqiqəsi:**

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllim plastilini uşaqlara paylayır və plastilin lövhəsində kvadrat düzəltməyi təklif edir.

Tərbiyəçi-müəllim hər bir uşağın işini dəyərləndirir. Fiqurun adını soruşur.

Məşğələni sonlandırır.

## MƏŞĞƏLƏ 14

**2.1.4.** Canlı və cansız aləmin obyektlərini (insan, heyvan, quş, bitki, qum, daş, torpaq, işıq) əlamətinə görə fərqləndirir.

**Mövzu:** "Ayılara kömək edək" - didaktik oyun.

**Məqsəd:**

**İnteqrasiya: 1.1.4.** Kiçik motor hərəkətlərini (əşyaları və oyuncaqları barmaqları arasında saxlayır, atıb-tutur, şəkil çəkir, yapışdırır, quraşdırır və s.) koordinasiya edir.

**2.2.5.** Danışığında iki-dörd sözdən ibarət sadə cümlələrdən istifadə edir.

**2.3.2.** Əşyaları forma və ölçüsünə (uzununa, eninə, hündürlüyünə, qalınlığına) görə fərqləndirir.

**İş forması:** Cütlərlə iş, fərdi iş.
**Üsullar:** Əqli hücum, sual-cavab, tap-tapmaca.
**Resurslar:** Oyuncaqlar, səbətlər, böyük və kiçik ayı oyuncaq.

## Məşğələnin gedişi

**Aktuallaşma:** Tərbiyəçi-müəllim müxtəlif rəngli, müxtəlif hündürlükdə fiqurları stolun üstünə düzür. Uşaqlardan onların rəngini, böyüklüyünü, kiçikliyini, formasını soruşur. Uşaqlar tərbiyəçi-müəllimin köməyi ilə sualları cavablandırır.



**Dərketmə mərhələsi:** "Ayılara kömək edək" oyunu, səh.31.

Tərbiyəçi-müəllim uşaqlara ata ayı üçün böyük səbətə qırmızı əşyaları, kiçik səbətə isə bala ayı üçün sarı əşyaları yığmalarını deyir və onlara köməklik göstərir. -İndi isə əşyaları ölçülərinə görə ayıraq. Ata ayının səbətinə böyük əşyaları, bala ayının səbətinə kiçik əşyaları yığmağı öyrədir.

**İdman dəqiqəsi:** Musiqili ritmik hərəkətlər.

**Tətbiqetmə mərhələsi:** Müxtəlif formalı əşyaları rəngləyək.

# MƏŞĞƏLƏ 15

**2.3.4.** Məkan (irəli, geri, yuxarı, aşağı, alt, üst) və zaman (səhər, günorta və axşam) anlayışlarını fərqləndirir.

**Mövzu:** Zaman: səhər, günorta, axşam, gecə.

**Məqsəd:** Zaman anlayışlarını fərqləndirir. Səhər, günorta, axşam, gecə sözlərini işlədir.

**İnteqrasiya: 2.1.6.** Gündəlik rast gəldiyi, ona tanış olmayan obyekt və hadisələr haqqında məlumat almaq üçün suallar verir.

**2.2.1.** Danışığında iki-dörd sözdən ibarət sadə cümlələrdən istifadə edir.

**İş forması:** Kollektiv iş, fərdi iş, cütlərlə iş.

**Üsullar:** Əqli hücum, sual-cavab, tap-tapmaca və s.

**Resurslar:** Şəkilli kartlar, rəngli karandaşlar.

## Məşğələnin gedişi

**Motivasiya:** Tərbiyəçi-müəllim bir gəlinciyi oynadaraq deyir: Bu gün gəlinciklə günümüzü keçirək və ona köməklik göstərək. Balaca yataqdan gəlinciyi qaldırır. -Gəlin yatağı yığaq. Sizcə, bu hansı vaxtdır? Daha sonra gəlincik məktəbə gedir, məktəbdən gəlir, axşam ailəsiylə oturur, gecə yatır.



**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqlardan özləri haqqında gün ərzində nə etdiklərini soruşur. Günün hissələri adlandırılır. Uşaqlar səhər, günorta, axşam, gecə sözlərini işlədir.

**İdman dəqiqəsi:**

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqlara təklif edir ki, mən şəkildə hansı günün vaxtını göstərsəm, ona uyğun etdiyiniz bir işi deyin.

Deyə bilməyən uşaq oyunda uduzur, deyən uşaq qalib gəlir.

## MƏŞĞƏLƏ 16

**2.3.1.** Əşyalarla 3 dairəsində riyazi əməliyyatlar yerinə yetirir.

**Mövzu:** 2 ədədi və rəqəminin əmələ gəlməsi.

**Məqsəd:** 2 ədədini say çöpləri ilə göstərir. 2 rəqəmini rəqəmlərin içindən tapır. Əşyalar içindən 2 əşyanı ayırır.

**İnteqrasiya: 3.1.1.** Sadə təsvirlər çəkir.

**2.1.3.** Müşahidə etdiyi əşyaları fərqləndirir.

**4.2.3.** Problemin həllində iştirak edir.

**İş forması:** Cütlərlə iş, fərdi iş, qruplarla iş.

**Üsullar:** Əqli hücum, tap-tapmaca və s.

**Resurslar:** Rəqəmlər, müxtəlif oyuncaqlar, rəngli karandaşlar və s.



## Məşğələnin gedişi

**Aktuallaşma:** Tərbiyəçi-müəllim 5-ə qədər rəqəmləri uşaqların qarşısına qoyur və içindən 1 rəqəmini tapmaqlarını istəyir. Hər kəs qarşısındakı rəqəmlərdən 1 rəqəmini göstərir. Barmaqları ilə 1-i göstərirlər. Əşyaların içindən bir əşyanı göstərirlər. Tərbiyəçi-müəllim öz rəqəmlərində 2-ni göstərir və deyir: 1-dən sonra 2 rəqəmi gəlir. Əşyalardan iki əşya götürür və sayır: 1, 2.

**Dərketmə mərhələsi:** Uşaqlar qarşısındakı 2 rəqəmini tərbiyəçi-müəllimə göstərir. 1 rəqəminin yanına 2 rəqəmini qoyurlar. Tərbiyəçi-müəllim düymələr qoyur uşaqların qarşısına, deyir: 1 rəqəminin üstünə bir düymə, 2 rəqəminin üstünə iki düymə qoyun.

**İdman dəqiqəsi:** Kim sevirsə idmanı: 1, 2, 3, 4.

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllim paltar sancaqlarını uşaqlara paylayır. Rəqəmli kartlar paylanılır. -1 rəqəminin üstünə yaşıl bir sancaq, 2 rəqəminin üstünə iki qırmızı sancaq taxın.

## MƏŞĞƏLƏ 17

**2.3.2.** Məkan (irəli, geri, yuxarı, aşağı, alt, üst) və zaman (səhər, günorta və axşam) anlayışlarını fərqləndirir.

**Mövzu:** Zaman. Həftənin günləri.

**Məqsəd:**

**İnteqrasiya: 2.1.6.** Gündəlik rast gəldiyi, ona tanış olmayan obyekt və hadisələr haqqında məlumat almaq üçün suallar verir.

**2.2.1.** Dinləyib-anladığını verdiyi sual və cavablarla nümayiş etdirir.

**4.2.3.** Problemin həllində iştirak edir.

**İş forması:** Qruplarla iş, fərdi iş.

**Üsullar:** Əqli hücum, müzakirə.

**Resurslar:** Şəkilli kartlar, müxtəlif əşyalar və s.




**Məşğələnin gedişi**

**Aktuallaşma:** Tərbiyəçi-müəllim göy qurşağı şəklini uşaqlara göstərir. Rənglərini sayır. Daha sonra deyir: Uşaqlar, həftənin günlərində də 7 gün var. Gəlin göy qurşağını həftənin günləri ilə adlandıraq. Hər rəngə bir ad deyək.

**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim 7 günlük bir şəkil göstərir uşaqlara. Hər günün adını çəkir və həmin günlərin uşaqların bağçaya getdiyi gün olduğunu öyrədir, iki gün istirahət günləri olduğunu qeyd edir. Uşaqlar həftənin günlərini təkrar edir.

**İdman dəqiqəsi:**

**Tətbiqetmə mərhələsi:** Qruplarla iş.

*I qrup:* Plastilindən kirpi: 7 çubuq. Kirpiyə 7 çubuq taxaq. 5 gün bağça günü, 2 gün istirahət. 5 göy, 2 qırmızı çubuq taxaq.

*II qrup: 7* dairəni - 5 dairəni yaşıl, 2 dairəni qırmızı rəngləyin.

*III qrup:* 7 rəqəm, 7 sancaq var. 5-ə qədər sarı sancaq, 6 və 7-yə qırmızı rəng sancaq vur.

## MƏŞĞƏLƏ 18

**2.3.1.** Əşyalarla 3 dairəsində riyazi əməliyyatlar yerinə yetirir.

**Mövzu:** 2 dairəsində sadə riyazi əməliyyatlar.

**Məqsəd:** 2 ədədini say çöpləri, düymələr, əşyalar və s. əşyalarla göstərir. 2 dairəsində sadə riyazi əməliyyatlar yerinə yetirir.

**İnteqrasiya: 3.1.1.** Sadə təsvirlər çəkir.

**4.2.3.** Problemin həllində iştirak edir.

**İş forması:** Qruplarla, fərdi, kollektiv.

**Üsullar:** Əqli hücum, sual-cavab, müzakirə.

**Resurslar:** Rəqəmlər, əşyalar, şəkilli kartlar və s.

### Məşğələnin gedişi

**Aktuallaşma:** Lövhədə ağac şəkli üstündə çoxlu yapışqan almalar var. Ağacın kənarında səbətlər var, hər səbətin üstünə bir rəqəm yazılıb. -Biz iki yazılan səbəti seçirik. Gəlin baxaq, yerə almalar düşüb. 2 yazılan səbətə nə qədər alma qoymalıyıq?

**Dərketmə mərhələsi:** Uşaqlardan biri ağacdan bir almanı götürüb səbətə qoyur, başqa uşaq gəlir, bir alma götürüb səbətə qoyur. -Uşaqlar, gəlin sayaq: Bir almanın yanına bir alma da qoysaq, neçə olar, 1, yoxsa 2? 2 alma olar.



**İdman dəqiqəsi:**

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqların qarşısına bir qab qoyur. Ortaya çoxlu fiqurlar qoyur. -Uşaqlar, gəlin 2 fiqur yığaq qabımıza. Uşaqlar bir dördbucaqlının yanına bir dairə qoyur və sayırlar – 1, 2. Daha sonra tərbiyəçi-müəllim soruşur: Bir əşyanın yanına bir əşya da qoyanda neçə əşya edir? – 2.

## MƏŞĞƏLƏ 19

**2.3.1.** Əşyalarla 3 dairəsində riyazi əməliyyatlar yerinə yetirir.

**2.3.2.** Əşyaları forma və ölçüsünə (uzununa, eninə, hündürlüyünə, qalınlığına) görə fərqləndirir.

**Mövzu:** 1-2 əşyanın müqayisəsi.

**Məqsəd:** Əşyaları sayına görə fərqləndirir. 2 dənə olan əşyanı sayır və rəngləyir.

**İnteqrasiya: 2.1.3.** Müşahidə etdiyi əşyaları fərqləndirir.

**2.2.1.** Dinləyib-anladığını verdiyi sual və cavablarla nümayiş etdirir.

**3.1.1.** Sadə təsvirlər çəkir.

**4.2.3.** Problemin həllində iştirak edir.

**İş forması:** Qruplarla, fərdi, cütlərlə iş.

**Üsullar:** Əqli hücum, tap-tapmaca, sual-cavab.

**Resurslar:** Rəqəmlər, şəkillər, əşyalar, karandaşlar və s.



## Məşğələnin gedişi

**Aktuallaşma:** Tərbiyəçi-müəllim çoxlu əşyaları uşaqlara göstərir və soruşur: Burada nə qədər əşya görürsünüz? Az və ya çox? Tərbiyəçi-müəllim rəqəmlərin içindən 1-2-ni tapmalarını istəyir. -Sizcə, 1 çoxdur, yoxsa 2?

**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim əşyaların içindən bir əşyanı göstərmələrini istəyir. Daha sonra iki əşyanı göstərmələrini istəyir. -Sizcə, hansı çoxdur? Bir əşya, yoxsa iki əşya? 1 rəqəmi, yoxsa 2 rəqəmi çoxdur?

**İdman dəqiqəsi:**

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllim hər kəsin qarşısına iki qutu qoyur, bir qutuya 1, o biri qutuya 2 yazılıb. -Uşaqlar, 1 yazılan qutuya bir əşya, 2 yazılan qutuya iki əşya qoyun. Çox olan əşyanı göstərin, az olan əşyanı göstərin.

Uşaqlar rəğbətləndirilir. Məşğələ yekunlaşır.

## MƏŞĞƏLƏ 20

**2.3.4.** Məkan (irəli, geri, yuxarı, aşağı, alt, üst) və zaman (səhər, günorta və axşam) anlayışlarını fərqləndirir.

**Mövzu:** İlin fəsilləri.

**Məqsəd:** İlin fəsillərini fərqləndirir. İlin fəsillərini adlandırır.

**İnteqrasiya: 2.1.5.** Ətraf aləmdə baş verən proseslərə dair suallar verir və sadə ifadələrlə (böyüyür, uzanır, açılır, tökülür, saralır, dəyişir və s.) təsvir edir.

**2.2.1.** Dinləyib-anladığını verdiyi sual və cavablarla nümayiş etdirir.

**3.1.2.** Təsvirlərində uyğun rənglərdən istifadə edir.

**İş forması:** Qruplarla, fərdi, cütlərlə.

**Üsullar:** Əqli hücum, müzakirə, sual-cavab və s.

**Resurslar:** Şəkilli kartlar, fəsillər, rəqəmlər və s.




**Məşğələnin gedişi**

**Aktuallaşma:** İlin fəsilləri təsvir olunmuş şəkilləri tərbiyəçi-müəllim uşaqlara təqdim edir. Deyir, burada nə təsvir olunub? İlin fəsillərini kim tanıyır? İldə neçə fəsil var?

**Dərketmə mərhələsi:** Bir ildə neçə fəsil var? Hansılardır? Uşaqlar, lövhədə rəqəmlər var. Sizcə ilin fəsilləri lövhədəki hansı rəqəmə uyğun gəlir?

**İdman dəqiqəsi:** Fəsilə aid mahnıyla idman dəqiqəsi.

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqlara oyun oynamağı təklif edir. Hər qrupun qarşısına fəsillərə aid şəkillər və ya əşyalar qoyur və deyir: Qış dedikdə qış fəslinə aid əşya və ya şəkil göstərin. Hansı qrup tez göstərsə, o qrup qalib gəlir. Yaz fəsli, yay, payız fəsli dedikdə ona uyğun şəkil göstərilir.

Qruplar rəğbətləndirilir. Məşğələ yekunlaşır.

## MƏŞĞƏLƏ 21

**2.3.1.** Əşyalarla 3 dairəsində riyazı əməliyyatlar yerinə yetirir.

**Mövzu:** Nə qədər, neçə? Bərabər, az, çox.

**Məqsəd:** Bir və ya bir neçə əşyanı fərqləndirir. Az, çox, bərabər olan əşyaları müəyyənləşdirir.

**İnteqrasiya: 2.1.3.** Müşahidə etdiyi əşyaları fərqləndirir.

**2.2.1.** Dinləyib anladığını verdiyi sual və cavablarla nümayiş etdirir.

**3.1.2.** Təsvirlərində uyğun rənglərdən istifadə edir.

**4.2.3.** Problemin həllində iştirak edir.

**İş forması:** Kollektiv iş, qruplarla iş, fərdi iş.

**Üsullar:** Əqli hücum, müzakirə sualları.

**Resurslar:** Müxtəlif rəngli əşyalar, rəqəmlər, çöplər, kubiklər və s.



**Məşğələnin gedişi**

**Motivasiya:** Tərbiyəçi-müəllim bir uşağa çox əşya olan səbət, digər uşağa az əşya olan səbət, iki uşağa bərabər sayda əşya olan səbət verir. -Uşaqlar, gəlin əşyalarımızı stolumuzun üstünə düzək.

**Dərketmə mərhələsi:** Uşaqlar qarşılarındakı əşyaların çox, az, bərabər olduqlarını müəyyənləşdirməyə çalışırlar. Çox, az, bərabərdir sözlərindən istifadə edirlər. Tərbiyəçi-müəllimin suallarını cavablandırmağa çalışırlar. Rəngli kubikləri stola qoyur və soruşur: Qırmızı kubiklər çoxdur, yoxsa mavi? İki ayı oyuncağı qoyur və soruşur: Ayı neçə dənədir?

**İdman dəqiqəsi:** Musiqi sədaları altında idman dəqiqəsi.

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllim qruplarla iş təqdim edir.

*I qrup:* Meyvə qabında neçə meyvə var?

*II qrup:* Hansı güldanda çox gül var?

*III qrup:* I qabda nə qədər düymə var, II qabda nə qədər düymə var?

*IV qrup:* İki qabda əşyalar nə qədərdir?

Qrup işləri dəyərləndirilir. Məşğələ yekunlaşır.

## MƏŞĞƏLƏ 22

**2.3.1.** Əşyalarla 3 dairəsində riyazi əməliyyatlar yerinə yetirir.

**Mövzu:** 3 ədədi və rəqəminin əmələ gəlməsi.

**Məqsəd:** Rəqəmlər içindən 3 rəqəmini göstərir. 3 ədədini əşyalar vasitəsilə göstərir. Əşyalar içindən 3 dənə əşyanı ayırır.

**İnteqrasiya: 2.1.3.** Müşahidə etdiyi əşyaları fərqləndirir.

**2.2.1.** Dinləyib-anladığını verdiyi sual və cavablarla nümayiş etdirir.

**3.1.1.** Sadə təsvirlər çəkir.

**İş forması:** Qruplarla iş, cütlərlə iş, fərdi iş.

**Üsullar:** Əqli hücum, müzakirə, sual-cavab.

**Resurslar:** Rəqəmlər, şəkillər, karandaşlar, əşyalar və s.



## Məşğələnin gedişi

**Aktuallaşma:** Rəqəmlər lövhəyə düzülür.

-Uşaqlar, hansı rəqəmləri tanıyırsınız? 1, 2. 1 böyükdür, yoxsa 2? 1-dən sonra 2 gəlir. 2, 1-dən böyükdür. 1 ədədinin yanına 1 ədədi qoyulanda 2 edir. Tərbiyəçi-müəllim rəqəmlər və əşyalar üzərində uşaqları başa salır.

**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim lövhəyə 1, 2 rəqəmini qoyandan sonra deyir: Uşaqlar, gəlin barmaqlarımızla 3 göstərək. Əşyalarla 3 əşya qoyaq. Rəqəmlərin içindən 3 ədədini tapaq.

**İdman dəqiqəsi:** Musiqi sədaları altında ritmik hərəkətlər.

**Tətbiqetmə mərhələsi:** Qruplarla iş təqdim olunur.

*I qrup:* 3 rəqəmini rənglə, 3 əşyanı birləşdir.

*II qrup:* Rəqəmlərin içindən 3-ü tap.

*III qrup:* İpin üstünə 3 muncuq düz. 3 rəqəmini göstər.

*IV qrup:* Rəqəmlərin içindən 1, 2, 3 ədədini tap və sıra ilə düz.

## MƏŞĞƏLƏ 23

**2.3.1.** Əşyalarla 3 dairəsində riyazi əməliyyatlar yerinə yetirir.

**Mövzu:** 3 dairəsində sadə riyazi əməliyyatlar. 3 ədədini əşyalarla göstərir. 3 dairəsində riyazi əməliyyatı yerinə yetirir.



**Məqsəd:** 3 ədədini əşyalarla göstərir. 3 dairəsində riyazi əməliyyatı yerinə yetirir.

**İnteqrasiya: 2.1.3.** Müşahidə etdiyi əşyaları fərqləndirir.

**2.2.1.** Dinləyib-anladığını verdiyi sual və cavablarla nümayiş etdirir.

**4.2.3.** Problemin həllində iştirak edir.

**İş forması:** Kollektiv iş, fərdi iş, cütlərlə iş.

**Üsullar:** Əqli hücum, tap-tapmaca və s.

**Resurslar:** Müxtəlif əşyalar, rəqəmlər, rəngli karandaşlar və s.

## Məşğələnin gedişi

**Aktuallaşma:** Tərbiyəçi-müəllim səbətdə meyvələr və tərəvəzlər gətirir. İki səbət qoyur. Uşaqlara deyir: Uşaqlar, meyvə və tərəvəzlər qarışıqdır. Gəlin bir səbətə 2 meyvə, bir səbətə 1 tərəvəz qoyaq. Daha sonra iki səbətdəki meyvə və tərəvəzləri sayaq: 1, 2, 3. Neçə meyvə və neçə tərəvəz olduğunu sayaq. 2 meyvə, 1 tərəvəz. Bunlar bir yerdə 3 edir. Ağacın üstündə 1 quş var, 2 quş da onun yanına qonur (bunu şəkil üzrə göstərir). Neçə quş oldu?

**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim müxtəlif riyazi əməliyyatları nümunə üzərində göstərərək uşaqlara başa salır.

Uşaqlar əşyaları sayaraq əməliyyatı yerinə yetirməyə çalışırlar.

**İdman dəqiqəsi:**

**Tətbiqetmə mərhələsi:** Qruplarla iş təqdim edilir.

*I qrup:* Kirpi bir alma aparır. Neçə alma da qoysaq 3 alma olar?

*II qrup:* Qutuda 2 kvadrat var. Neçə kvadrat qoysaq 3 kvadrat olar?

*III qrup:* Səbətlərin üstündə rəqəmlər var. Hər rəqəmə uyğun meyvə qoy.

*IV qrup:* İpin üstündə bir muncuq var. Neçə muncuq taxsaq, 3 muncuq edər?

# MƏŞĞƏLƏ 24

**2.3.3.** Həndəsi fiqurları (dairə, üçbucaq, kvadrat) adlandırır.

**Mövzu:** Həndəsi fiqurlar: Üçbucaq.

**Məqsəd:** Həndəsi fiqurlar - dairə, kvadrat və üçbucağı adlandırır. Həndəsi fiqurları - dairə, kvadrat üçbucağı fərqləndirir.

**İnteqrasiya: 2.1.3.** Müşahidə etdiyi əşyaları fərqləndirir.

**2.2.1.** Dinləyib-anladığını verdiyi sual və cavablarla nümayiş etdirir.

**3.1.1.** Sadə təsvirlər çəkir.

**4.2.2.** Qrupun üzvü kimi fəaliyyət göstərir.

**İş forması:** Fərdi iş, kollektiv iş, cütlərlə iş.

**Üsullar:** Əqli hücum, sual-cavab və s.

**Resurslar:** Həndəsi fiqurlar, şəkilli kartlar, həndəsi fiqura bənzər şəkillər və s.

## Məşğələnin gedişi

**Aktuallaşma:** Tərbiyəçi-müəllim şənlik bəzəyi bağlayır qrup otağında. Bəzək həndəsi fiqurlar olan dairə, üçbucaq, kvadratla bəzənib.

Tərbiyəçi-müəllim uşaqlara deyir: Qrup otağımızı nə zaman bəzəyirik? Gəlin baxaq, görək hansı fiqurlarla bəzənib. Dairə, kvadrat və üçbucaq.



**Dərketmə mərhələsi:** Dairəni kim göstərər, dairənin kənarı necə olur, hansı rəngdədir? Kvadratın neçə bucağı var, hansı rəngdədir? Otaqda kvadrata oxşar əşyalar tapa bilərik?

-Üçbucağın 3 bucağı var. Əşyaların içindən üçbucağa bənzər fiqurları tap. Bucaqlarını sayaq. Tərbiyəçi-müəllim üçbucağa bənzər papaqları uşaqların başına taxır.

**İdman dəqiqəsi:**

**Tətbiqetmə mərhələsi:** Qruplarla iş.

*I qrup:* Fiqurların içindən üçbucaqları tapıb qırmızı rəngləyin.

*II qrup:* Kvadratı, dairəni, üçbucağı öz yuvasına qoy.

*III qrup:* Üçbucağa oxşar əşyaları tapın.

*IV qrup:* 3 dənə üçbucağı üst-üstə qoyun. Nə alınacaq?

## MƏŞĞƏLƏ 25

**2.3.5.** Böyüklərin göstərişi ilə tədqiqat üsullarından (ölçmə, müqayisə) istifadə edir.

**Mövzu:** Məntiqi məsələlər.

**Məqsəd:** Böyüklərin göstərişi ilə məntiqi məsələləri həll etməyə çalışır.

**İnteqrasiya: 3.1.2.** Təsvirlərində uyğun rənglərdən istifadə edir.

**4.2.3.** Problemin həllində iştirak edir.

**İş forması:** Fərdi iş, qruplarla, kollektiv.

**Üsullar:** Əqli hücum, tap-tapmaca, sual-cavab.

**Resurslar:** Karandaşlar, şəkilli kartlar, müxtəlif fiqurlar və s.



## Məşğələnin gedişi

**Motivasiya:** Tərbiyəçi-müəllim uşaqlara müxtəlif şəkillər üzərində məntiqi suallar verir.

-Uşaqlar, iki flaminqo var. Flaminqolardan biri tək ayağı üstə durub. Sizcə, iki flaminqonun birlikdə neçə ayağı var?

**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim lövhəyə iki bina şəkli yapışdırır. Birinci bina iki mərtəbəli, ikinci bina dörd mərtəbəlidir. Binaların pəncərələri üçbucaq və dairə ilə təsvir olunub.

*I sual:* Hündür mərtəbəli binanın iki pəncərəsinin işığı yanır. Müxtəlif mərtəbələrdədir. Ancaq eyni həndəsi fiqurdur. Onu tapın.

*II sual:* Alçaq binada iki pəncərədə işıq yanır. Eyni mərtəbədə, müxtəlif həndəsi fiqurlarda onu tapın.

**İdman dəqiqəsi:**

**Tətbiqetmə mərhələsi:** Uşaqlarla oyun təşkil olunur. Hər uşağın əlinə bir parça torba verilir. Hər torbanın üstünə rəqəm yazılır (1, 2, 3). Kimin torbasının üstündə hansı rəqəm varsa, torbaya onu yığmalıdır.

## MƏŞĞƏLƏ 26

**2.3.1.** Əşyalarla 3 dairəsində riyazi əməliyyatlar yerinə yetirir.

**Mövzu:** Fiqurların köməyi ilə artma və azalma.

**Məqsəd:** Çoxalma əməlini fiqurlar üzərində yerinə yetirir. Azalma əməlini fiqurlar üzərində yerinə yetirir.

**İnteqrasiya: 2.1.3.** Müşahidə etdiyi əşyaları fərqləndirir.

**2.2.1.** Dinləyib-anladığını verdiyi sual və cavablarla nümayiş etdirir.

**4.2.3.** Problemlərin həllində iştirak edir.

**İş forması:** Kollektiv iş, fərdi iş, cütlərlə iş.

**Üsullar:** Əqli hücum, tap-tapmaca və s.

**Resurslar:** Rəqəmlər, əşyalar, şəkilli kartlar və s.

## Məşğələnin gedişi

**Aktuallaşma:** Uşaqlar, baba həyətdə iki ağac əkib (oyuncaqlarla göstərilir). İstəyir ki, iki ağacın yanına bir ağac da əksin. Gəlin sayaq, görək babanın həyətində neçə ağac oldu?

**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim stolun üstünə müxtəlif oyun əşyaları qoyur. -Uşaqlar, hər kəs bir əşya götürsün, biz bu əşyanın yanına neçə əşya qoysaq, üç əşya edər? Uşaqlar, gəlin birlikdə tapaq. Bir əşyanın yanına bir əşya qoyaq, neçə əşya etdi? İki əşyanın yanına bir əşya qoyaq və sayaq – 1, 2, 3.

**İdman dəqiqəsi:** Musiqi sədaları altında ritmik hərəkətlər.

**Tətbiqetmə mərhələsi:** Uşaqlar, gəlin oyun oynayaq.

Nənəyə mürəbbə bişirməkdə kömək edək.

Tərbiyəçi-müəllim stolun üstünə qablar düzür. -Uşaqlar, hər qabda meyvələr var. Qabların üstünə say yazılıb: 1, 2, 3. İçindəki meyvələri sayırıq və hər qabdakı meyvəni 3-ə tamamlamalıyıq. Əgər bir meyvə varsa, ora iki meyvə əlavə edirik ki, üç meyvə olsun.

Məşğələ yekunlaşır. Uşaqlar rəğbətləndirilir.

## MƏŞĞƏLƏ 27

**2.3.2.** Əşyaları forma, ölçü və sayına görə müqayisə edir.

**Mövzu:** Əşyaların ölçülərinə görə müqayisəsi.

**Məqsəd:** Əşyaları ölçülərinə görə müqayisə edir. Əşyaları əlamətlərinə görə müqayisə edir.

**İnteqrasiya: 2.1.3.** Müşahidə etdiyi əşyaları fərqləndirir.

**3.1.2.** Təsvirlərində uyğun rənglərdən istifadə edir.

**4.2.3.** Problemin həllində iştirak edir.

**İş forması:** Fərdi iş, kollektiv iş, cütlərlə iş.

**Üsullar:** Əqli hücum, tap-tapmaca, sual-cavab və s.

**Resurslar:** Müxtəlif əşyalar, rəngli karandaşlar və s.

### Məşğələnin gedişi

**Motivasiya:** Qırmızıpapağın çoxlu oyuncaqları var. Onlar müxtəlif böyüklükdə və müxtəlif rənglərdədir.



**Dərketmə mərhələsi:** Uşaqlara müxtəlif əşyalar göstərilir. Sizcə, burada ən böyük oyuncaq hansıdır? Bəs bu oyuncaq rəngində başqa hansı oyuncağın adını deyə bilərsiniz? Sizcə, hansı oyuncaq böyük, hansı kiçikdir? Eyni oyuncağı tapın. Rəngləri və ölçüləri müxtəlifdir.

**İdman dəqiqəsi:** Musiqi sədaları altında ritmik hərəkətlər.

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqlara qrupdakı böyük oyuncağı tapıb stolun üstünə yığmalarını təklif edir. Kim birinci gətirərsə, o qalibdir. Qrupdakı ən kiçik oyuncağı gətirməyi təklif edir. Kim birinci gətirərsə, o, qalib gəlir. Gəlin əşyaları müqayisə edək.

Məşğələ yekunlaşır. Uşaqlar rəğbətləndirilir.

## MƏŞĞƏLƏ 28

**2.3.3.** Həndəsi fiqurları (dairə, üçbucaq, kvadrat) adlandırır.

**Mövzu:** Əşyalar və həndəsi fiqurlar.

**Məqsəd:** Həndəsi fiqurları fərqləndirir. Həndəsi fiqurları adlandırır. Həndəsi fiqurlara oxşar əşyaları tapır və adlandırır.

**İnteqrasiya: 2.1.3.** Müşahidə etdiyi əşyaları fərqləndirir.

**4.2.3.** Problemin həllində iştirak edir.

**İş forması:** Qruplarla iş, fərdi iş, kollektiv iş.

**Üsullar:** Əqli hücum, tap-tapmaca, sual-cavab.

**Resurslar:** Həndəsi fiqurlar, həndəsi fiqurlara bənzər əşyalar, şəkilli kartlar və s.



**Məşğələnin gedişi**

**Aktuallaşma:** Tərbiyəçi-müəllim böyük qırmızı kvadrat, böyük sarı üçbucaq, böyük yaşıl dairə kəsir. Ortalarını formaya uyğun kəsir. Həmin həndəsi fiqurların qarşısına çoxlu balaca kəsilmiş rəngarəng fiqurlar qoyur. -Uşaqlar, gəlin fiqurları adlandıraq və rənglərini deyək. Fiqurun rənginə uyğun öz fiqurunu tapıb onun içinə ataq. Məsələn: böyük qırmızı kvadratın içinə kiçik qırmızı kvadrat tapıb atmalıyıq və s.

**Dərketmə mərhələsi:** Uşaqlar, dairə kvadratdan necə fərqlənir və ya üçbucaq kvadratdan? Gəlin əşyaların içindən üçbucağa, dairəyə və kvadrata bənzər əşyalar tapaq və adlarını deyək.

**İdman dəqiqəsi:** Musiqi sədaları altında ritmik hərəkətlər.

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllim qutular qoyur. Hər qutunun üstündə bir fiqur təsvir olunub. Müxtəlif fiqurlara bənzər şəkilli kartlar verilir uşaqlara. Uşaqlar hər fiqura bənzər şəkilli kartı həmin qutuya atmalıdır.

Məşğələdə uşaqların işi dəyərləndirilir. Məşğələ yekunlaşır.

# MƏŞĞƏLƏ 29

**2.3.3.** Böyüklərin göstərişi ilə tədqiqat üsullarından (ölçmə, müqayisə) istifadə edir.

**Mövzu:** Maqnit, böyüdücü şüşədən istifadə edərək tədqiqatlar.

**Məqsəd:** Maqniti tanıyır. Maqnitdən istifadə qaydasını bilir.

**İnteqrasiya: 1.1.4.** Kiçik motor hərəkətlərini (əşyaları və oyuncaqları barmaqları arasında saxlayır, atıb-tutur, şəkil çəkir, yapışdırır, quraşdırır və s.) koordinasiya edir.

**2.1.5.** Ətraf aləmdə baş verən proseslərə dair suallar verir və sadə ifadələrlə (böyüyür, uzanır, açılır, tökülür, saralır, dəyişir və s.) təsvir edir.

**4.2.3.** Problemin həllində iştirak edir.

**İş forması:** Fərdi iş, kollektiv iş.

**Üsullar:** Əqli hücum, sual-cavab, müzakirə.

**Resurslar:** Maqnit, dəmir əşyalar və s.

## Məşğələnin gedişi

**Motivasiya:** Tərbiyəçi-müəllim bir dəmir əşyanı stolun üstünə qoyur və kənardan maqnitlə çəkir. Uşaqların maraq dairəsi artır.

**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqlara maqniti göstərir. Maqnit haqqında uşaqları məlumatlandırır. Necə istifadə etmələrini uşaqlara göstərir. -Maqnit yalnız metal əşyaları özünə çəkir.

**İdman dəqiqəsi:** Uşaqlar ritmik hərəkətlər edir.

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqları kollektiv formada tədqiqat aparmağa dəvət edir. Maqnitin qarşısına dəmir qoyurlar maqnit çəkir. Uşaqlar çox maraqla tədqiqat aparırlar. Plastmas, taxta, kağız qoyub yoxlayırlar. Maqnitin həmin materialları çəkmədiyini görürlər və öyrənirlər.

Məşğələ yekunlaşır.

## MƏŞĞƏLƏ 30

**2.3.5.** Böyüklərin göstərişi ilə tədqiqat üsullarından (ölçmə, müqayisə) istifadə edir.

**Mövzu:** Böyüdücü şüşədən istifadə edərək tədqiqatlar aparır.

**Məqsəd:** Böyüdücü şüşəni maqnitdən fərqləndirir.

Böyüdücü şüşədən istifadə edir.

**İnteqrasiya: 1.1.4.** Kiçik motor hərəkətlərini (əşyaları və oyuncaqları barmaqları arasında saxlayır, atıb-tutur, şəkil çəkir, yapışdırır, quraşdırır və s.) koordinasiya edir.

**2.1.5.** Ətraf aləmdə baş verən proseslərə dair suallar verir və sadə ifadələrlə (böyüyür, uzanır, açılır, tökülür, saralır, dəyişir və s.) təsvir edir.

**4.2.3.** Problemin həllində iştirak edir.

**İş forması:** Fərdi iş, kollektiv iş.

**Üsullar:** Əqli hücum, müzakirə, sual-cavab.

**Resurslar:** Maqnit, böyüdücü şüşə, şəkillər, əşyalar və s.

### Məşğələnin gedişi

**Aktuallaşma:** Tərbiyəçi-müəllim eyni əşyanın böyük, bir də kiçik şəklini göstərir və soruşur: Uşaqlar, bu əşyanın adı nədir? Bu şəkillərdən biri kiçik, biri isə böyükdür. Sizcə, biz kiçik əşyanı necə böyüdə bilərik?

**Dərketmə mərhələsi:** Uşaqlar, gəlin bir kiçik əşya götürək və böyüdücü şüşə ilə baxaq. Şüşəni qoyanda əşya böyüyür, götürərkən yenidən əşya kiçilir. Tərbiyəçi-müəllim şüşədən necə istifadə etmək qaydasını uşaqlarla birlikdə tədqiq edir.

**İdman dəqiqəsi:**

**Tətbiqetmə mərhələsi:** Qruplarla iş.

*I qrup:* Əşyaların içindən böyüdücü şüşəni tapın.

*II qrup:* Böyüdücü şüşə ilə baxılan əşyalar hansılardır?

*III qrup:* Verilən əşyaların rəsmini elə çəkin ki, böyüdücü şüşə ilə baxarkən göründüyü kimi olsun.

*IV qrup:* Böyüdücü şüşənin maqnitdən fərqi nədir?

# *Ətraf aləmlə tanışlıq və nitq inkişafı məşğələləri*



## MƏŞĞƏLƏ 1

***(I həftə)***

**2.1.5.** Ətraf aləmdə baş verən proseslərə dair suallar verir və sadə ifadələrlə (böyüyür, uzanır, açılır, tökülür, saralır, dəyişir və s.) təsvir edir.

**Mövzu:** Təbiəti necə qoruyaq?

**Məqsəd:** Təbiətdə baş verən hadisələri sadə ifadələrlə təsvir edir. Təbiəti qorumağın yolları haqqında suallar verir.

**İnteqrasiya: 2.2.1.** Dinləyib-anladığını verdiyi sual və cavablarla nümayiş etdirir.

**2.2.5.** Danışığında iki-dörd sözdən ibarət sadə cümlələrdən istifadə edir.

**3.1.2.** Təsvirlərində uyğun rənglərdən istifadə edir.

**3.2.1.** Sadə əmək tapşırıqlarını (özünəxidmət, təbiətdə əmək, təsərrüfat-məişət əməyi üzrə) yerinə yetirir.

**İş forması:** Fərdi, kollektiv.

**Üsullar:** Əqli hücum, müzakirə, sual-cavab, sujetli-rollu oyunlar.

**Resurslar:** Rəngli kağızlar, təbiətə aid şəkillər, plastik qablar və s.

### Məşğələnin gedişi

**Aktuallaşma:** Tərbiyəçi-müəllim stolun üstündə təbiət guşəsi düzəldir. Təbiət təsvir olunan maketin üzərinə pərakəndə halda plastik qablar, şüşə qablar və s. qoyur. Uşaqlardan soruşur: Təbiəti sevirsinizmi? Təbiəti qorumaq üçün nə etməliyik? Sizcə, mən düz etmişəmmi? Boş şüşələri təbiətə atmaq olarmı?

**Dərketmə mərhələsi:** İldə neçə fəsil var? Təbiətdə hansı təbii hadisələr baş verir? Ağacları sevirsinizmi?



**Qeyd:** Tərbiyəçi-müəllim suallar verdikcə həmin suallara aid uşaqlara şəkil göstərir. Uşaqlar tərbiyəçi-müəllimin köməyi ilə suallara cavab verirlər.

Tərbiyəçi-müəllim təbiəti qorumaq lazım olduğundan danışır. Zibilləri yerə atmamağa, onlara ayrılmış qablara atmağı öyrədir.

**İdman dəqiqəsi:**

*Qopdu bayırda külək,*
*Uğuldadı yel, boran.*
*Döyüldü pəncərə bərk,*
*Açdı qapını külək.*

(Məzmuna uyğun hərəkət olunur).

**Tətbiqetmə mərhələsi:** "Xoşbəxt və kədərli dünya" oyunu, "Təkrar emal" oyunu (Didaktik oyunlar kitabından).

*Tərbiyəçi-müəllim uşaqlara fərdi iş verir.*

Təbiətə xeyirli və zərərli olan kartların şəkillərini stolun üstünə düzür. Təbiət maketini ortaya qoyur. Uşaqlar bir-bir lövhəyə çıxır, bir kart çəkir, kartda nə təsvir olunsa, onun adını çəkir. Təbiətə xeyiri və ziyanı olduğu haqqında bir-iki cümlə deyir. Tərbiyəçi-müəllim məşğələnin sonunda uşaqları rəğbətləndirir.

# MƏŞĞƏLƏ 2
## *(II həftə)*

**2.1.4.** Canlı və cansız aləmin obyektlərini (insan, heyvan, quş, bitki, qum, daş, torpaq, işıq) əlamətinə görə fərqləndirir.

**2.1.1.** Özü, ailəsi və vətəni haqqında suallara cavab verir.

**Mövzu:** Duyğu orqanlarım.

**Məqsəd:** Duyğu orqanlarını fərqləndirir. Duyğu orqanları haqqında suallar verir və cavablandırır.

**İnteqrasiya: 2.2.1.** Dinləyib-anladığını verdiyi sual və cavablarla nümayiş etdirir.

**İş forması:** Fərdi, kollektiv.

**Üsullar:** Əqli hücum, sual-cavab.

**Resurslar:** Bədən üzvləri təsvir olunmuş kartlar, rəngli kağızlar, müxtəlif şəkillər.



## Məşğələnin gedişi

**Motivasiya:** Tərbiyəçi-müəllim lövhəyə uşaq şəkli təsvir olunmuş şəkil asır. Lövhədə nə gördüklərini, onun canlı və ya cansız olduğunu soruşur.

**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqların diqqətini lövhədəki uşaq şəklinə və ətrafda təsvir olunmuş bədən üzvlərinə cəlb edir. Uşaqlar tərbiyəçi-müəllim ilə birlikdə öz bədən üzvlərini göstərir və adlarını deyirlər. Onların "duyğu orqanı" adlandığını öyrənirlər. Həmin duyğu orqanlarının funksiyaları haqqında tərbiyəçi-müəllim uşaqlara deyir və canlı olaraq göstərir. Məsələn: Musiqini dinlədir, əli hər hansısa bir əşyaya toxundurur və s.

**İdman dəqiqəsi:** Tapmaca.

*Bel sapı, balta sapı,*
*Bir budağı, beş yarpağı.*

**(Əl)**

Uşaqlar cavabı tapsa, əl çalırlar.

*Beş dərviş bir quyuya daş atar.*

**(Ağız və barmaqlar)**

Əli ilə ağıza nəsə aparırlar.

*Bir ağacım var – bir gövdəsi, beş budağı,*
*Hər budaqda bir sədəf.*

**(Bilək, barmaqlar, dırnaqlar)**

Qollarını oynadırlar və s.

**Tətbiqetmə mərhələsi:** "Bədən üzvlərim" - didaktik oyun ("Didaktik oyunlar" kitabından, səh.87).

*Tərbiyəçi-müəllim uşaqlara fərdi iş verir.*

**Oyunun gedişi:** Tərbiyəçi-müəllim bədən üzvləri təsvir olunmuş kartları uşaqlara paylayır. Tərbiyəçi-müəllim hansı bədən üzvlərinin adını çəkərsə, həmin uşaq ayağa qalxır və həmin üzv haqqında bir-iki cümlə qurub danışır.

# MƏŞĞƏLƏ 3
## *(III həftə)*

**2.1.5.** Ətraf aləmdə baş verən proseslərə dair suallar verir və sadə ifadələrlə (böyüyür, uzanır, açılır, tökülür, saralır, dəyişir və s.) təsvir edir.

**2.1.6.** Gündəlik rast gəldiyi, ona tanış olmayan obyekt və hadisələr haqqında məlumat almaq üçün suallar verir.

**Mövzu:** Mənim sağlamlığım.

**Məqsəd:** Sağlamlıq haqqında danışır. Sağlamlığı necə qorumaq haqqında suallar verir.

**İnteqrasiya: 1.1.1.** Fiziki hərəkətləri (müxtəlif istiqamətlərə yeriş və qaçış hərəkətlərini icra etmək, dırmanma, gimnastik skamyanın üstü ilə sürünmə və kürəciyi bir-birinə tərəf diyirlətmək, topu atıb-tutma) müvazinətini saxlayaraq yerinə yetirir.

**2.2.1.** Dinləyib-anladığını verdiyi sual və cavablarla nümayiş etdirir.

**İş forması:** Fərdi, kollektiv, cütlərlə.

**Üsullar:** Sual-cavab, əqli hücum, sujetli-rollu oyun.

**Resurslar:** İdman alətləri (top, gimnastika skamyası və s.) şəkilli kartlar və s.



## Məşğələnin gedişi

**Motivasiya:** Tərbiyəçi-müəllim uşaqları idman zalına aparır. Yüngül yeriş və qaçış hərəkətləri etdirir. Gimnastika skamyasında uşaqlara müvazinətini qoruyaraq keçmələrini deyir.

**Dərketmə mərhələsi:** Uşaqlar yüngül idman hərəkətləri edirlər. Tərbiyəçi-müəllim soruşur: Uşaqlar, biz sağlamlığımızı qorumaq üçün nə etməliyik? Necə qidalanmalıyıq? Fəsillərə uyğun necə geyinməliyik?

Uşaqlar tərbiyəçi-müəllimin köməyi ilə bu sualları cavablandıraraq mövzunu anlayırlar.

**İdman dəqiqəsi:** Oyun: "Qatar".

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqlarla oyun təşkil edir. Uşaqlar qruplara bölünür:

*I qrup:* İdman alətlərindən istədiklərinizin şəklini çəkin.

*II qrup:* Əşyaların içindən idman alətlərini tapıb rəngləyin.

*III qrup:* Şəkilli kartların içindən xeyirli qidaların şəkillərini tapıb, adlarını deyin.

*IV qrup:* Hansı fəsildə hansı paltarları geyindiyimizi söyləyin.

Uşaqların işləri təqdim olunur. Uşaqlar rəğbətləndirilir.

## MƏŞĞƏLƏ 4
### *(IV həftə)*

**2.1.4.** Canlı və cansız aləmin obyektlərini (insan, heyvan, quş, bitki, qum, daş, torpaq, işıq) əlamətinə görə fərqləndirir.

**2.1.5.** Ətraf aləmdə baş verən proseslərə dair suallar verir və sadə ifadələrlə (böyüyür, uzanır, açılır, tökülür, saralır, dəyişir və s.) təsvir edir.

**Mövzu:** Günəş bizi isidir.

**Məqsəd:** Günəş haqqında suallar verir. Günəş haqqında danışır.

**İnteqrasiya: 2.2.1.** Dinləyib-anladığını verdiyi sual və cavablarla nümayiş etdirir.

**2.3.2.** Əşyaları forma və ölçüsünə (uzunluğuna, eninə, hündürlüyünə, qalınlığına) görə fərqləndirir.

**3.1.1.** Sadə təsvirlər çəkir.

**İş forması:** Fərdi, kollektiv, cütlərlə.

**Üsullar:** Tap-tapmaca, sual-cavab, sujetli-rollu oyunlar.

**Resurslar:** Rəngli kağızlar və karandaşlar, şəkilli kartlar, böyük günəş maketi və s.

## Məşğələnin gedişi

**Motivasiya:** Tərbiyəçi-müəllim günəş və yağış maketini uşaqlara göstərir və soruşur: Uşaqlar, nə görürsünüz? Günəşi, yoxsa yağışı sevirsiniz? Günəş çıxarkən nə edirsiniz? Yağış yağarkən nə edirsiniz?



**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim sərin və isti paltarları stolun üstünə qoyur və uşaqlara deyir: Uşaqlar, gəlin tapaq, görək günəş çıxarkən hansı paltarları, yağış yağarkən hansı paltarları geyinirik? Günəşin hansı rəngdə olmasını və nə formada olmasını öyrədir.

**İdman dəqiqəsi:** Günəş çıxır, tərbiyəçi-müəllim əlinə günəş maketi götürür. Uşaqlar oynayırlar. Yağış yağır, uşaqlar yerdə otururlar.

**Tətbiqetmə mərhələsi:** "Günəşi geyindir" didaktik oyun (səh.3). Masanın ortasına gülən gözlü günəş şəkli qoyulur. Uşaqlar günəşi geyindirməyə dəvət olunur. Yəni, ana günəşin ətrafına rəngli şüalar qoyulur. Hər uşaq bir rəngdə şüa qoyur. Beləliklə, uşaqlar günəşi geyindirir.

# MƏŞĞƏLƏ 5

*(V həftə)*

**2.1.6.** Gündəlik rast gəldiyi, ona tanış olmayan obyekt və hadisələr haqqında məlumat almaq üçün suallar verir.

**Mövzu:** İlin fəsilləri.

**Məqsəd:** İlin fəsillərini fərqləndirir. İlin fəsilləri haqqında sualları cavablandırır.

**İnteqrasiya: 2.2.1.** Dinləyib-anladığını verdiyi sual və cavablarla nümayiş etdirir.

**3.1.1.** Sadə təsvirlər çəkir.

**3.1.3.** Kəsilmiş formalardan istifadə etməklə sadə kompozisiyalar qurur.

**İş forması:** Fərdi, kollektiv, cütlərlə.

**Üsullar:** Əqli hücum, tap-tapmaca, sual-cavab.

**Resurslar:** Rəngli kağızlar, karandaşlar, şəkilli kartlar, fəsillərə aid şəkillər və s.

## Məşğələnin gedişi

**Motivasiya:** Tərbiyəçi-müəllim fəsillər təsvir olunmuş şəkilləri lövhədə uşaqlara göstərir və onların adlarını uşaqlara deyir. Onların əlamətlərini uşaqlarla birlikdə sadalayır.



**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqlardan hansı fəsilləri tanıdığını soruşur: İldə neçə fəsil var? Hansı fəsildə havalar necə olduğunu soruşur?

Tərbiyəçi-müəllim uşaqlara cümlələr qurmağa köməklik göstərir.

**İdman dəqiqəsi:** "Külək səsi". Uşaqlar külək səsi çıxararaq bədənlərini o yana, bu yana yellədirlər. Yağış yağır səsi, uşaqlar otu-rub-dururlar və s.

**Tətbiqetmə mərhələsi:** "Fəsillər" oyunu, ("Didaktik oyun-lar" kitabından, səh.52).

**Qruplarla iş.** Uşaqlar 4 qrupa bölünür:

*I qrup:* Yaz fəsli kartı.

*II qrup:* Yay fəsli kartı.

*III qrup:* Payız fəsli kartı.

*IV qrup:* Qış fəsli kartı.

Müxtəlif fəsillərə aid şəkillər verilir. Hər qrup öz fəslinə uy-ğun şəkil tapıb kartın üstünə qoyur.

Qruplar dəyərləndirilir. Məşğələ yekunlaşır. Uşaqlar rəğbət-ləndirilir.

## MƏŞĞƏLƏ 6
### *(VI həftə)*

**2.1.4.** Canlı və cansız aləmin obyektlərini (insan, heyvan, quş, bitki, qum, daş, torpaq, işıq) əlamətlərinə görə fərqləndirir.

**Mövzu:** Ev heyvanları.

**Məqsəd:** Ev heyvanlarını əlamətlərinə görə fərqləndirir. Ev heyvanlarına dair suallar verir.

**İnteqrasiya: 2.2.1.** Dinləyib-anladığını verdiyi sual və cavab-larla nümayiş etdirir.

**3.1.4.** Sadə yapma (bir-üç hissədən ibarət fiqurlar düzəltmək) bacarıqları nümayiş etdirir.

**İş forması:** Fərdi, cütlərlə, kollektiv.

**Resurslar:** Rəngli kağızlar, plastilin lövhə, şəkilli kartlar və s.

## Məşğələnin gedişi

**Aktuallaşma:** Tərbiyəçi-müəllim uşaqlara ev heyvanları oyuncaqları və ya ev heyvanları kartları paylayır. Tərbiyəçi-müəllim hansı heyvanın adını çəksə, uşaqlar həmin heyvanı tapıb göstərir və ona aid bir-iki söz deyir.

**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim ev heyvanları haqqında danışır və uşaqlara suallar verir. Onların niyə ev heyvanları olduğunu soruşur.



**İdman dəqiqəsi:**
(Məzmuna uyğun hərəkət olunur).
**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllim qruplarla iş təşkil edir.
*I qrup:* Plastilinlə it düzəltmək.
*II qrup:* Hər hansısa bir heyvan şəklini rəngləmək.
*III qrup:* Heyvanı öz balaları ilə birləşdir.
*IV qrup:* Bir ev heyvanı şəklini çək.
Qruplar dəyərləndirilir.
Məşğələ yekunlaşır. Uşaqlar rəğbətləndirilir.

## MƏŞĞƏLƏ 7
### *(VII həftə)*

**2.1.4.** Canlı və cansız aləmin obyektlərini (insan, heyvan, quş, bitki, qum, daş, torpaq, işıq) əlamətlərinə görə fərqləndirir.

**Mövzu:** Vitaminli qidalar.

**Məqsəd:** Qidaları fərqləndirir. Qidaların faydaları haqqında danışır.

**İnteqrasiya: 2.2.5.** Dinləyib-anladığını verdiyi sual və cavablarla nümayiş etdirir.

**2.2.5.** Danışığında iki-dörd sözdən ibarət sadə cümlələrdən istifadə edir.

**3.1.1.** Sadə təsvirlər çəkir.

**İş forması:** Fərdi, cütlərlə.

**Üsullar:** Sual-cavab, əqli hücum.

**Resurslar:** Şəkilli kartlar, rəngli kağızlar, meyvə və tərəvəz maketləri və s.



## Məşğələnin gedişi

**Aktuallaşma:** Tərbiyəçi-müəllim stolun üstünə qablarda müxtəlif qidalar qoyur. Uşaqlardan hansı qidaları sevib-sevmədiklərini soruşur.

**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllimin suallarını uşaqlar cavablandırır.

**İdman dəqiqəsi:**

**Tətbiqetmə mərhələsi:** "Dadından tanı" didaktik oyunu.

*Tərbiyəçi-müəllim uşaqlara fərdi iş verir.*

# MƏŞĞƏLƏ 8
***(VIII həftə)***

**2.1.6.** Gündəlik rast gəldiyi, ona tanış olmayan obyekt və hadisələr haqqında məlumat almaq üçün suallar verir.

**Mövzu:** Payız fəsli.

**Məqsəd:** Payız fəsli haqqında ona tanış olmayan hadisələrdən suallar verir. Payız fəsli haqqında bildiklərini danışır.

**İnteqrasiya: 2.2.1.** Dinləyib-anladığını verdiyi sual və cavablarla nümayiş etdirir.

**3.1.1.** Sadə təsvirlər çəkir.

**3.1.3.** Kəsilmiş formalardan istifadə etməklə sadə kompozisiyalar qurur.

**İş forması:** Fərdi, kollektiv, cütlərlə.

**Üsullar:** Əqli hücum, tap-tapmaca, sual-cavab.

**Resurslar:** Rəngli kağızlar, karandaşlar, A-4 kağızları, şəkilli kartlar və s.

## Məşğələnin gedişi

**Aktuallaşma:** Sarı yarpaqları olan budaq, çətir, payız meyvələri yığılmış səbət olan guşəni tərbiyəçi-müəllim uşaqlara göstərir. Orada nələrin olduğunu uşaqlardan soruşur.



**Dərketmə mərhələsi:** “Payız yarpaqları”. 4 cür vazo (karandaşdan kəsilmiş). Hər vazonun üstündə bir rəng yarpaq. Kənarda qarışıq rəngli yarpaqlar. Uşaqlar hər bir yarpağı öz vazosuna seçib qoymalıdır.

**İdman dəqiqəsi:** Musiqi sədaları altında hərəkətlər.

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqlara kollektiv iş verir. Müxtəlif əşyaların içindən payıza aid olanları seçib payız fəsli obrazı yaratmaq.

Məşğələ yekunlaşır, uşaqlar rəğbətləndirilir.

## MƏŞĞƏLƏ 9

*(IX həftə)*

**2.1.6.** Gündəlik rast gəldiyi ona tanış olmayan obyekt və hadisələr haqqında məlumat almaq üçün suallar verir.

**Mövzu:** Nəqliyyat vasitəsi. Avtobus.

**Məqsəd:** Gördüyü müxtəlif avtobusları bir-birindən fərqləndirir. Şəkildə gördüyü tanış olmayan müxtəlif avtobus növləri haqqında suallar verir.

**İnteqrasiya: 2.3.2.** Əşyaları forma və ölçüsünə (uzununa, eninə, hündürlüyünə, qalınlığına) görə fərqləndirir.

**2.2.5.** Danışığında iki-dörd sözdən ibarət sadə cümlələrdən istifadə edir.

**3.1.1.** Sadə təsvirlər çəkir.

**İş forması:** Qruplarla, fərdi.

**Üsullar:** Əqli hücum, sual-cavab.

**Resurslar:** Rəngli karandaşlar, A-4 kağızlar, şəkilli kartlar, videoroliklər və s.

## Məşğələnin gedişi

**Motivasiya:** Nəqliyyat vasitəsi avtobusu uşaqlara təqdim edərək onların fikrini oyuncaq avtobusa cəlb etmək.



**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim nəqliyyat vasitələri haqqında məlumat verdikdən sonra onlara şəkillər və müxtəlif nümunələr göstərir. Daha sonra uşaqlara nəqliyyat növləri təsvir olunmuş qutuları təqdim edir və nəqliyyat vasitələrinin kartlarını uşaqların önünə qoyur. Uşaqlar hər növə aid bir nümunə götürüb qutulara yığırlar.

**İdman dəqiqəsi:**

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllim kubiklərdən avtobus düzəltməyi uşaqlara tapşırır.

# MƏŞĞƏLƏ 10

*(X həftə)*

**2.1.4.** Canlı və cansız aləmin obyektlərini (insan, heyvan, quş, bitki, qum, daş, torpaq, işıq) əlamətlərinə görə fərqləndirir.

**Mövzu:** Meşədəki heyvanlar (ayı, tülkü, canavar).

**Məqsəd:** Ayı, tülkü, canavarı əlamətlərinə görə fərqləndirir. Ayı, tülkü, canavarı təsvir edir.

**İnteqrasiya: 2.2.1.** Dinləyib-anladığını verdiyi sual və cavablarla nümayiş etdirir.

**3.1.4.** Sadə yapma (bir-üç hissədən ibarət fiqurlar düzəltmək) bacarıqları nümayiş etdirir.

**İş forması:** Fərdi, cütlərlə.

**Üsullar:** Sual-cavab, əqli hücum.

**Resurslar:** Kağızlar, plastilin, karandaşlar, şəkilli kartlar, oyuncaqlar.

## Məşğələnin gedişi

**Motivasiya:** Tərbiyəçi-müəllim ayı, tülkü, canavarı meşə təsvir olunmuş maketin üstünə qoyur. Onların adını soruşur. Uşaqlara onlar haqqında məlumat verir.



**Dərketmə mərhələsi:** "Meşədə hansı heyvan yaşayır?" oyunu.

Tərbiyəçi-müəllim lövhəyə kölgəli ayı, tülkü, canavar təsvir olunmuş meşə şəklini yapışdırır. Uşaq həmin kölgələrin hansı heyvana aid olduğunu müəyyən etməlidir. Kölgəyə aid rəngli heyvan şəklini onun üstünə yapışdırmalıdır.

**İdman dəqiqəsi:**

**Tətbiqetmə mərhələsi:**

*Tərbiyəçi-müəllim uşaqlara fərdi iş verir.*

Ayı, tülkü, canavar rəsmini rəngləyin.

## MƏŞĞƏLƏ 11

***(XI həftə)***

**2.1.2.** Əşyalar və sadə sujetli şəkillər üzrə danışır.

**Mövzu:** Zooparkda.

**Məqsəd:** Zooparkda sujetli şəkil üzrə danışır.

**İnteqrasiya: 2.2.2.** Şəkillərin məzmununa əsasən hekayə və nağılları danışır.

**2.3.2.** Əşyaları forma və ölçüsünə (uzununa, eninə, hündürlüyünə, qalınlığına) görə fərqləndirir.

**3.1.1.** Sadə təsvirlər çəkir.

**İş forması:** Fərdi, cütlərlə, qruplarla.

**Üsullar:** Əqli hücum, sual-cavab və s.

**Resurslar:** Zoopark şəkli təsvir olunmuş plakat, zoopark maketi, kağız, rəngli karandaşlar və s.



## Məşğələnin gedişi

**Aktuallaşma:** Tərbiyəçi-müəllim uşaqlardan zooparka kimlərin getdiyini soruşur. Sonra tərbiyəçi-müəllim zoopark təsvir olunmuş plakatı uşaqlara göstərir. Orada heyvanların olduğunu, ora gedərkən necə davranmaq lazım olduğunu deyir.

**Dərketmə mərhələsi:** "Zooparkda gəzmək" oyunu.

Uşağa müxtəlif heyvanların təsvirləri olan 10-12 şəkil verilir və onlara diqqətlə baxmaq təklif olunur. 3-5 dəqiqə vaxt verilir. Sonra şəkillərin üstü örtülür. Uşağa gözlərini yummaq və zooparkda gəzdiyimizi təsəvvür etmək təklif olunur.

**Təlimat:** Baxdığınız şəkillərin içindən bəzi heyvanların adını deyəcəm, adını çəkmədiklərimi siz deyəcəksiniz.

**İdman dəqiqəsi:** Musiqili ritmik hərəkətlər.

**Tətbiqetmə mərhələsi:** Uşaqlar zooparkda hansı heyvanları gördüklərini desinlər.

## MƏŞĞƏLƏ 12
***(XII həftə)***

**2.1.1.** Özü, ailəsi və vətəni haqqında suallara cavab verir.

**Mövzu:** Üç rəngin sehri.

**Məqsəd:** 1. Bayrağın üzərindəki 3 rəngi təsvir edir.

2. Bayraq haqqında verilmiş suallara cavab verir.

**İnteqrasiya: 2.2.5.** Danışığında iki-dörd sözdən ibarət sadə cümlələrdən istifadə edir.

**2.3.2.** Əşyaları forma və ölçüsünə (uzununa, eninə, hündürlüyünə, qalınlığına) görə fərqləndirir.

**3.1.3.** Kəsilmiş formalardan istifadə etməklə sadə kompozisiyalar qurur.

**İş forması:** Fərdi, cütlərlə, qruplarla.

**Üsullar:** Əqli hücum, sual-cavab və s.

**Resurslar:** Bayraqlar, karandaşlar, rəngli kağızlar.

## Məşğələnin gedişi

**Aktuallaşma:** Tərbiyəçi-müəllim Azərbaycanın dövlət himni ilə məşğələyə başlayır. Uşaqlarla birlikdə himni oxuyurlar. Hər uşaq üçün Azərbaycanın üçrəngli bayrağını masanın üstünə qoyur.



**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqlara Azərbaycanın dövlət rəmzlərini göstərir, adlarını deyir. Bayrağımızın rənglərini öyrədir. Uşaqlarla sual-cavab edir.

**İdman dəqiqəsi:** Uşaqlar əllərində bayraqlarla musiqi sədaları altında ritmik hərəkətlər edir.

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqları qruplara bölür.

*I qrup:* Kəsilmiş uzunsov rəngli lentlərin içindən bayrağımızın rənglərini seçib bayrağa yapışdırır.

*II qrup:* Bayraq cızılmış kağızın içindən bayrağın rənglərini tapıb rəngləmək.

*III qrup:* Plastilinlə bayraq yapmaq.

*IV qrup:* Müxtəlif bayraqların içindən bayrağımızı tapmaq.

Qruplar dəyərləndirilir.

Məşğələ yekunlaşır. Uşaqlar rəğbətləndirilir.

## MƏŞĞƏLƏ 13
*(XIII həftə)*

**2.1.3.** Müşahidə etdiyi əşyaları fərqləndirir.

**2.1.5.** Ətraf aləmdə baş verən proseslərə dair suallar verir və sadə ifadələrlə (böyüyür, uzanır, açılır, tökülür, saralır, dəyişir və s.) təsvir edir.

**Mövzu:** Mənim günüm.

**Məqsəd:** Gün ərzində rast gəldiyi əşyaları təsvir edir. Gün ərzində baş verən dəyişiklikləri fərqləndirir.

**2.3.4.** Məkan (irəli, geri, yuxarı, aşağı, alt, üst) və zaman (səhər, günorta, axşam) anlayışlarını fərqləndirir.

**İnteqrasiya: 2.1.1.** Dinləyib-anladığını verdiyi sual və cavablarla nümayiş etdirir.

**1.2.1.** Sadə gigiyena qaydalarını (sabundan düzgün istifadə etmək, əlini, üzünü, qulağını yumaq və qurulamaq, daraq, burun dəsmalı və ya salfetdən istifadə etmək) bildiyini nümayiş etdirir.

**3.2.1.** Sadə əmək tapşırıqlarını (özünəxidmət, təbiətdə əmək, təsərrüfat-məişət əməyi üzrə) yerinə yetirir.

**İş forması:** Qruplarla, fərdi, cütlərlə.

**Üsullar:** Əqli hücum, sual-cavab və s.

**Resurslar:** Şəkilli kartlar, video roliklər və s.

### Məşğələnin gedişi

**Aktuallaşma:** Tərbiyəçi-müəllim uşaqlardan bağçaya gəlməmişdən əvvəl nə etdiklərini, daha sonra nə edəcəklərini soruşur.

**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim bir uşağın səhər yuxudan qalxandan yatana qədər nələr etdiyi haqqında məlumat verir və suallarla uşaqlardan müxtəlif cavablar alır. Uşaqlardan günəş çıxarkən nə etdiklərini, ay çıxarkən nə etdiklərini soruşur.

**İdman dəqiqəsi:** Tərbiyəçi-müəllim uşaqlara "Günəş" deyərkən ayağa qalxırlar, "Ay" dedikdə oturub özlərini yatmış kimi göstərirlər.

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllim "Bizim günümüz" didaktik oyunu təklif edir.

Tərbiyəçi-müəllim uşaqlara günün vaxtlarını bilmələri üçün oyun oynadır. Gəlinciyi çarpayıdan götürür, paltarlarını geyindirir, dişlərini fırçalayır və soruşur, sizcə, günün hansı vaxtıdır? Gəlinciyi yemək masasına əyləşdirir və soruşur, günün hansı vaxtıdır?

Beləliklə, tərbiyəçi-müəllim gəlincik üzərindən günün vaxtlarını və adlarını uşaqlara öyrədir.

Məşğələ yekunlaşır.

## MƏŞĞƏLƏ 14

*(XIV həftə)*

**2.1.5.** Ətraf aləmdə baş verən proseslərə dair suallar verir və sadə ifadələrlə (böyüyür, uzanır, açılır, tökülür, saralır, dəyişir və s.) təsvir edir.

**Mövzu:** Qar yağır.



**Məqsəd:** Qarın yağmasını təsvir edir. Qar haqqında suallar verir.

**İnteqrasiya: 2.2.2.** Şəkillərin məzmununa əsasən hekayə və nağıllar danışır.

**2.2.5.** Danışığında iki-dörd sözdən ibarət sadə cümlələrdən istifadə edir.

**3.1.1.** Sadə təsvirlər çəkir.

**3.1.3.** Kəsilmiş formalardan istifadə etməklə sadə kompozisiyalar qurur.

**İş forması:** Fərdi, kollektiv.

**Üsullar:** Əqli hücum, tap-tapmaca.

**Resurslar:** Rəngli kağızlar, fəsillərə aid kartlar, karandaşlar və s.

### Məşğələnin gedişi

**Aktuallaşma:** Tərbiyəçi-müəllim uşaqlardan qarın nə zaman yağdığını, yeni il bayramını nə zaman qeyd edəcəyimizi soruşur.

**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim lövhəyə qış fəsli rəsmini asır və uşaqlara ona aid olan kartları tapıb yanına qoymağı deyir.

Tərbiyəçi-müəllim sual-cavabla uşaqlara qış fəsli haqqında danışır.

**İdman dəqiqəsi:**

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqları qruplara bölür.

*I qrup:* Bir ağac şəkli, kənarda pambıqdan düzəlmiş qar, yaşıl yarpaqlar, sarı yarpaqlar. Qış fəsli ağacı düzəldin.

*II qrup:* Qış fəsli ağacı şəkli, kənarda müxtəlif fəsillərə aid şəkillər. -Qış fəslinə aid şəkilləri ağacın kənarına yığın.

*III qrup:* Qış fəslinə aid paltar şəkillərini seçin, adlarını deyin.

Qruplar dəyərləndirilir. Uşaqlar rəğbətləndirilir. Məşğələ yekunlaşır.

## MƏŞĞƏLƏ 15
***(XV həftə)***

**2.1.4.** Canlı və cansız aləmin obyektlərini (insan, heyvan, quş, bitki, qum, daş, torpaq, işıq) əlamətlərinə görə fərqləndirir.

**Mövzu:** Toyuqlar və cücələr.

**Məqsəd:** Toyuq haqqında məlumat verir. Cücə haqqında məlumat verir. Toyuq və cücəni bir-birindən fərqləndirir.

**İnteqrasiya: 2.2.5.** Danışığında iki-dörd sözdən ibarət sadə cümlələrdən istifadə edir.

**3.1.1.** Kəsilmiş formalardan istifadə etməklə sadə kompozisiyalar qurur.

**3.2.1.** Sadə əmək tapşırıqlarını (özünəxidmət, təbiətdə əmək, təsərrüfat-məişət əməyi üzrə) yerinə yetirir.

**İş forması:** Qruplarla, fərdi, cütlərlə.

**Üsullar:** Əqli hücum, sual-cavab, tap-tapmaca.

**Resurslar:** Şəkilli kartlar, ev quşları oyuncaqları, yumurta, toyuq tükü və s.



**Məşğələnin gedişi**

**Motivasiya:** Stolun üstünə toyuq tükü, yumurta, toyuq əti qoyulur. Uşaqlardan soruşur: Bunların adı nədir? Sizcə, bunlar nəyə aid məhsullardır?

**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim: Yumurtanı biz necə istifadə edirik, bəs lələkləri? Əti nə edirik? Bunlar hansı quşların məhsullarıdır? Uşaqların cavablarından sonra tərbiyəçi-müəllim örtüyü qaldırır və onun altındakı ev quşları şəkillərini göstərir. Adlarını, necə səs çıxardıqlarını soruşur.

**İdman dəqiqəsi:**

**Tətbiqetmə mərhələsi:** Qruplarla iş.

*I qrup:* Şəkilli kartların içindən toyuq və cücəni seçin.

*II qrup:* Toyuq və cücənin şəkillərini rəngləyin.

*III qrup:* Cücə və toyuq şəklini yapışdır.

*IV qrup:* Şəkillərin içindən toyuğa aid məhsulları göstər.

## MƏŞĞƏLƏ 16

### *(XVI həftə)*

**1.2.2.** Masa arxasında ümumi qaydalara (yemək dəstlərindən - qaşıqdan istifadə etmək, ağzını və əllərini salfetlə silmək) əsasən davranır.

**Mövzu:** Masa arxasında davranış qaydaları.

**Məqsəd:** Masa arxasında qaydalara əsasən davranır. Yemək dəstlərindən istifadə edir.

**İnteqrasiya: 1.1.4.** Kiçik motor hərəkətlərini (əşyaları və oyuncaqları barmaqları arasında saxlayır, atıb-tutub, şəkil yapışdırır, quraşdırır və s.) koordinasiya edir.

**2.1.3.** Müşahidə etdiyi əşyaları fərqləndirir.

**2.2.3.** Nitq etiketlərindən ("bəli", "xeyr", "çox sağ ol") istifadə edir.

**İş forması:** Cütlərlə iş, fərdi iş, kollektiv iş.

**Üsullar:** Əqli hücum, sual-cavab, tap-tapmaca və s.

**Resurslar:** Yemək dəsti, masa arxasında davranış qaydaları plakatı və s.

### Məşğələnin gedişi

**Aktuallaşma:** Tərbiyəçi-müəllim stolun üstünə oyuncaq masa dəstini düzür. Uşaqlardan soruşur: Sizcə, biz bunlardan nə zaman istifadə edirik?

**Dərketmə mərhələsi:** Uşaqlar, biz yemək yeyərkən nələrdən istifadə edirik? Masa ətrafında kimlər əyləşir? Yemək yeməzdən əvvəl və sonra nə edirik? Necə təşəkkür edirik?

**İdman dəqiqəsi:**

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqları bir masa ətrafına dəvət edir və deyir: Uşaqlar, biz bu gün qonaq gedirik və masa arxasında davranış qaydalarımıza riayət edəcəyik. Uşaqlar yemək yeməzdən əvvəl əllərini yuyub, masaya oturur, qaşıq, çəngəl və salfetdən necə istifadə etdiklərini orada göstərir, sonra masanı hazırlayana təşəkkür edirlər.

## MƏŞĞƏLƏ 17
### *(XVII həftə)*

**2.1.5.** Ətraf aləmdə baş verən proseslərə dair suallar verir və sadə ifadələrlə (böyüyür, uzanır, açılır, tökülür, saralır, dəyişir və s.) təsvir edir.

**Mövzu:** Qardan adam.

**Məqsəd:** Qış haqqında suallar verir. Qardan adamı təsvir edir.

**İnteqrasiya: 2.2.2.** Şəkillərin məzmununa əsasən hekayə və nağılları danışır.

**2.3.2.** Əşyaları forma və ölçüsünə (uzununa, eninə, hündürlüyünə, qalınlığa) görə fərqləndirir.

**3.1.1.** Sadə təsvirlər çəkir.

**3.2.2.** Kollektiv əməkdə (qrup otağının səliqəyə salınması, həyətyanı sahədə işləmək və s.) iştirak edir və tapşırıqları yerinə yetirir.

**İş forması:** Qruplarla, cütlərlə.

**Üsullar:** Əqli hücum, tap-tapmaca.

**Resurslar:** Qış fəsli şəkilləri, kartlar, karandaşlar və s.

### Məşğələnin gedişi

**Motivasiya:** Tərbiyəçi-müəllim videorolikdə qış fəsli videosunu uşaqlara izlədir.



**Dərketmə mərhələsi:** Uşaqlardan hansı fəsli izlədiklərini soruşur. Qış fəslində hansı təbii hadisələr baş verdiyini soruşur. Qardan nə düzəltdiklərini soruşur. Qar yağarkən necə əyləndikləri haqqında danışırlar. Qardan adamın hansı fiqurlara bənzədiyini onlardan soruşur.

**İdman dəqiqəsi:**

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqların qarşısına lövhə qoyur, onlara plastilinlər paylayır. Plastilini ovuclarının içində yuvarlaqlaşdırıb qardan adam düzəltməklərini istəyir.

Məşğələ yekunlaşır. Uşaqlar rəğbətləndirilir.

## MƏŞĞƏLƏ 18
***(XVIII həftə)***

**2.1.4.** Canlı və cansız aləmin obyektlərini (insan, heyvan, quş, bitki, qum, daş, torpaq, işıq) əlamatinə görə fərqləndirir.

**Mövzu:** Meyvələr.

**Məqsəd:** 1). Meyvələri əlamətinə görə təsvir edir.

2). Meyvələri əlamətinə görə fəqləndirir.

**İnteqrasiya: 2.1.1.** Dinləyib-anladığını verdiyi sual və cavablarla nümayiş etdirir.

**2.3.2.** Əşyaları forma və ölçüsünə (uzununa, eninə, hündürlüyünə, qalınlığına) görə fərqləndirir.

**3.2.1.** Sadə təsvirlər çəkir.

**İş forması:** Qruplarla, cütlərlə.

**Üsullar:** Əqli hücum, tap-tapmaca, müzakirə.

**Resurslar:** Meyvələr, şəkillər, karandaşlar və s.

### Məşğələnin gedişi

**Motivasiya:** Tərbiyəçi-müəllim lövhəyə müxtəlif meyvə ağaclarının şəklini asır. Uşaqlara meyvələrin ağacda yetişdiyini söyləyir, onlar haqqında məlumat verir.

**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqlara meyvələrlə dolu olan qabı göstərir və soruşur: Uşaqlar, bunlar birlikdə necə adlanır? Hansı meyvəni daha çox sevirsiniz? Hansı meyvələrin rəngini tanıyırsınız?



**İdman dəqiqəsi:**

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqlara qruplarla iş verir:

*I qrup:* Qırmızı meyvələri tapın.

*II qrup:* Meyvələrin adlarını deyin.

*III qrup:* Alma rəsmini rəngləyin.

*IV qrup:* Meyvələri tərəvəzlərdən ayır.

## MƏŞĞƏLƏ 19
### *(XIX həftə)*

**1.3.1.** Həyatına və sağlamlığına təhlükə yarada biləcək əşyaları əlamətinə (yandırıcı, kəsici, deşici) görə fərqləndirir.

**1.3.2.** Kəsici, deşici, yandırıcı əşyalar, elektrik cihazları və heyvanlarla, tanış olmayan adamlarla ehtiyatla davranmağı, yol hərəkəti qaydalarını bildiyini nümayiş etdirir.

**Mövzu:** Təhlükəsizliyimizi qoruyaq.

**Məqsəd:** Təhlükəli əşyalar haqqında suallar verir. Təhlükəli əşyalar haqqında məlumat toplayır.

**İnteqrasiya: 2.1.6.** Gündəlik rast gəldiyi, ona tanış olmayan obyekt və hadisələr haqqında məlumat almaq üçün suallar verir.

**İş forması:** Fərdi, kollektiv, cütlərlə.

**Üsullar:** Əqli hücum, müzakirə, sual-cavab.

**Resurslar:** Şəkilli plakatlar, təhlükəsizliyimizi qoruyaq plakatı və s.

### Məşğələnin gedişi

**Motivasiya:** Tərbiyəçi-müəllim təhlükə yarada biləcək (bıçaq, qayçı, iynə, elektrik cihazları, alışqan, kibrit) əşyalar təsvir olunmuş plakatı uşaqlara göstərir.

**Dərketmə mərhələsi:** Uşaqlar, burada hansı əşyaları tanıyırsınız? Sizcə, bunlarla oynamaq olar? Əgər bu alətlərlə və əşyalarla oynasanız, nə baş verə bilər?

Tərbiyəçi-müəllim bu suallar ətrafında danışır, məlumat verir. Özlərini necə qorumalarını, öz təhlükəsizliklərini təmin etməyi uşaqlara öyrədir.

**İdman dəqiqəsi:**

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqları iki hissəyə bölür. Stolun üstünə çoxlu şəkilli kartlar qoyur.

**I qrup:** Uşaqlar təhlükəli əşyaları bir tərəfə yığır.

**II qrup:** Təhlükə yaratmayacaq əşyaların kartlarını başqa tərəfə yığır.

Sonra həmin əşyaların adlarını adlandırmağa çalışırlar.

Uşaqlar rəğbətləndirilir. Məşğələ yekunlaşır.

## MƏŞĞƏLƏ 20
*(XX həftə)*

**2.1.4.** Canlı və cansız aləmin obyektlərini (insan, heyvan, quş, bitki, qum, daş, torpaq, işıq) əlamətinə görə fərqləndirir.

**Mövzu:** Tərəvəzlər.

**Məqsəd:** 1). Sevdiyi tərəvəzlər haqqında danışır.

2). Tərəvəzləri əlamətinə görə fərqləndirir.

**İnteqrasiya: 2.1.1.** Dinləyib-anladığını verdiyi sual və cavablarla nümayiş etdirir.

**2.3.2.** Əşyaları forma və ölçüsünə (uzununa, eninə, hündürlüyünə, qalınlığına) görə fərqləndirir.

**3.1.1.** Sadə təsvirlər çəkir.

**İş forması:** Qruplarla, fərdi.

**Üsullar:** Əqli hücum, tap-tapmaca.

**Resurslar:** Tərəvəzlər, şəkillər, karandaşlar, plastilin və s.

## Məşğələnin gedişi

**Motivasiya:** Tərbiyəçi-müəllim səbətdə meyvə və tərəvəzlər gətirir. Uşaqlara meyvə və tərəvəzlərə baxmalarını söyləyir.



**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqlardan soruşur: Hansı tərəvəzləri tanıyırsınız? Tərəvəzlər, sizcə, harada yetişir. Tərbiyəçi-müəllim uşaqlara köməklik göstərir, onlar sualları cavablandırmağa çalışırlar.

**İdman dəqiqəsi:** Musiqi sədaları altında ritmik hərəkətlər.

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqlara səbətdəki meyvə və tərəvəzləri ayırmağı təklif edir. Uşaqlar səbətdən tərəvəzləri seçir və onun adını söyləyir.

## MƏŞĞƏLƏ 21
### *(XXI həftə)*

**4.3.2.** Böyüklərə və həmyaşıdlarına qarşı xeyirxahlıq, qarşılıqlı kömək, dostluq, diqqət nümayiş etdirir.

**Mövzu:** Bir-birimizə hörmət edək.

**Məqsəd:** Böyüklərə və həmyaşıdlarına diqqət nümayiş etdirir.

**İnteqrasiya: 2.2.3.** Nitq etiketlərindən ("bəli", "xeyr", "çox sağ ol") istifadə edir.

**2.2.6.** Nitqində əlamət, hiss bildirən sözlərdən istifadə edir..

**4.1.1.** Sadə ünsiyyət qaydalarına əməl edir.

**İş forması:** Kollektiv iş, qruplarla iş, fərdi iş.

**Üsullar:** Əqli hücum, müzakirə, sorğu-sual və s.

**Resurslar:** Şəkilli kartlar və s.

### Məşğələnin gedişi

**Aktuallaşma:** Tərbiyəçi-müəllim lövhəyə bir şəkil asır, orada bir-biri ilə mehriban davranan şən uşaqlar təsvir olunur.

Tərbiyəçi-müəllim uşaqlardan dostları ilə necə davrandığını, ailəsi ilə necə davrandığı haqqında soruşur. Hansı sözlərdən istifadə etmək lazım olduğunu uşaqlara öyrədir.

**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqlarla "Təriflə" oyununu oynamaq istəyir. Uşaqlara bir-birilə necə ünsiyyət qurmağı öyrədəcək ifadələri öyrədir. Uşaqlar bir dairədə durub əl-ələ verirlər. Tərbiyəçi-müəllim sağında duran uşağa dönür: "Musa, sən çox yaxşı oğlansan!" Sonra Musa öz sağında duran uşağa dönür və deyir, sən bu gün çox gözəlsən! Əgər uşaqlar söz tapmazsa, tərbiyəçi-müəllim köməklik göstərir.

**İdman dəqiqəsi:**

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllim yenidən suallar verir, uşaqlar yaxşı ünsiyyət qurmaq üçün necə sözlərdən istifadə edəcəklərini təkrar edirlər.

# MƏŞĞƏLƏ 22
## *(XXII həftə)*

**4.2.1.** Arzu, hiss və istəklərini ifadə edir.

**Mövzu:** Anamı çox sevirəm.

**Məqsəd:** Anasına olan hiss və istəklərini ifadə edir. Arzularını söyləyir.

**İnteqrasiya: 2.2.3.** Nitq etiketlərindən ("bəli", "xeyr", "çox sağ ol") istifadə edir.

**2.2.6.** Nitqində əlamət, hiss bildirən sözlərdən istifadə edir.

**3.1.1.** Sadə təsvirlər çəkir.

**3.1.7.** Musiqini anladığını ifa bacarığı (sadə mahnılar oxumaq, musiqili-ritmik hərəkətlər etmək) ilə nümayiş etdirir.

**İş forması:** Fərdi, kollektiv.

**Üsullar:** Əqli hücum, müzakirə, tap-tapmaca.

**Resurslar:** Səs gücləndiricilər, rəngli kağızlar, rəngli karandaşlar s.

### Məşğələnin gedişi

**Motivasiya:** "Anamı incitmirəm" mahnısının sədaları altında tərbiyəçi-müəllim məşğələyə başlayır.

**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqlara musiqinin sözlərini öyrədir və anaları sevməyi, onların bizim üçün müqəddəs olmalarını deyir.



**İdman dəqiqəsi:**

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqlara rəngli karandaşlar və A-4 kağızları paylayır və hər kəsin öz anası üçün bir şəkil çəkib hədiyyə verməsini istəyir.

## MƏŞĞƏLƏ 23
*(XXIII həftə)*

**2.1.6.** Gündəlik rast gəldiyi ona tanış olmayan obyekt və hadisələr haqqında məlumat almaq üçün suallar verir.

**Mövzu:** Peşələr. Bənna, dərzi (şəkil üzrə).

**Məqsəd:** Peşəyə aid alətlər haqqında məlumat verir. Peşələr haqqında suallar verir.

**İnteqrasiya: 2.2.1.** Dinləyib-anladığını verdiyi sual və cavablarla nümayiş etdirir.

**3.2.1.** Sadə əmək tapşırıqlarını (özünəxidmət, təbiətdə əmək, təsərrüfat-məişət əməyi üzrə) yerinə yetirir.

**4.2.1.** Arzu, hiss və istəklərini ifadə edir.

**İş forması:** Fərdi, kollektiv, cütlərlə.

**Üsullar:** Əqli hücum, müzakirə, sual-cavab.

**Resurslar:** Şəkilli kartlar, peşələrə aid paltarlar və s.





### Məşğələnin gedişi

**Aktuallaşma:** Tərbiyəçi-müəllim polis, yanğınsöndürən, usta, həkim paltarlarını uşaqlara göstərir. Soruşur: Sizcə, bu kimin paltarlarıdır? Bunları kimlər nə zaman geyinirlər?

**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim müxtəlif peşələrə aid şəkillər göstərir və ətraflı məlumat verir. Müxtəlif suallarla uşaqlara peşələrin adlarını və xüsusiyyətlərini öyrədir. Böyüyəndə hansı peşə sahibi olmaq istədiklərini soruşur.

**İdman dəqiqəsi:**

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllim rollu oyun təşkil edir. Bəzi uşaqlara peşə paltarlarını geyindirib, həmin peşə roluna girmələrini istəyir.

## MƏŞĞƏLƏ 24

*(XIV həftə)*

**2.1.4.** Canlı və cansız aləmin obyektlərini (insan, heyvan, quş, bitki, qum, daş, torpaq, işıq) əlamətlərinə görə fərqləndirir.

**Mövzu:** Yaz fəsli.

**Məqsəd:** Yaz fəslini əlamətinə görə fərqləndirir. Yaz fəslinə aid suallar verir.

**İnteqrasiya: 2.1.1.** Dinləyib-anladığını verdiyi sual və cavablarla nümayiş etdirir.

**2.2.5.** Danışığında iki-dörd sözdən ibarət sadə cümlələrdən istifadə edir.

**3.1.1.** Sadə təsvirlər çəkir.

**3.1.3.** Kəsilmiş formalardan istifadə etməklə sadə kompozisiyalar qurur.

**İş forması:** Fərdi, kollektiv, cütlərlə.

**Üsullar:** Əqli hücum, tap-tapmaca.

**Resurslar:** Rəngli karandaşlar, şəkilli kartlar, rəngli kağızlar və s.

## Məşğələnin gedişi

**Aktuallaşma:** Tərbiyəçi-müəllim lövhəyə yaz fəslinə aid şəkil asır və soruşur: Uşaqlar, şəkildə nə təsvir olunub? Sizcə, təbiət hansı fəsildədir?

**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim yaz fəslinə aid çoxlu şəkillər göstərir. Yaşıl ağacın üstünə ağ çiçəklər yapışdırır. Ətrafına qaranquşlar yapışdırır. Şəkilləri yapışdırdıqca uşaqlara yaz fəsli haqqında məlumat verir.

**İdman dəqiqəsi:** *Boynumu əydim sola,*
*Sonra da əydim sağa.*
*Əvvəl gəldim qabağa,*
*Sonra qaçdım arxaya.*
*Əvvəl oldum balaca,*
*Sonra da oldum uca.*
*Əlimi belə qoydum,*
*Sonra da açdım yana.*

**Tətbiqetmə mərhələsi:** "Fəsillərə uyğun geyin" didaktik oyunu.

Uşaqlar fəsillər haqqında bilikləri mənimsədikdən sonra bu oyunu oynayırlar. Uşaqlar şəkilləri düzməli, onları adlandırmalı, sonra kartların içindən hər fəslə uyğun geyimləri tapıb birləşdirməlidirlər.

## MƏŞĞƏLƏ 25
***(XXV həftə)***

**2.1.4.** Canlı və cansız aləmin obyektlərini (insan, heyvan, quş, bitki, qum, daş, torpaq, işıq) əlamətlərinə görə fərqləndirir.

**Mövzu:** Çöl quşları (qaranquş, sərçə).

**Məqsəd:** Çöl quşlarını əlamətlərinə görə fərqləndirir. Qaranquş və sərçə haqqında suallar verir.

**İnteqrasiya: 2.2.1.** Dinləyib-anladığını verdiyi sual və cavablarla nümayiş etdirir.

**3.2.1.** Təsvirlərində uyğun rənglərdən istifadə edir.

**4.2.3.** Problemin həllində iştirak edir.
**İş forması:** Fərdi, kollektiv, cütlərlə.
**Üsullar:** Əqli hücum, müzakirə, tap-tapmaca.
**Resurslar:** Şəkilli kartlar, A-4 kağızı, rəngli karandaşlar və s.





## Məşğələnin gedişi

**Motivasiya:** Tərbiyəçi-müəllim səs gücləndiricilərlə quş səslərini uşaqlara dinlədir. Uşaqlardan nəyin səsini eşitdiklərini soruşur. Uşaqlar müxtəlif cavablar verir.

**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim quşların şəkillərini göstərir, onların adlarını deyir. Uşaqları məlumatlandırır. Quşların çöl quşları adlandırıldığını deyir və s.

**İdman dəqiqəsi:**

**Tətbiqetmə mərhələsi:** Uşaqlar qruplara bölünür.
*I qrup:* Çöl quşlarını dairəyə alın.
*II qrup:* Çöl quşu olan qaranquşu rəngləyin.
*III qrup:* İki quşun adını deyin.
*IV qrup:* Quşları öz quyruqları ilə birləşdir.

# MƏŞĞƏLƏ 26
*(XXVI həftə)*

**2.1.3.** Müşahidə etdiyi əşyaları fərqləndirir.
**Mövzu:** Mətbəx əşyaları.
**Məqsəd:** Mətbəx əşyalarını fərqləndirir.
**İnteqrasiya: 2.2.1.** Dinləyib-anladığını verdiyi sual və cavablarla nümayiş etdirir.
**2.3.2.** Əşyaları forma və ölçüsünə (uzununa, eninə, hündürlüyünə, qalınlığına) görə fərqləndirir.
**3.1.5.** Sadə quraşdırma (oyuncaq tikinti materiallarından sadə obyektlər, qatlama yolu ilə kağızdan müxtəlif oyuncaqlar, təbiət materiallarından sadə modellər düzəltmək) bacarıqlarını nümayiş etdirir.
**4.2.3.** Problemlərin həllində iştirak edir.
**İş forması:** Fərdi iş, cütlərlə iş, qruplarla iş.
**Üsullar:** Əqli hücum, sual-cavab, müzakirə və s.
**Resurslar:** Şəkilli kartlar, əşyaların maketi və s.



## Məşğələnin gedişi

**Motivasiya:** Tərbiyəçi-müəllim mətbəx əşyalarını stolun üstünə qoyur və deyir: Uşaqlar, nə görürsünüz? Bu əşyaları tanıyırsınızmı? Bunlar harada işlənir?

**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqlardan bu əşyaların adlarını soruşur, bilmədiklərinin adlarını deyir. Harada işləndiklərini, nə kimi istidafə olunduğu haqda məlumatlar verir.

**İdman dəqiqəsi:**

**Tətbiqetmə mərhələsi:** "Yeni bir mənzilə köçürük" didaktik oyunu.

Tərbiyəçi-müəllim müxtəlif əşyalar yığır stolun üstünə. Müxtəlif rəngli qutular, mahiyyəti eyni olan oxşar əşya şəkilləri (məsələn: fincan-stəkan, çaydan-çaynik, şarf-dəsmal, çəngəl-qaşıq, qazan-tava və s.).

6-9 uşaq oynayır. Tərbiyəçi-müəllim adını çəkdiyi uşaq şəkli göstərir. Tərbiyəçi-müəllim deyir: Uşaqlar, yeni bir mənzilə sahib olmuşuq. Hər şeyi toplayıb qutulara yığmağımız lazımdır. Əvvəl qabları qablaşdıracayıq. Mənə kömək edəcəksiniz. Mənə yalnız adını çəkdiyim əşyanı verəcəksiniz. Diqqətli olun, bir çox şey oxşar görünür. Məsələn, fincan-stəkan, çaynik-çaydanı qarışdırmayın. Göstərilən əşyaları (şəkilləri) mavi qutuya yığın. Birinci mətbəx əşyalarını yığırıq. Tərbiyəçi-müəllim uşağın birinə deyir: Fincan. Uşaq fincanı göstərib qutuya qoymalıdır. Əgər çaşıb stəkanı göstərsə, o uşaq uduzmuş sayılır. Oyunun sonunda bütün şəkillər cüt olmalıdır.

## MƏŞĞƏLƏ 27
### *(XXVII həftə)*

**2.1.4.** Canlı və cansız aləmin obyektlərini (insan, heyvan, quş, bitki, qum, daş, torpaq, işıq) əlamətlərinə görə fərqləndirir.

**Mövzu:** "Hansı heyvan nə yeyir?" - didaktik oyunu.

**Məqsəd:** Heyvanları əlamətinə görə fərqləndirir. Heyvanların nə ilə qidalandığını deyir.

**İnteqrasiya: 2.1.1.** Dinləyib-anladığını verdiyi sual və cavablarla nümayiş etdirir.

**2.3.2.** Əşyaları forma və ölçüsünə (uzununa, eninə, hündürlüyünə, qalınlığına) görə fərqləndirir.

**3.1.3.** Kəsilmiş formalardan istifadə etməklə sadə kompozisiyalar qurur.

**4.2.3.** Problemlərin həllində iştirak edir.

**İş forması:** Fərdi iş, cütlərlə iş, qruplarla iş.

**Üsullar:** Əqli hücum, müzakirə, sual-cavab və s.

**Resurslar:** Şəkilli kartlar, rəngli karandaşlar və s.

## Məşğələnin gedişi

**Aktuallaşma:** Tərbiyəçi-müəllim heyvanların rəsmini lövhəyə asır. Onların adlarını soruşur. Hansıların ev heyvanı, hansıların çöl heyvanı olduğunu soruşur.

**Dərketmə mərhələsi:** "Hansı heyvan nə yeyir?" - didaktik oyun (səh.18).

Oyunu tərbiyəçi-müəllim uşaqlara başa salır. Uşaqlar stolun üstündəki bitki və qidaların şəkli olan dairəvi formaya baxırlar və onları adlandırırlar. Sonra heyvan kartlarından birini götürüb adını çəkirlər, ona məxsus bir-iki əlamət sadalayırlar. Həmin heyvanın nə yediyini tapıb, kartı həmin şəklin üstünə qoyurlar.

**İdman dəqiqəsi:** *Dovşan dartındı,*
*1, 2, 3, 4, 5.*
*Bir əyildi, iki əyildi,*
*Pəncələri yan tərəfə yaydı,*
*Yerkökünü tapmadı.*
*Bir kök tapmaq üçün*
*Uzaqlara boylandı.*

**Tətbiqetmə mərhələsi:** Heyvanların adlarını və nə yediklərini təkrarlatmaq.

# MƏŞĞƏLƏ 28
## *(XXVIII həftə)*

**4.1.2.** Hərəkətli oyun, əyləncə zamanı emosiya əhval-ruhiyyə (sevinc, təəccüb və s.) nümayiş etdirir.

**Mövzu:** "Qoxusundan tanı" oyunu.

**Məqsəd:** Oyun zamanı hiss və emosiyalarını nümayiş etdirir.

**İnteqrasiya: 1.1.4.** Kiçik motor hərəkətlərini (əşyaları və oyuncaqları barmaqları arasında saxlayır, atıb-tutur, şəkil çəkir, yapışdırır, quraşdırır və s.) koordinasiya edir.

**2.2.6.** Nitqində əlamət, hiss bildirən sözlərdən istifadə edir.

**2.3.2.** Əşyaları forma və ölçüsünə (uzununa, eninə, hündürlüyünə, qalınlığına) görə fərqləndirir.

**İş forması:** Fərdi iş.

**Üsullar:** Əqli hücum, müzakirə, sual-cavab.

**Resurslar:** Müxtəlif meyvə və tərəvəzlər, şəkilli kartlar və s.

### Məşğələnin gedişi

**Aktuallaşma:** Tərbiyəçi-müəllim meyvə və tərəvəz şəkillərini lövhədə uşaqlara göstərir: Ümumi şəkildə onları necə adlandırmaq olar?

**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqlarla meyvə və tərəvəz haqqında sorğu-sual edir.

**İdman dəqiqəsi:**

**Tətbiqetmə mərhələsi:** "Qoxusundan tanı" oyunu.

Tərbiyəçi-müəllim uşaqlardan duyğu orqanları haqqında soruşur. Tərbiyəçi-müəllim uşaqlara oyun oynamağı təklif edir. -Bu gün mən sizin gözlərinizi bağlayıb qarşınıza bir cisim qoyacam, siz onu qoxusundan tanıyacaqsınız. Forması və rəngi haqqında gözünüzü açmadan fikir yürüdəcəksiniz. Gözünüzü açdıqda əgər sizin dedikləriniz doğru olsa, siz qalib sayılırsınız.

Tərbiyəçi-müəllim fərdi olaraq bütün uşaqlarla bu oyunu oynayır. Uşaqlar rəğbətləndirilir. Məşğələ yekunlaşır.

## MƏŞĞƏLƏ 29
### *(XXIX həftə)*

**2.1.4.** Canlı və cansız aləmin obyektlərini (insan, heyvan, quş, bitki, qum, daş, torpaq, işıq) əlamətlərinə görə fərqləndirir.

**Mövzu:** Balıqlar suda yaşayır.

**Məqsəd:** Balıqları fərqləndirir. Balıqlar haqqında suallara cavab verir.

**İnteqrasiya: 2.1.1.** Dinləyib-anladığını verdiyi sual və cavablarla nümayiş etdirir.

**3.1.3.** Kəsilmiş formalardan istifadə etməklə sadə kompozisiyalar qurur.

**4.2.3.** Problemlərin həllində iştirak edir.

**İş forması:** Fərdi iş, kollektiv iş.

**Üsullar:** Əqli hücum.

**Resurslar:** Rəngli kağızlar, akvarium və ya maketi, şəkilli kartlar və s.

### Məşğələnin gedişi

**Motivasiya:** Tərbiyəçi-müəllim bir akvarium içindəki balıqların (və ya maketin) üstünü bir dəsmalla örtür və soruşur: Uşaqlar, sizcə, hansı heyvanlar suda yaşayır? Bu dəsmalın altında bu sualın cavabı var. Uşaqlar müxtəlif cavablar verir.

**Dərketmə mərhələsi:** Uşaqların cavablarının doğru olub-olmadığını yoxlamaq üçün tərbiyəçi-müəllim dəsmalı qaldırır və akvariumdakı balıqları göstərir. Sonra suda yaşayan heyvanlar haqqında məlumat verir.

**İdman dəqiqəsi:**

**Tətbiqetmə mərhələsi:** Kollektiv iş.

Dəniz rəngində rənglənmiş böyük kağızın üstünə dəniz heyvanlarının kəsilmiş şəklini birlikdə yapışdırırlar.

Dəniz mənzərəsi hazırlamaq.

Uşaqlar hərəsi bir sualtı heyvanın şəklini kağızın müxtəlif hissəsinə yapışdırır. Sonra hərə öz yapışdırdığını adlandırır.

## MƏŞĞƏLƏ 30
*(XXX həftə)*

**2.1.4.** Canlı və cansız aləmin obyektlərini (insan, heyvan, quş, bitki, qum, daş, torpaq, işıq) əlamətinə görə fərqləndirir.

**Mövzu:** Yay fəsli.

**Məqsəd:** Yay fəslini əlamətinə görə fərqləndirir.

Yay fəslinə aid suallar verir.

**İnteqrasiya: 2.1.1.** Dinləyib-anladığını verdiyi sual və cavablarla nümayiş etdirir.

**3.1.1.** Sadə təsvirlər çəkir.

**3.1.3.** Kəsilmiş formalardan istifadə etməklə sadə kompozisiyalar qurur.

**İş forması:** Kollektiv iş, fərdi iş və s.

**Üsullar:** Əqli hücum, müzakirə, tap-tapmaca.

**Resurslar:** Rəngli karandaşlar, şəkilli kartlar, rəngli kağızlar və s.



## Məşğələnin gedişi

**Aktuallaşma:** Tərbiyəçi-müəllim yay fəslinə aid əşyaları uşaqlara göstərir və soruşur: Sizcə, biz bu paltarları nə vaxt geyinirik? Bu oyuncaqları nə zaman və harada işlədirik?

**Dərketmə mərhələsi:** Uşaqların müxtəlif cavablarından sonra tərbiyəçi-müəllim lövhəyə yay fəsli şəklini asır və onlara yay fəsli haqqında məlumat verir.

**İdman dəqiqəsi:** *Uçdu əlvan kəpənək,*
*Qondu bu ağ çiçəyə.*
*Tutacaqdım onu mən,*
*Birdən kəpənək uçdu.*
*Elə bil ki, əlimdən*
*Əlvan bir çiçək uçdu.*

Musiqi sədaları altında idman etmək.

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllim kollektiv iş verir uşaqlara. Stolun üstünə böyük bir lövhə qoyur. Sonra bütün fəsillərə aid şəkillər qoyur. Uşaqlar şəkillərin içindən yay fəslinə aid şəkilləri tapıb, yay fəsli mənzərəsi qurmalıdırlar.

# Nitq inkişafı

*(30 məşğələ)*



## MƏŞĞƏLƏ 1
### *(I həftə)*

**2.2.1.** Dinləyib-anladığını verdiyi sual və cavablarla nümayiş etdirir.

**Mövzu:** Təbiəti necə qoruyaq?

**Məqsəd:** Təbiət haqqında fikirlərini cavabları ilə nümayiş etdirir. Təbiət haqqında suallar verir.

**İnteqrasiya: 2.1.5.** Dinləyib-anladığını verdiyi sual və cavablarla nümayiş etdirir.

**2.2.5.** Ətraf aləmdə baş verən proseslərə dair suallar verir və sadə ifadələrlə (böyüyür, uzanır, açılır, tökülür, saralır, dəyişir və s.) təsvir edir.

**3.1.3.** Kəsilmiş formalardan istifadə etməklə sadə kompozisiyalar qurur.

**4.2.3.** Problemin həllində iştirak edir.

**İş forması:** Qruplarla iş, kollektiv iş.

**Üsullar:** Əqli hücum, sual-cavab, müzakirə.

**Resurslar:** Şəkilli kartlar, karandaşlar və s.

### Məşğələnin gedişi

**Motivasiya:** Tərbiyəçi-müəllim təbiət mövzusunda maket hazırlayır. Bir tərəfdə qurumuş və qırılmış ağaclar, yerdə plastik şüşələr, kirli hava; bir tərəfdə yaşıl ağaclar, tərtəmiz təbiət. -Uşaqlar burada nə görürsünüz? Niyə bir tərəf daha yaşıl, gözəl təbiətdir? Niyə o biri tərəfdə ağaclar qırılıb, yerdə plastik şüşələr var? Biz təbiəti necə qorumalıyıq?

**Dərketmə mərhələsi:** Uşaqlar, təbiəti qorumaq üçün nə edə bilərik? Ağac bizə necə fayda verir? Ağacları qırıb, təbiəti zibilləsək, havanı kirləndirsək, nə baş verir?

Lövhədə ortada təbiət şəkli asılır. Kənarlarına təbiətə xeyirli və zərərli olan kartlar qoyulur. Hər uşaq təbiətə xeyirli olan kartı qoyur və onun haqqında bir-iki cümlə danışır.

**İdman dəqiqəsi:** Ağacları qoruyaq bax belə, bax belə.
*(Bellə sanki ağac sulayırlar).*
Zibili yerə atmayaq bax belə, bax belə.
*(Sanki yerə zibil atırlar).*
Gülləri qırmayaq bax belə, bax belə.
*(Sanki gülü qırıb yerə atırlar).*
Təbiəti çox sevək bax belə, bax belə.
*(Sanki təbiəti qucaqlayırlar).*

**Tətbiqetmə mərhələsi:** "Xoşbəxt və kədərli dünya" oyunu.

Tərbiyəçi-müəllim bir-iki sual verir. Təbiətimizə xeyirli və ziyanlı işlərin nələr olduğunu deyir. Daha sonra gülən və ağlayan formada iki dünya şəkli yapışdırır.

Uşaqlar gülən dünya şəklinə təbiətə xeyirli olan kartı qoyur. Təbiətə ziyanlı olan kartı isə ağlayan dünya şəklinin üstünə qoyur.

Uşaqlar bir-iki cümlə ilə öyrəndiklərini deyirlər.

Məşğələ yekunlaşır.

## MƏŞĞƏLƏ 2
### *(II həftə)*

**2.2.5.** Danışığında iki-dörd sözdən ibarət sadə cümlələrdən istifadə edir.

**2.2.6.** Nitqində əlamət, hiss bildirən sözlərdən istifadə edir.

**Mövzu:** Duyğu orqanlarım.

**Məqsəd:** Duyğu orqanlarının adını deyir. Duyğu orqanları haqqında iki-dörd sözdən ibarət sadə cümlələr qurur.

**İnteqrasiya: 2.1.4.** Canlı və cansız aləmin obyektlərini (insan, heyvan, quş, bitki, qum, daş, torpaq, işıq) əlamətinə görə fərqləndirir.

**2.3.1.** Əşyalarla 3 dairəsində riyazi əməliyyatlar yerinə yetirir.

**3.1.3.** Kəsilmiş formalardan istifadə etməklə sadə kompozisiyalar qurur.

**İş forması:** Fərdi iş, kollektiv iş.

**Üsullar:** Əqli hücum, müzakirə, tap-tapmaca.

**Resurslar:** Duyğu orqanları təsvir olunmuş kartlar, şəkillər və s.

## Məşğələnin gedişi

**Motivasiya:** Uşaqlar, telefona zəng gəlir, gəlin ona cavab verək. Uşaqlardan biri cavab verir. Zəng vuran başqa qrupun tərbiyəçi-müəllimidir: Sizin qrupunuzda lövhənin qarşısında uşaq şəkli görürsənmi, onu əlinə götürə bilərsənmi?



Bir də qrupa zəng gəlir (başqa uşaq cavab verir): Qrupunuzda çiçək var? -Bəli var. -Nə rəngdədir? Qırmızı. -Qoxusu necədir? -Qəşəng. -Çox sağ ol!

Tərbiyəçi-müəllim uşaqlara alma dilimi paylayır. Uşaqlar yeyir. Tərbiyəçi-müəllim sual verir: Dadı necədir? -Dadlıdır, -deyə uşaqlar cavablandırır.

**Dərketmə mərhələsi:** Uşaqlar, zəng gələrkən nə baş verdi? Biz zəngin səsini eşitdik qulağımızla, lövhənin qarşısındakı şəkli gördük gözlərimizlə, şəkilə, gülə toxunduq əlimizlə, gülü qoxladıq burnumuzla, almanı yedik ağzımızla.

Bizim 5 duyğu orqanımız var. Sizcə hansılardır?

**İdman dəqiqəsi:** Gözlərimiz 2 – əlimizlə gözlərimizi tuturuq.

Qulaqlarımız 2 – əlimizi qulağımıza tutaraq qulaq asırıq. Burnumuz 1 – nəyisə qoxlayırıq. Ağzımız 1 – sanki nəsə yeyirik. Əllərimiz 2 – göyə qaldırırıq.

**Tətbiqetmə mərhələsi:** Qruplarla iş.

*I qrup:* Göz şəkli ətrafında müxtəlif şəkillər. Gözə aid şəkilləri birləşdir.

*II qrup:* Burun şəkli ətrafında müxtəlif şəkillər. Qoxuya aid şəkilləri birləşdir.

*III qrup:* Bütün duyğu orqanları ətrafında müxtəlif şəkillər. Hər orqana aid şəkli birləşdir.

## MƏŞĞƏLƏ 3

***(III həftə)***

**2.2.5.** Danışığında iki-dörd sözdən ibarət sadə cümlələrdən istifadə edir.

**2.2.1.** Dinləyib-anladığını verdiyi sual və cavablarla nümayiş etdirir.

**Mövzu:** Mənim sağlamlığım.

**Məqsəd:** Sağlamlığı haqqında sadə cümlələr qurur və danışır. Sağlamlığını necə qorumaq lazım olduğunu dinləyib-anlayaraq öyrənir.

**İnteqrasiya: 1.2.1.** Sadə gigiyena qaydalarını (sabundan düzgün istifadə etmək: əlini, üzünü, qulağını yumaq və qurulamaq, daraq, burun dəsmalı və ya salfetdən istifadə etmək) bildiyini nümayiş etdirir.

**2.1.4.** Canlı və cansız aləmin obyektlərini (insan, heyvan, quş, bitki, qum, daş, torpaq, işıq) əlamətinə görə fərqləndirir.

**4.2.3.** Problemin həllində iştirak edir.

**İş forması:** Kollektiv, cütlərlə, fərdi iş.

**Üsullar:** Əqli hücum, müzakirə, tap-tapmaca.

**Resurslar:** Şəkilli kartlar, rollu oyunlar üçün paltarlar və s.

## Məşğələnin gedişi

**Motivasiya:** Tərbiyəçi-müəllim oxuyur: Biri var idi, biri yox idi. Bir sağlamlıqla xəstəlik var idi. İki nəfər. Biri gözəl paltarda, biri kirli paltarda gəlir. Sağlamlıq mehriban, xəstəlik isə əsəbi idi. Sağlamlıq təmiz və işıqlı evdə, xəstəlik isə qaranlıq və kirli evdə yaşayırdı. Onlar qərarlaşırlar ki, bağçaya getsinlər. Uşağın biri ilə evə getsinlər, görək uşaq evə gedərkən əllərini yuyurmu? Paltarını səliqəli yerinə yığıb, yeməyini yeyirsə, onu sağlamlıq seçir. Yox, əgər bunların əksini edirsə, onu xəstəlik seçir.

Bunu tərbiyəçi-müəllim rollu oyun kimi oynadır.

**Dərketmə mərhələsi:** Uşaqlar, sağlam olmaq üçün nə etməliyik? Nə zaman xəstələnə bilərik? Xəstəliyimiz ətrafa necə yayıla bilər? Xəstə olarkən necə sağala bilərik? və s.

Uşaqlar suallara cavab verirlər.

**İdman dəqiqəsi:** Musiqi sədaları altında ritmik hərəkətlər.

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqlara çoxlu şəkilli kartlar paylayır. Uşaqlardan soruşur: Sağlam olmaq üçün necə qidalanmalıyıq? Uşaqlardan kimdə xeyirli qida şəkli varsa, onu göstərir, adını deyir və bir-iki cümlə ilə məlumat verir. Sağlam olmaq üçün qışda necə geyinməliyik? və s. Sağlam olmaq üçün gigiyena qaydalarına necə əməl etməliyik? Hər dəfə uşaq kartı göstərir və bir-iki cümlə deyir.

Məşğələ yekunlaşır.

## MƏŞĞƏLƏ 4
***(IV həftə)***

**2.2.1.** Dinləyib-anladığını verdiyi sual və cavablarla nümayiş etdirir.

**2.2.6.** Nitqində əlamət, hiss bildirən sözlərdən istifadə edir.

**Mövzu:** Günəş bizi isidir.

**Məqsəd:** Günəş haqqında bildiklərini nümayiş etdirir.

**İnteqrasiya: 2.1.41.** Canlı və cansız aləmin obyektlərini (insan, heyvan, quş, bitki, qum, daş, torpaq, işıq) əlamətinə görə fərqləndirir.

**2.3.2.** Əşyaları forma və ölçüsünə (uzunluğuna, eninə, hündürlüyünə, qalınlığına) görə fərqləndirir.

**3.1.1.** Sadə təsvirlər çəkir.

**İş forması:** Qruplarla iş, cütlərlə iş, fərdi iş.

**Üsullar:** Əqli hücum, sual-cavab və s.

**Resurslar:** Günəş maketi, şəkilli kartlar və s.

**Məşğələnin gedişi**

**Motivasiya:** Tərbiyəçi-müəllim tapmaca deyir: Uşaqlar, mən sizə bir tapmaca deyəcəm. Tapmacanın cavabı pərdənin arxasında gizlənib. Düz tapsanız, o, sizə görünəcək.



*Aləmə işıq salır,*
*Axşam gül kimi solur.*

**(Günəş)**

*Səhər tezdən bizdən tez durur,*
*Bizi işıqlandırır və isidir.*

**(Günəş)**

-Uşaqlar, baxaq görək, siz düz tapdınız tapmacanın cavabını? Tərbiyəçi-müəllim pərdəni çəkir. Günəş pəncərədən görünür (və ya qapının arxasından günəş maketini tərbiyəçi-müəllim gətirir).

**Dərketmə mərhələsi:** Uşaqlar, günəş nə rəngdədir? -Sarı. O, bizi neyniyir? -İsidir və işıqlandırır. -Əgər o, yaşıl rəngdə olarsa, bizi isidər? Bəs günəş hansı fiqura bənzəyir? Günəş nə zaman çıxır? Nə zaman gizlənir?

**İdman dəqiqəsi:** Baxın, belə günəş səhərlər doğur. Uşaqlar qollarını geniş açırlar. -Baxın, belə günəş axşamlar batır. Uşaqlar yığılıb yerə otururlar. -Baxın, belə günəş uşaqlara gülür. Uşaqlar gülürlər, oxuyurlar. -Baxın, belə günəş yumru çıxır, işıq saçır.

Uşaqlar əl-ələ tutub dairə formasında dururlar.

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqlarla oyun oynayır. -Uşaqlar, mən sizə bir şəkil göstərəcəyəm. Şəkildə nə görsəniz, onun haqqında bir-iki söz deyəcəksiniz. Məsələn, günəş şəkli göstərir. Günəş bizi isidir. Yağış – yağış yağarkən biz çətir tuturuq. Külək – külək əsərkən ağacların yarpağı tökülür.

-Uşaqlar, gəlin hamımız günəş rəsmi çəkək.

## MƏŞĞƏLƏ 5

*(V həftə)*

**2.2.5.** Danışığında iki-dörd sözdən ibarət sadə cümlələrdən istifadə edir.

**2.2.6.** Nitqində əlamət, hiss bildirən sözlərdən istifadə edir.

**Mövzu:** Fəsillər.

**Məqsəd:** Fəsilləri tanıyır və onlar haqqında danışır. Hansı fəsli sevdiyini deyir.

**İnteqrasiya: 2.1.6.** Gündəlik rast gəldiyi ona tanış olmayan obyekt və hadisələr haqqında məlumat almaq üçün suallar verir.

**2.3.1.** Əşyalarla 3 dairəsində riyazi əməliyyatlar yerinə yetirir.

**3.1.2.** Təsvirlərində uyğun rənglərdən istifadə edir.

**İş forması:** Qruplarla iş, fərdi iş, cütlərlə iş, kollektivlə iş.

**Üsullar:** Əqli hücum, sual-cavab, müzakirə.

**Resurslar:** Şəkilli kartlar, karandaşlar, müxtəlif əşyalar və s.

**Məşğələnin gedişi**

**Motivasiya:** Uşaqlar, ildə neçə ay var? – 12 ay.

-Bu 12 ayda bizə 4 qonaq gəlir. Birinci qonaq - tərbiyəçi-müəllim çiçək açmış ağacı uşaqlara göstərir. -Uşaqlar, sizcə, bu hansı qonaqdır? – Yaz. -Uşaqlar, daha sonra meyvəli ağac gəlir? – Yay. Bu hansı qonaqdır? Daha sonra narıncı, sarı ağacı göstərir – Payız. Payızdan sonra ağarmış ağacı göstərir – Qış.

**Dərketmə mərhələsi:** Uşaqlar, gəlin bir ildə gələn qonaqlarımızın adlarını deyək. Yaz, yay, payız, qış. Bir ildə neçə fəsil var? Hər fəslə aid tapmaca və ya şeir deyilir.

Tərbiyəçi-müəllim lövhəyə 4 fəsil şəkli yapışdırır. Hər fəslə uyğun bir-iki cümlə deyir.



**İdman dəqiqəsi:** Uşaqlar təbiət hadisələrinə uyğun hərəkətlər edirlər.

**Tətbiqetmə mərhələsi:** Oyun təqdim olunur.

Mərkəzdə masanın üstündə bir kub var. Kubun kənarlarında fərqli duyğu tiplərini göstərən ifadələr var. Kubun ətrafında fəsilləri əks etdirən şəkillər var. Uşaq əvvəlcə araşdırır, sonra şəkillərdə göstərilənləri danışır və hər biri üçün uyğun bir sxem olan bir kart seçir. Uşaq kubu atır, bu və ya digər duyğuları olan bir gülüş düşür.

Tərbiyəçi-müəllim uşağa bir fəsli göstərir və soruşur: Sən yaz fəslində niyə sevinirsən? (Məsələn, günəş çıxdığı üçün, kədər düşərsə, sən qış fəslində niyə kədərlənirsən, qar yağmadığı üçün).

Məşğələ yekunlaşır.

## MƏŞĞƏLƏ 6

*(VI həftə)*

**2.2.5.** Danışığında iki-dörd sözdən ibarət sadə cümlələrdən istifadə edir.

**2.2.6.** Nitqində əlamət, hiss bildirən sözlərdən istifadə edir.

**Mövzu:** Ev heyvanları.

**Məqsəd:** Ev heyvanlarının adlarını deyir. Ev heyvanlarının səslərini çıxardır.



**İnteqrasiya: 2.1.4.** Canlı və cansız aləmin obyektlərini (insan, heyvan, quş, bitki, qum, daş, torpaq, işıq) əlamətinə görə fərqləndirir.

**3.1.2.** Təsvirlərində uyğun rənglərdən istifadə edir.

**4.2.3.** Problemin həllində iştirak edir.

**İş forması:** Qruplarla iş, fərdi iş, cütlərlə iş.

**Üsullar:** Əqli hücum, müzakirə, tap-tapmaca və s.

**Resurslar:** Ev heyvanları oyuncaqları, şəkilli kartlar və s.

## Məşğələnin gedişi

**Motivasiya:** Uşaqlar, gəlin bir-birinizin əlindən tutun və mehribanlıqla yan-yana əyləşin. Birdən qapı döyülür. Tərbiyəçi-müəllim deyir: Uşaqlar, görək bizə kim qonaq gəlib? Uşağın biri əlində kub içəri girir (məyus halda). Uşaqlar, dostunuz mənə sakitcə dedi ki, nənəsigilə getmişdi. Orada çoxlu ev heyvanları var idi. Dostunuz onların adını unudub. Gəlin onun yadına salaq. Kubun hər tərəfində bir ev heyvanı təsvir olunub. İndi növbə ilə o kubu atırıq və hansı heyvanın şəkli düşsə, onun adını deyirik. Bir-iki cümlə ilə heyvan haqqında məlumat veririk.

**Dərketmə mərhələsi:** Uşaqlar sıra ilə kubu atır, heyvanın adını deyir və onun haqqında danışır. Heyvanlar kimi səs çıxarır.

-Uşaqlar, gəlin yoldaşınızdan soruşaq. Heyvanların adı yadına düşdü? Bəs bunlardan hansılar sənin nənənin həyatində var idi, hansı yox idi? Ev heyvanlarının faydaları nələrdir?

**İdman dəqiqəsi:** Musiqi sədaları haqqında ritmik hərəkətlər.

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqların yarısına ev heyvanlarına aid şəkillər paylayır (süd, sümük, ət, yun və s.). Uşaqların yarısı isə onların qarşısında dayanır. Uşaq qarşısındakı uşağa əlindəki şəkli göstərir və deyir "süd", qarşısındakı uşaq deyir: İnək süd verir, süd faydalıdır və s. Beləliklə, bütün uşaqlar davam edir.

Məşğələ yekunlaşır.

## MƏŞĞƏLƏ 7
### *(VII həftə)*

**2.2.1.** Dinləyib-anladığını verdiyi sual və cavablarla nümayiş etdirir.

**2.2.6.** Nitqində əlamət, hiss bildirən sözlərdən istifadə edir.

**Mövzu:** Vitaminli qidalar.

**Məqsəd:** Qidalar haqqında fikirlərini nümayiş etdirir. Vitaminli qidalar haqqında danışır.

**İnteqrasiya: 2.1.4.** Canlı və cansız aləmin obyektlərini (insan, heyvan, quş, bitki, qum, daş, torpaq, işıq) əlamətinə görə fərqləndirir.

**3.1.1.** Sadə təsvirlər çəkir.

**4.2.2.** Qrupun üzvü kimi fəaliyyət göstərir.

**İş forması:** Qruplarla iş, fərdi iş.

**Üsullar:** Əqli hücum, müzakirə.

**Resurslar:** Şəkilli kartlar, bitkilər, tərəvəzlər, süd məhsulları şəkilləri, oyuncaqlar və s.



## Məşğələnin gedişi

**Motivasiya:** Tərbiyəçi-müəllim uşaqlara deyir ki, gəlin meyvə-tərəvəz almağa gedək. Tərbiyəçi-müəllim meyvə və tərəvəzlərdən xüsusi guşə hazırlayır. Maqazin arabası və ya kağız torba ilə alış-veriş etməyi təklif edir. Uşaqlardan bir-ikisi satıcı, yarısı ilə alıcı olur. Əllərində kağız pullarla meyvə tərəvəz alırlar.

**Dərketmə mərhələsi:** Uşaqlar aldıqlarının adlarını deyir.

-Uşaqlar, sizcə meyvə və tərəvəzlərdən nə edirik? Onların bizim üçün nə kimi faydası var? Vitaminli qidalar qəbul etməsək, nə baş verər?

**İdman dəqiqəsi:** Musiqi sədaları altında ritmik hərəkətlər.

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqlara oyun təqdim edir: Uşaqlar, meyvələrlə nə bişiririk? -Mürəbbə, meyvə şirəsi. -Bəs tərəvəzlərlə? -Yemək, salat.

Tərbiyəçi-müəllim bir tərəfə qazan, bir tərəfə isə banka qoyur. -Uşaqlar, gəlin anamıza yardım edək. Meyvələri bankaya, tərəvəzləri isə qazana qoyaq (meyvə və tərəvəzlər şəkilli kartlar və ya oyuncaqlar ola bilər). Uşaqlar hər hansı bir kartı və ya oyuncağı götürür. Onun adını söyləyir. Meyvə və ya tərəvəz olduğunu deyir və qazana (bankaya) qoyur. Beləliklə, davam edir.

Məşğələ yekunlaşır.

## MƏŞĞƏLƏ 8
### *(VIII həftə)*

**2.2.5.** Danışığında iki-dörd sözdən ibarət sadə cümlələrdən istifadə edir.

**2.2.6.** Nitqində əlamət, hiss bildirən sözlərdən istifadə edir.

**Mövzu:** Payız fəsli.

**Məqsəd:** Payız fəsli haqqında cümlə qurur. Payız fəslinin əlamətlərini söyləyir. Payız fəsli haqqında bildiklərini danışır.

**İnteqrasiya: 2.1.6.** Gündəlik rast gəldiyi, ona tanış olmayan obyekt və hadisələr haqqında məlumat almaq üçün suallar verir.

**3.1.2.** Təsvirlərində uyğun rənglərdən istifadə edir.

**4.2.2.** Qrupun üzvü kimi fəaliyyət göstərir.

**İş forması:** Qruplarla iş, cütlərlə iş, fərdi iş.

**Üsullar:** Əqli hücum, tap-tapmaca, sual-cavab.

**Resurslar:** Fəsillər, şəkilli kartlar, müxtəlif əşyalar.

### Məşğələnin gedişi

**Motivasiya:** *Deyin, nə vaxt*
*Bağlar solur,*
*Yarpaqları*
*Yellər yolur?*

**(Payızda)**

-Uşaqlar, sizə tapmaca dedim. Bu torbanın içində o tapmacanın cavabına aid əşyalar var. Siz cavabı dedikdən sonra həmin əşyalardan sizə göstərəcəm. Onda görək kim düz deyib? Cavablardan sonra tərbiyəçi-müəllim torbanın ağzını açır. Uşaqlar əllərini torbaya atır. Saralmış yarpaqlar, alma, papaq və s. çıxır.

**Dərketmə mərhələsi:** Uşaqlar, söhbət hansı fəsildən gedir? – Payız. Payız fəsli hansı rəngdədir? Payızın aylarını deyə bilərsiniz? Gəlin meyvələrin içindən payız meyvələrini tapaq və adlarını sadalayaq. Payızın əlamətlərini şəkillər içindən tapaq və bir-iki cümlə ilə danışaq.

**İdman dəqiqəsi:**

**Tətbiqetmə mərhələsi:** Uşaqlar, qutuda payız fəslinə aid şəkillər var. Kim hansı kartı çəksə, onun haqqında bir cümlə deyəcək. Sarı yarpaqlı ağac (payız fəslində ağacların yarpaqları saralıb yerə tökülür) və s.

Uşaqlar məşğələdə rəğbətləndirilir. Məşğələ yekunlaşır.

## MƏŞĞƏLƏ 9

***(IX həftə)***

**2.2.5.** Danışığında iki-dörd sözdən ibarət sadə cümlələrdən istifadə edir.

**2.2.6.** Nitqində əlamət, hiss bildirən sözlərdən istifadə edir.

**Mövzu:** Nəqliyyat vasitəsi. Avtobus.

**Məqsəd:** Avtobus haqqında danışır. Avtobusun xüsusiyyətlərini sadalayır.

**İnteqrasiya: 2.1.2.** Əşyalar və sadə süjetli şəkillər üzrə danışır.

**2.3.2.** Əşyaları forma və ölçüsünə (uzununa, eninə, hündürlüyünə, qalınlığına) görə fərqləndirir.

**3.1.1.** Sadə təsvirlər çəkir.

**İş forması:** Qruplarla iş, cütlərlə iş, fərdi iş.

**Üsullar:** Əqli hücum, tap-tapmaca, müzakirə.

**Resurslar:** Nəqliyyat vasitələri (oyuncaqlar), şəkilli kartlar və s.

## Məşğələnin gedişi

**Motivasiya:** Tərbiyəçi-müəllim deyir: Uşaqlar, bağçamıza başqa bağçanın uşaqları qonaq gəlmək istəyirlər. Ancaq bilmirlər ki, necə gəlsinlər. Mən sizə çoxlu nəqliyyat vasitələri göstərəcəyəm. Gəlin qərarlaşdıraq, görək uşaqlar nə ilə bağçamıza gələ bilərlər? Tərbiyəçi-müəllim oyuncaq maşını, təyyarəni, motosikleti, gəmini, avtobusu, velosibeti, qatarı göstərir. -Uşaqlar, gəlin araşdıraq.

-Uşaqlar, sizcə, təyyarəylə gələ bilərlər? -Yox, çünki təyyarə hava ilə uçur, uzaqlara gedir. Gəmi suda üzür, maşına az adam sığır. Uşaqlardan biri avtobusla gələ biləcəyini söyləyir.

**Dərketmə mərhələsi:** Uşaqlar, avtobus yerüstü nəqliyyat vasitəsidir. Avtobus toplu daşıma nəqliyyat vasitəsidir. Sizcə, avtobusa az, yoxsa çox adam sığır? Avtobusları harada gözləyə bilərik? Orada özümüzü necə aparmalıyıq? və s.

**İdman dəqiqəsi:** Ritmik hərəkətlərlə avtobus kimi düzlənib, siqnal səsi çıxararaq bir-birindən tutub sıra ilə gedirlər.

**Tətbiqetmə mərhələsi:** Uşaqlar, gəlin "Avtobusda" oyunu oynayaq.

Stullar düzülür. Uşaqlar stullarda oturur. Biri sürücü, digərləri sərnişin olur. Avtobusda özlərini necə aparmaq lazım olduğunu icra edirlər.

Məşğələ yekunlaşır.

## MƏŞĞƏLƏ 10
*(X həftə)*

**2.2.1.** Dinləyib-anladığını verdiyi sual və cavablarla nümayiş etdirir.

**2.2.6.** Nitqində əlamət, hiss bildirən sözlərdən istifadə edir.

**Mövzu:** Meşədəki heyvanlar (ayı, tülkü, canavar).

**Məqsəd:** Meşədəki heyvanları adlandırır. Ayı, tülkü, canavar haqqında məlumat verir.

**İnteqrasiya: 2.1.4.** Canlı və cansız aləmin obyektlərini (insan, heyvan, quş, bitki, qum, daş, torpaq, işıq) əlamətinə görə fərqləndirir.

**2.3.2.** Əşyalar forma və ölçüsünə (uzununa, eninə, hündürlüyünə, qalınlığına) görə fərqləndirir.

**3.1.2.** Təsvirlərində uyğun rənglərdən istifadə edir.

**4.1.2.** Hərəkətli oyun, əyləncə zamanı emosiya, əhval-ruhiyyə (sevinc, təəccüb və s.) nümayiş etdirir.

**İş forması:** Kollektiv iş, fərdi iş, cütlərlə iş.

**Üsullar:** Əqli hücum, nağıletmə, sual-cavab və s.

**Resurslar:** Şəkilli kartlar, rollu oyuncaqlar üçün paltarlar və s.

## Məşğələnin gedişi

**Motivasiya:** Tərbiyəçi-müəllim müxtəlif nağıl şəkillərini uşaqlara göstərir. Qırmızıpapaq, Qoğal, Vəhşi qazlar, Turp və s. -Uşaqlar, gəlin bu nağılların adlarını deyək. Sizcə, bu nağıllardan hansında heyvanlar daha çoxdur? -"Qoğal" nağılı. "Qoğal" nağılında hansı heyvanlar var? -Dovşan, ayı, canavar, tülkü.

**Dərketmə mərhələsi:** Uşaqlar, sizcə sadaladığımız heyvanlar harada yaşayır? Qoğal onlara harada rast gəlir? O heyvanlar necə heyvanlardır? Nə ilə qidalanırlar? və s.

Tərbiyəçi-müəllim lövhəyə kölgəli ayı, tülkü, canavar təsvir olunmuş meşə şəklini yapışdırır. Uşaq həmin kölgələrin hansı heyvana aid olduğunu müəyyən etməlidir. Kölgəyə aid rəngli heyvan şəklini onun üstünə yapışdırmalıdır.

**İdman dəqiqəsi:**

**Tətbiqetmə mərhələsi:**

Tərbiyəçi-müəllim uşaqlara rollu oyun oynamağı təklif edir: -Uşaqlar, gəlin "Qoğal" nağılını səhnələşdirək. Uşaqlar rol paltarlarını geyinir və heyvanların rolunu oynayırlar. Sonra tərbiyəçi-müəllim soruşur: Sizcə, ən hiyləgər heyvan hansıdır?

## MƏŞĞƏLƏ 11
***(XI həftə)***

**2.2.2.** Şəkillərin məzmununa əsasən hekayə və nağılları danışır.

**2.2.6.** Nitqində əlamət, hiss bildirən sözlərdən istifadə edir.

**Mövzu:** Zooparkda (şəkil üzrə).

**Məqsəd:** "Zooparkda" şəkil üzrə hekayə qurub danışır. Zooparkda gördükləri haqqında danışarkən hiss və həyəcanını bildirir.

**İnteqrasiya: 2.1.2.** Əşyalar və sadə sujetli şəkillər üzrə danışır.

**2.3.4.** Məkan (irəli, geri, yuxarı, aşağı, alt, üst) və zaman (səhər, günorta və axşam) anlayışlarını fərqləndirir.

**3.1.3.** Kəsilmiş formalardan istifadə etməklə sadə kompozisiyalar qurur.

**İş forması:** Qruplarla, fərdi iş, kollektiv iş.

**Üsullar:** Əqli hücum, nağıletmə, sual-cavab və s.

**Resurslar:** Şəkilli kartlar, heyvan oyuncaqları və s.

## Məşğələnin gedişi

**Motivasiya:** Tərbiyəçi-müəllim qrupa balaca canlı tısbağa, kirpi, dovşan gətirir. Onların üstünü örtür. -Uşaqlar, bu gün qrupumuzun balaca qonaqları var. Sizcə, burada nə var? Bir qonağımızın tikanları var, bir qonağımızın uzun qulaqları, bir qonağımızın belində bərk evi var, fikirləşin görək, bunlar hansı heyvanlardır?

**Dərketmə mərhələsi:** Uşaqlardan tərbiyəçi-müəllim kimlərin zooparka getdiyini soruşur: Zooparkda nə gördünüz? Hansı heyvanlar yadınızda qalıb? Tərbiyəçi-müəllim uşaqlara zoopark şəklini göstərir və şəklə baxaraq danışmalarını təklif edir. Zooparkda necə davranmalarını soruşur, heyvanları icazəsiz qidalandırmaq olmaz deyir.

**İdman dəqiqəsi:** Musiqi sədaları altında ritmik hərəkətlər.

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllim qrup otağında oyuncaq heyvanlarla "zoopark"da oyunu qurur. -Uşaqlar, zooparka gəzintiyə gedirik. Orada necə davranacağımızı, uzaqdan seyr etməyi, onları icazəsiz qidalandırmamağı və əsəbləşdirməməyi öyrənəcəyik. Hansı heyvanın yanında dayansaq, həmin heyvan haqqında məlumat verəcəksiniz.

## MƏŞĞƏLƏ 12

***(XII həftə)***

**2.2.5.** Danışığında iki-dörd sözdən ibarət sadə cümlələrdən istifadə edir.

**2.2.6.** Nitqində əlamət, hiss bildirən sözlərdən istifadə edir.

**Mövzu:** Üç rəngin sehri (bayraq).

**Məqsəd:** Bayraq haqqında sadə cümlələrdən istifadə edərək danışır. Bayrağımızı sevdiyini deyir.

**İnteqrasiya: 2.1.1.** Özü, ailəsi və vətəni haqqında suallara cavab verir.

**2.3.1.** Əşyalarla 3 dairəsində riyazi əməliyyatlar yerinə yetirir.

**3.1.1.** Sadə təsvirlər çəkir.

**İş forması:** Qruplarla iş, fərdi iş, cütlərlə iş.

**Üsullar:** Əqli hücum, sual-cavab, müzakirə.

**Resurslar:** Bayraqlar, karandaşlar, şəkilli kartlar və s.

### Məşğələnin gedişi

**Motivasiya:** Tərbiyəçi-müəllim bayrağımız haqqında şeir deyir. -Uşaqlar, şeir nəyə həsr olunub? -Bayrağımıza. Tərbiyəçi-müəllim müxtəlif rəngli lentləri uşaqlara paylayır və onların içindən bayrağımızın rənglərini seçdirir. Uşaqlar bayraqların rənglərini seçirlər və qarşılarına qoyurlar.

**Dərketmə mərhələsi:** Uşaqlar, bayrağımızın neçə rəngi var? Ortasında nə təsvir olunub? Gəlin bayraq şeirini öyrənək.

**İdman dəqiqəsi:** Uşaqlar əllərində bayraqlarla addımlayırlar.

**Tətbiqetmə mərhələsi:** Uşaqlara qruplarla iş təqdim olunur.

*I qrup:* Müxtəlif bayraqlar içindən Azərbaycanın bayrağını tapmaq.

*II qrup:* Bayrağı rəngləmək.

*III qrup:* Rənglərin içindən bayrağımızın rənglərini tapıb birləşdir.

*IV qrup:* Plastilindən bayraq düzəlt.

## MƏŞĞƏLƏ 13

***(XIII həftə)***

**2.2.5.** Danışığında iki-dörd sözdən ibarət sadə cümlələrdən istifadə edir.

**2.2.6.** Nitqində əlamət, hiss bildirən sözlərdən istifadə edir.

**Mövzu:** Mənim günüm.

**Məqsəd:** Gün rejimi haqqında sadə sözlərlə cümlə qurub danışır. Nitqində səhər, günorta, axşam sözlərindən istifadə edir.

**İnteqrasiya: 2.1.1.** Özü, ailəsi və vətəni haqqında suallara cavab verir.

**2.3.4.** Məkan (irəli, geri, yuxarı, aşağı, alt, üst) və zaman (səhər, günorta və axşam) anlayışlarını fərqləndirir.

**3.2.1.** Sadə əmək tapşırıqlarını (özünəxidmət, təbiətdə əmək, təsərrüfat-məişət əməyi üzrə) yerinə yetirir.

**İş forması:** Qruplarla iş, kollektiv iş, fərdi iş.

**Üsullar:** Əqli hücum, müzakirə, sual-cavab.

**Resurslar:** Şəkilli kartlar, əşyalar və s.

**Məşğələnin gedişi**

**Motivasiya:** Tərbiyəçi-müəllim əlində gəlincik: -Uşaqlar, gəlinciyimiz yerindən qalxır, gəlin onu geyindirək. Gəlinciyi biri geyindirir, digəri isə gəlinciyin yerini yığır. -Bəs gəlinciyin dişlərini kim fırçalayar? Uşaqlar, sizcə, bu işləri biz nə vaxt görürük? Səhər-səhər nə çıxır? – Günəş. -Gəlin lövhəyə günəş yapışdıraq. Tərbiyəçi-müəllim beləliklə oyunu davam etdirir.

**Dərketmə mərhələsi:** Uşaqlar, kim öz günü haqqında danışar. Danışdıqca şəkilləri seçib lövhəyə yapışdıraq. Səhər, günorta, axşam ərzində nə etdiklərini uşaqlar danışır.

**İdman dəqiqəsi:** Uşaqlar, səhər dururuq. Uşaq ayağa qalxır, əllərini qaldırırlar. -Dişlərimizi fırçalayırıq. Dişlərini fırçalayır kimi hərəkət edirlər. -Axşam düşür, ay çıxır. Əllərini gözünün üstünə qoyub, o tərəf, bu tərəfə baxırlar. -Gecə düşür. Əyilib yatırlar.

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqlara müxtəlif kartlar paylayır. Kimdə hansı gün rejiminə aid şəkil varsa, ona uyğun bir-iki cümlə qurub danışır.

## MƏŞĞƏLƏ 14
### *(XIV həftə)*

**2.2.5.** Danışığında iki-dörd sözdən ibarət sadə cümlələrdən istifadə edir.

**2.2.6.** Nitqində əlamət, hiss bildirən sözlərdən istifadə edir.

**Mövzu:** Qar yağır.

**Məqsəd:** Qış fəsli haqqında sadə sözlərdən ibarət cümlə qurur. Qarı sevdiyini və onun əlamətlərini söyləyir.

**İnteqrasiya: 2.1.5.** Ətraf aləmdə baş verən proseslərə dair suallar verir və sadə ifadələrlə (böyüyür, uzanır, açılır, tökülür, saralır, dəyişir və s.) təsvir edir.

**2.3.2.** Əşyaları forma və ölçüsünə (uzununa, eninə, hündürlüyünə, qalınlığına) görə fərqləndirir.

**3.1.1.** Sadə təsvirlər çəkir.

**İş forması:** Qruplarla iş, fərdi iş, kollektiv iş.

**Üsullar:** Əqli hücum, sual-cavab, tap-tapmaca.

**Resurslar:** Şəkilli kartlar, əşyalar və s.

### Məşğələnin gedişi

**Motivasiya:** Yerdə iki əlcək var. Tərbiyəçi-müəllim uşaqlara deyir: Uşaqlar, yerdə əlcək var, görəsən, kimindi bu? Uşaqlar, sizindi bu? Uşaqlar, sizcə əlcəyi nə zaman taxırlar? -Qar yağanda və ya qış fəslində. -Deməli, bu əlcəyi taxan qarla oynayıb gəlib. Gəlin axtaraq, bu kimin əlcəyidir? İçəri bir nəfər girir: -Uşaqlar, əlcəyimi itirmişəm, əlim üşüyür, çöldə yaman qar yağır.

**Dərketmə mərhələsi:** Uşaqlar, gəlin bu şəkillərə baxaq görək, nə zaman qar yağır? Qış fəslində. -Qış fəslinə aid əşyalar hansılardır? Gəlin, şəkilli kartlardan tapaq. Qar yağarkən nə geyinirik, nə oynayırıq?

**İdman dəqiqəsi:**

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqlarla qrup işi təşkil edir. Ortaya bir ağac şəkli qoyur. Uşaqlar balaca kəsilmiş kağızlardan və ya pambıqdan qar dənəcikləri düzəldib ağacın üstünə, ətrafına yapışdırırlar. Tərbiyəçi-müəllim məşğələnin sonunda uşaqlara bir-iki sual verir. Uşaqları rəğbətləndirir və məşğələni yekunlaşdırır.

## MƏŞĞƏLƏ 15
*(XV həftə)*

**2.2.1.** Dinləyib-anladığını verdiyi sual və cavablarla nümayiş etdirir.

**2.2.5.** Danışığında iki-dörd sözdən ibarət sadə cümlələrdən istifadə edir.

**Mövzu:** Ev quşları: Toyuq və cücələr.

**Məqsəd:** Toyuq və cücələr haqqında suallar verir. Ev quşları haqqında sadə cümlələr qurur.

**İnteqrasiya: 2.1.3.** Müşahidə etdiyi əşyaları fərqləndirir.

**2.3.1.** Əşyalarla 3 dairəsində riyazi əməliyyatlar yerinə yetirir.

**3.1.1.** Sadə təsvirlər çəkir.

**İş forması:** Qruplarla iş, fərdi iş, kollektiv iş.

**Üsullar:** Əqli hücum, sual-cavab, tap-tapmaca.

**Resurslar:** Ev quşları, onlara aid əşyalar və s.



## Məşğələnin gedişi

**Motivasiya:** Tərbiyəçi-müəllim oxuyur.

*-Toyuq, ay toyuq,*
*Hara getmişdin belə?*
*-Suya.*
*-Toyuq, ay toyuq,*
*Niyə getmişdin suya?*
*-Cücələrim su istəyir.*
*-Cücələr səndən suyu necə istəyir?*
*-Bax belə:*
*Cib-cib-cib-cib.*

**Dərketmə mərhələsi:** Uşaqlar, toyuq və cücələr necə adlanır? Ev quşlarının xeyri nədir? Onları necə bəsləyirik? Cücələr necə səs çıxardır? Bəs toyuq? Gəlin toyuq və cücələri sayaq. Toyuq çoxdur, yoxsa cücə?

**İdman dəqiqəsi:** "Cücələrim" mahnısının sədaları altında idman dəqiqəsi.

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllim stolun üstünə toyuq-cücəyə, ev heyvanlarına aid əşyalar qoyur və deyir: Uşaqlar, buradan toyuq və cücələrə aid əşyaları seçəcəyik və onunla nə etdiyimizi söyləcəyik (məs: yumurta, tük, dən, ət və s.).

Məşğələ yekunlaşır.

## MƏŞĞƏLƏ 16
### *(XVI həftə)*

**2.2.5.** Danışığında iki-dörd sözdən ibarət sadə cümlələrdən istifadə edir.

**2.2.6.** Nitqində əlamət, hiss bildirən sözlərdən istifadə edir.

**Mövzu:** Masa arxasında davranış qaydaları.

**Məqsəd:** Masa arxasında necə davranmağı sadə cümlələr qu-

rub danışır. Nitqində çəngəl, bıçaq, qaşıq, salfet sözlərindən istifadə edir.

**İnteqrasiya: 1.2.2.** Masa arxasında ümumi qaydalara (yemək dəstlərindən, qaşıqdan istifadə etmək, ağzını və əllərini salfetlə silmək) əsasən davranır.

**3.1.3.** Kəsilmiş formalardan istifadə etməklə sadə kompozisiyalar qurur.

**3.2.1.** Sadə əmək tapşırıqlarını (özünəxidmət, təbiətdə əmək, təsərrüfat-məişət əməyi üzrə) yerinə yetirir.

**4.2.3.** Problemin həllində iştirak edir.

**İş forması:** Qruplarla iş, cütlərlə iş, fərdi iş.

**Üsullar:** Əqli hücum, sual-cavab, tap-tapmaca və s.

**Resurslar:** Şəkilli kartlar, oyuncaq əşyalar və s.

## Məşğələnin gedişi

**Motivasiya:** Tərbiyəçi-müəllim çay dəstini, yemək dəstini uşaqlara göstərir və deyir, sizcə bunlar nədir? Biz bunları harada istifadə edirik? Uşaqlar, bizə Qırmızıpapaq qonaq gələcək. Gəlin çay stolu açaq. Uşaqlar, bu səbətin içində çoxlu əşyalar var, çay stoluna nələri qoymalıyıq, seçək, stol açaq.

**Dərketmə mərhələsi:** Qırmızıpapaq qonaq gəlir. Uşaqlar Qırmızıpapağı süfrəyə çay içməyə dəvət edirlər. Qırmızıpapaq isə gedib oynamaq istədiyini deyir.

Tərbiyəçi-müəllim soruşur: Uşaqlar, sizcə, Qırmızıpapaq düz edir? Süfrəyə qonaq dəvət olunarkən süfrə ətrafında oturmaq lazımdır. Bəs süfrəyə əyləşməmişdən əvvəl nə etmək lazımdır? Əllərini yumaq lazımdır. Qırmızıpapaq deyir, mən əllərimi yuya bilmirəm, gəlin ona əllərimizi necə yuduğumuzu öyrədək.

Qırmızıpapaq süfrəyə əyləşən kimi unu əli ilə ortadakı peçenye qabının qarşısına qoyur. Uşaqlar ona düz etmədiyini söyləyir və düzünü göstərirlər. Uşaqlar Qırmızıpapağa masa ətrafında davranış qaydalarına riayət etməyi söyləyirlər və öyrədirlər.

**İdman dəqiqəsi:**

**Tətbiqetmə mərhələsi:** Uşaqlar, gəlin Qırmızıpapaqdan masa ətrafında davranış qaydalarını soruşaq. Görək Qırmızıpapaq bizdən nə öyrəndi? Uşaqlar Qırmızıpapaqla sual-cavab edirlər.

## MƏŞĞƏLƏ 17
*(XVII həftə)*

**2.2.5.** Danışığında iki-dörd sözdən ibarət sadə cümlələrdən istifadə edir.

**2.2.6.** Nitqində əlamət, hiss bildirən sözlərdən istifadə edir.

**Mövzu:** Qardan adam.

**Məqsəd:** Qış fəsli haqqında bir-iki sözdən ibarət cümlələr qurub danışır. Nitqində qardan adam, qış, buz sözlərdən istifadə edir.

**İnteqrasiya: 1.1.4.** Kiçik motor hərəkətlərini (əşyaları və oyuncaqları barmaqları arasında saxlayır, atıb-tutur, şəkil çəkir, yapışdırır, quraşdırır və s.) koordinasiya edir.

**2.1.5.** Ətraf aləmdə baş verən proseslərə dair suallar verir və sadə ifadələrlə (böyüyür, uzanır, açılır, tökülür, saralır, dəyişir və s.) təsvir edir.

**2.3.2.** Əşyaları forma və ölçüsünə (uzununa, eninə, hündürlüyünə, qalınlığa) görə fərqləndirir.

**İş forması:** Qruplarla iş, fərdi iş, cütlərlə iş.

**Üsullar:** Əqli hücum, sual-cavab, müzakirə və s.

**Resurslar:** Şəkilli kartlar, pambıqlar, kağızlar və s.

### Məşğələnin gedişi

**Motivasiya:** Uşaqlar, gəlin birlikdə şam ağacımızı bəzəyək. Uşaqlar şam ağacının ətrafına yığılır. Şam ağacını uşaqlar birlikdə bəzəyir. -Uşaqlar, şam ağacı nə zaman bəzənir? -Qış fəslində. Yeni ildə.

**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim əlində bir qutu saxlayır. -Uşaqlar, bu qutunun içində qışa aid bir əşya qoymuşam. Kim tapar? Qutudan qar çıxır (qar əvəzinə pambıq qoyulur). -Uşaqlar,

qar yağanda nə edirik? Qardan adamı necə düzəldirik? Qardan adam neçə hissədən olur? O, hansı fiqura bənzəyir? Onu nə ilə bəzəyirik?

**İdman dəqiqəsi:**

**Tətbiqetmə mərhələsi:** Uşaqlar, gəlin pambıqdan qardan adamlar düzəldək, şam ağacının üstünə qoyaq. Tərbiyəçi-müəllimin köməkliyi ilə qardan adamlar düzəlir.

## MƏŞĞƏLƏ 18
*(XVIII həftə)*

**2.2.1.** Dinləyib-anladığını verdiyi sual və cavablarla nümayiş etdirir.

**2.2.5.** Danışığında iki-dörd sözdən ibarət sadə cümlələrdən istifadə edir.

**Mövzu:** Meyvələr.



**Məqsəd:** Meyvələr haqqında suallar verir. Meyvələr haqqında bildiklərini bir-iki cümlə ilə ifadə edir.

**İnteqrasiya: 2.1.4.** Canlı və cansız aləmin obyektlərini (insan, heyvan, quş, bitki, qum, daş, torpaq, işıq) əlamətinə görə fərqləndirir.

**2.3.2.** Əşyaları forma və ölçüsünə (uzununa, eninə, hündürlüyünə, qalınlığına) görə fərqləndirir.

**3.2.1.** Sadə təsvirlər çəkir.
**İş forması:** Qruplarla iş, fərdi iş, cütlərlə iş.
**Üsullar:** Əqli hücum, müzakirə, nağıletmə və s.
**Resurslar:** Meyvələr, şəkil kartlar və s.

**Məşğələnin gedişi**

**Motivasiya:** Tərbiyəçi-müəllim əlindəki bir məktubu uşaqlara göstərir. Deyir: Uşaqlar, dələ bizə bir məktub yazıb. Məktubda deyir: Əziz uşaqlar, mənim sizdən bir xahişim var. Kirpi məni qonaq çağırıb. Ancaq mənə deyib ki, gələrkən bir səbət meyvə gətir. Mən də meyvələri səbətə yığmışdım. Sonra meşədə səbətimi itirdim. Mənə köməklik edin, onu tapaq. Tərbiyəçi-müəllim: -Uşaqlar, köməklik göstərək dələyə? Gəlin səbəti axtaraq birinci. Qrup otağının bir tərəfində səbət, digər tərəflərində də meyvələr qoyulub. Uşaqlar diqqətlə ətrafa baxır. Səbəti və meyvələri tapıb səbətə yığırlar.

**Dərketmə mərhələsi:** Uşaqlar, gəlin görək səbətdə nələr var? (alma, armud, banan, nar və s.). Uşaqlar, bunlar birlikdə necə adlanır? Alma nə rəngdə və hansı formadadır? Bəs banan? və s. Biz səbətdəki meyvələri kimin üçün yığdıq? Dələ kimin üçün aparacaq meyvələri? Sizcə, dələ sevinəcək?

**İdman dəqiqəsi:**

**Tətbiqetmə mərhələsi:** Uşaqlar, gəlin "şən dairələr" oyununu oynayaq ("Didaktik oyun" kitabından).

Tərbiyəçi-müəllim uşaqlara çoxlu meyvələr təsvir olunmuş dairəvi kartlar paylayır. Uşağın birinə isə tək meyvələr təsvir olunmuş kartları verir. Onlardan birini uşaqlara göstərir. Məsələn: armud. Uşaqlar tez əllərindəki dairəvi kartın içinə baxır. Əgər meyvələrin içində armud varsa, tez deyir: armud. Əgər meyvələrin içində həqiqətən armud varsa, həmin uşaq çıxıb tək kartı çəkir. Beləliklə, oyun davam edir.

# MƏŞĞƏLƏ 19
### *(XIX həftə)*

**2.2.1.** Dinləyib-anladığını verdiyi sual və cavablarla nümayiş etdirir.

**2.2.6.** Nitqində əlamət, hiss bildirən sözlərdən istifadə edir.

**Mövzu:** Təhlükəsizliyimizi qoruyaq.

**Məqsəd:** Təhlükəsizliklərini necə qorumaqları haqqında sual verirlər. Yandırıcı, kəsici, iti əşyaların təhlükəli olduğunu deyirlər.

**İnteqrasiya: 1.3.1.** Həyatına və sağlamlığına təhlükə yarada biləcək əşyaları əlamətlərinə (yandırıcı, kəsici, deşici) görə fərqləndirir.

**2.1.6.** Gündəlik rast gəldiyi ona tanış olmayan obyekt və hadisələr haqqında məlumat almaq üçün suallar verir.

**4.2.3.** Problemin həllində iştirak edir.

**İş forması:** Qruplarla iş, fərdi iş, kollektiv iş.

**Üsullar:** Əqli hücum, müzakirə, sual-cavab.

**Resurslar:** Kəsici, yandırıcı, isti əşyalar, şəkilli kartlar və s.

### Məşğələnin gedişi

**Motivasiya:** Uşaqlar, bu qutunun içində müxtəlif əşyalar var. Ancaq bunlar elə əşyalardır ki, o əşyaları ehtiyatla işlətməsək, bizə təhlükə yarada bilər. Sizcə, bu qutuda nələr var?

**Dərketmə mərhələsi:** Uşaqlar, sizcə evdə işlətdiyimiz əşyalardan nələr təhlükəli ola bilər? Uşaqlar, bildiklərinizi deyin, daha sonra qutunu açacağam, görək dediyiniz əşyalar bu qutuda var? (Bıçaq, iynə, kibrit, çəngəl və s.). Uşaqlar, sizcə bu əşyalar bizə nə zaman təhlükə yarada bilər? Biz bu əşyalardan necə istifadə etməliyik? Uşaqlar, hansı əşyalara əl vurmamalıdırlar? Yanğın zamanı hansı nömrəyə zəng vurmalıyıq və ya kim isə xəstələnərkən hara zəng vurmalıyıq?

**İdman dəqiqəsi:**

**Tətbiqetmə mərhələsi:** Uşaqlar, bu qutunun içində bizə yardım göstərəcək əşyalar var, yod, bint, pambıq, yara bandı və s. Gəlin əlimiz yaralanarkən ilk yardımı necə edəcəyimizi öyrənək. Gəlinciyimizə kömək edək.

## MƏŞĞƏLƏ 20
*(XX həftə)*

**2.1.1.** Dinləyib-anladığını verdiyi sual və cavablarla nümayiş etdirir.

**2.2.5.** Danışığında iki-dörd sözdən ibarət sadə cümlələrdən istifadə edir.

**Mövzu:** Tərəvəzlər.

**Məqsəd:** Tərəvəzlər haqqında anladıqlarını nümayiş etdirir. Tərəvəzlər haqqında iki-dörd sözdən ibarət sadə cümlələr qurur.

**İnteqrasiya: 2.1.4.** Canlı və cansız aləmin obyektlərini (insan, heyvan, quş, bitki, qum, daş, torpaq, işıq) əlamətinə görə fərqləndirir.

**2.3.2.** Əşyaları forma və ölçüsünə (uzununa, eninə, hündürlüyünə, qalınlığına) görə fərqləndirir.

**3.1.1.** Sadə təsvirlər çəkir.

**İş forması:** Qruplarla iş, fərdi iş, cütlərlə iş.

**Üsullar:** Əqli hücum, sual-cavab, müzakirə.

**Resurslar:** Şəkilli kartlar, tərəvəzlər, karandaşlar və s.



## Məşğələnin gedişi

**Motivasiya:** Uşaqlar, kimsə qapının arxasında ağlayır, gəlin baxaq görək, kimdir? Burada dovşan var ki, sən niyə ağlayırsan, ay dovşan? -Mənim gözlərim yaxşı görmür, başım ağrıyır, ayaqlarımın ağrısından o biri dovşanlar kimi qaça bilmirəm. Tərbiyəçi-müəllim deyir: Yəqin ki, sən vitaminli qidalar qəbul etmirsən, hə?

Dovşan deyir: Ay uşaqlar, vitaminli qidalar nədir elə?

**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim deyir: Uşaqlar, dovşan bilmir nə yesin, gəlin onu məşğələmizə dəvət edək. Bizə qulaq assın, öyrənsin. Uşaqlar, vitaminlər ən çox nələrdə var? -Tərəvəzlərdə və meyvələrdə. Hansı tərəvəzləri tanıyırsınız? -Kök, xiyar, kartof, soğan, sarımsaq, göy-göyərti, kələm.

Dovşan deyir: Mənim sevdiyim kök və kələmdir. Uşaqlar deyir: Dovşan, sən bütün tərəvəzləri yeməlisən ki, sənin bədənin sağlam olsun.

**İdman dəqiqəsi:** Uşaqlar, gəlin dovşanla birgə idman edək. Onun kimi tullanaq, onun kimi gizlənək.

**Tətbiqetmə mərhələsi:** Uşaqlar, gəlin meyvə və tərəvəzləri ayıraq, onları adlandıraq, meyvələrin harada, tərəvəzlərin harada bitdiyini müəyyən edək, şəklə yerləşdirək.

## MƏŞĞƏLƏ 21
### *(XXI həftə)*

**2.1.1.** Dinləyib-anladığını verdiyi sual və cavablarla nümayiş etdirir.

**2.2.3.** Nitq etiketlərindən (“bəli”, “xeyr”, “çox sağ ol”) istifadə edir.

**Mövzu:** Bir-birimizə hörmət edək.

**Məqsəd:** Ətrafındakılara hörmət etmək haqqında danışır. Ətrafdakılarla danışarkən “bəli”, “buyurun”, “xeyr” və s. sözlərdən istifadə edir.

**İnteqrasiya: 4.1.1.** Sadə ünsiyyət qaydalarına əməl edir.
**4.2.2.** Qrupun üzvü kimi fəaliyyət göstərir.
**İş forması:** Qruplarla iş, fərdi iş, cütlərlə iş.
**Üsullar:** Əqli hücum, müzakirə, sorğu-sual və s.
**Resurslar:** Şəkilli kartlar və s.

## Məşğələnin gedişi

**Motivasiya:** Uşaqlar, gəlin əl-ələ verək dairəyə düzülək. Uşaqlar dairəyə düzülürlər. -Uşaqlar, gəlin indi bir-birimizə xoş sözlər deyək. Uşaqlar bir-birinə xoş təsir edəcək sözlər deməyə çalışır. Tərbiyəçi-müəllim deyir: İlk mən başlayacağam. Dostum, bu gün nə gözəl köynək geyinmisən? Əgər sənə kömək lazımsa, mən sənə kömək edə bilərəm və s.

**Dərketmə mərhələsi:** Uşaqlar, sizcə biz bir-birimizə necə hörmət edirik. Hörmət etmək nə deməkdir? Siz nəzakətli olmaq üçün hansı sözlərdən istifadə edirsiniz. Ananız yemək verərkən, atanız sizi gəzintiyə apararkən, dostlarınızla oynayarkən, kimsə sizə hədiyyə verərkən hansı sözlərdən istifadə etmək lazımdır? Tərbiyəçi-müəllim uşaqlarla birlikdə necə nəzakətli olmağı öyrənirlər.

**İdman dəqiqəsi:**

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqlara şəkilli kartlar paylayır. Məsələn, bir uşaq digərinə hədiyyə verir. Ana süfrə açır, dostlar oyuncaqlarla oynayır.

-Uşaqlar, şəkilə baxıb ona uyğun nəzakətli bir cümlə qurub deyəcəksiniz. Məsələn, “hədiyyə üçün çox təşəkkür edirəm”, “anacan, sənə süfrəni açmaqda köməklik göstərim” və s.

Uşaqlar şəkillərə uyğun tərbiyəçi-müəllimin köməkliyi ilə cümlələr qururlar.

Məşğələ yekunlaşır.

# MƏŞĞƏLƏ 22
## *(XXII həftə)*

**2.2.5.** Danışığında iki-dörd sözdən ibarət sadə cümlələrdən istifadə edir.

**2.2.6.** Nitqində əlamət, hiss bildirən sözlərdən istifadə edir.

**Mövzu:** Anamı çox sevirəm.

**Məqsəd:** Anası haqqında sadə cümlələr qurur. Anasını çox sevdiyini deyir.

**İnteqrasiya: 2.1.1.** Özü, ailəsi və vətəni haqqında suallara cavab verir.

**2.2.6.** Nitqində əlamət, hiss bildirən sözlərdən istifadə edir.

**3.1.3.** Kəsilmiş formalardan istifadə etməklə sadə kompozisiyalar qurur.

**4.2.1.** Arzu, hiss və istəklərini ifadə edir.

**İş forması:** Qruplarla iş, fərdi iş, cütlərlə iş.

**Üsullar:** Əqli hücum, sual-cavab, müzakirə və s.

**Resurslar:** Yapışqan, rəngli kağızlar, karandaşlar, şəkillər.

### Məşğələnin gedişi

**Motivasiya:** Tərbiyəçi-müəllim bayramlar təsvir olunmuş kartları uşaqlara göstərir: -Uşaqlar, kartlarda təsvir olunmuş bayramların adlarını deyək. Kim çox bayramı tanısa, o qalib sayılır. Yaz fəslinin ilk bayramı sizcə hansıdır? -8 Mart Beynəlxalq Qadınlar günü.

**Dərketmə mərhələsi:** Uşaqlar, qadınlar kimlərdir? -Ana, nənə, bacı, müəllimə, xala, bibi. -Hər kəs öz anası üçün bir xoş söz, cümlə desin. Uşaqlar, biz qadınlar günündə onları necə təbrik edə bilərik? Onlar bizim üçün çox əziz insanlardır? Gəlin anamız üçün bir şeir deyək və ya mahnı oxuyaq.

**İdman dəqiqəsi:** Musiqi sədaları altında ritmik hərəkətlər.

**Tətbiqetmə mərhələsi:** Tərbiyəçi-müəllim uşaqlara oyun təklif edir. -Uşaqlar, masanın üstündə yaşıl parça üzərində müxtəlif rəngli çiçəklər var.

-Hər kəs otaqdan çiçəklər dərib qarşısındakı kağıza yapışdıraraq, anasına hədiyyə verəcək. Lakin hər kəs eyni rəngdə çiçək seçib yapışdırmalıdır. Daha sonra hər kəs anasına hədiyyəni təqdim edərkən bir xoş söz deməlidir. Məsələn: ana, səni təbrik edirəm, ana, səni sevirəm və s.

## MƏŞĞƏLƏ 23
*(XXIII həftə)*

**2.1.1.** Dinləyib-anladığını verdiyi sual və cavablarla nümayiş etdirir.

**2.2.6.** Nitqində əlamət, hiss bildirən sözlərdən istifadə edir.

**Mövzu:** Peşələr. Bənna, dərzi.

**Məqsəd:** Peşələr haqqında verilən sualları cavablandırır. Hansı peşəni sevdiyini deyir.

**İnteqrasiya: 2.1.1.** Özü, ailəsi və vətəni haqqında suallara cavab verir.

**3.1.2.** Təsvirlərində uyğun rənglərdən istifadə edir.

**3.1.8.** Müxtəlif fəaliyyətlər üzrə müstəqil, sadə yaradıcılıq (təsviri fəaliyyət, musiqi, bayram və əyləncələrdə, səhnəciklərdə iştirak etmək) bacarıqları nümayiş etdirir.

**İş forması:** Qruplarla iş, fərdi iş, cütlərlə iş.

**Üsullar:** Əqli hücum, sual-cavab, tap-tapmaca.

**Resurslar:** Peşələrə aid paltarlar, əşyalar, şəkilli kartlar və s.



## Məşğələnin gedişi

**Motivasiya:** Uşaqlar, kuklamızın donu sökülüb, biz necə edə bilərik ki, donunu geyinib qonaqlığa getsin? Sizcə, bizə paltarları kim tikir? Hansı peşə sahibi, sizcə, bizə köməklik göstərə bilər? -Dərzi. Dərzi nə edir? O hansı alətlərdən istifadə edir? Dərzi alətləri təhlükəlidir. Onlardan ehtiyatla istifadə etmək lazımdır. Bəs evlərimizi hansı peşə sahibi tikir? -Bənna. Bənna hansı alətlərdən istifadə edir?

**Dərketmə mərhələsi:** Uşaqlar, şəkillərin içindən peşə sahiblərinin adlarını seçək. Dərzi, bənna, polis, müəllim, həkim. Kim hansı peşə sahibi olmaq istəyir?

**İdman dəqiqəsi:**

**Tətbiqetmə mərhələsi:** Uşaqlar, səbətdə müxtəlif alətlər var. Hər alət bir peşə sahibinə aiddir. Gəlin dərziyə aid alətləri tapıb adını deyək, daha sonra bənnaya aid alətləri tapaq, adlarını deyək. Hər kəs bir alət tapıb, onun adını və hansı peşəyə aid olduğunu desin.

## MƏŞĞƏLƏ 24
### *(XXIV həftə)*

**2.2.5.** Danışığında iki-dörd sözdən ibarət sadə cümlələrdən istifadə edir.

**2.2.6.** Nitqində əlamət, hiss bildirən sözlərdən istifadə edir.

**Mövzu:** Yaz fəsli.

**Məqsəd:** Fəsillər haqqında cümlələr qurur. Yaz fəslinin əlamətlərini deyir.

**İnteqrasiya: 2.1.5.** Ətraf aləmdə baş verən proseslərə dair suallar verir və sadə ifadələrlə (böyüyür, uzanır, açılır, tökülür, saralır, dəyişir və s.) təsvir edir.

**3.1.1.** Sadə təsvirlər çəkir.

**4.2.1.** Arzu, hiss və istəklərini ifadə edir.

**İş forması:** Fərdi iş, kollektiv iş, cütlərlə iş.

**Üsullar:** Əqli hücum, müzakirə, tap-tapmaca.

**Resurslar:** Yaz fəslinə aid əşyalar, şəkilli kartlar və s.

## Məşğələnin gedişi

**Motivasiya:** *Anacan, niyə coşur bulaqlar,*
*Yaşıl geyinir dərələr, dağlar?*
*Niyə sevinclə oxuyur quşlar,*
*Yuva qururlar şən qaranquşlar?*

Tərbiyəçi-müəllim: Uşaqlar, dediyim sözlər hansı fəslə uyğundur? Hansı fəsildə havalar isinməyə başlayır? Qaranquş hansı fəsildə isti ölkələrdən uçub ölkəmizə gəlir, ağaclar nə vaxt çiçək açır? Üstü örtülü şəkildə bu tapmacanın cavabı təsvir olunub. Sizin cavablarınızdan sonra həmin təsviri açacam, görək kimlər düz tapır.

**Dərketmə mərhələsi:** Uşaqlar, indi sizə fəsillərin şəklini göstərəcəyəm, hərəniz hər fəslə aid bir söz deyəcəksiniz. Məsələn, qış fəsli – qar, yaz – çiçək açmış ağac, yay – gilas, payız – yağış.

Payız fəslinin əlamətlərini sadalayaq. Yaz fəslində hansı quşlar bizə qonaq gəlir?

**İdman dəqiqəsi:** Tərbiyəçi-müəllim deyir: – Günəş. Uşaqlar tez dairəvi formada əl-ələ verirlər.

-Quşlar uçub qonaq gəlib. Uşaqlar cik-cik edir, qollarını qanad kimi açıb-bağlayaraq ətrafa yayılırlar.

Yağış yağır. Uşaqlar şır-şır səs çıxararaq bir yerə yığılır.

**Tətbiqetmə mərhələsi:** Uşaqlar, hər fəslə aid şəkillər var. Onların içindən yaz fəslinə aid şəkli seçin və bir cümlə qurun, şəkilə uyğun olsun. Məsələn, yaz fəslində ağaclar çiçək açır.

## MƏŞĞƏLƏ 25
### *(XXV həftə)*

**2.1.1.** Dinləyib-anladığını verdiyi sual və cavablarla nümayiş etdirir.

**2.2.6.** Nitqində əlamət, hiss bildirən sözlərdən istifadə edir.

**Mövzu:** Çöl quşları (qaranquş, sərçə).

**Məqsəd:** Çöl quşları haqqında öyrəndiklərini nümayiş etdirir. Qaranquş və sərçəni sevdiyini deyir, onların əlamətlərini söyləyir.

**İnteqrasiya: 2.1.4.** Canlı və cansız aləmin obyektlərini (insan, heyvan, quş, bitki, qum, daş, torpaq, işıq) əlamətinə görə fərqləndirir.

**2.3.2.** Əşyaları forma və ölçüsünə (uzununa, eninə, hündürlüyünə, qalınlığına) görə fərqləndirir.

**3.2.1.** Təsvirlərində uyğun rənglərdən istifadə edir.

**İş forması:** Qruplarla iş, fərdi iş, kollektiv iş.

**Üsullar:** Əqli hücum, sual-cavab, müzakirə.

**Resurslar:** Şəkilli kartlar, karandaşlar, quş maketləri və s.



**Məşğələnin gedişi**

**Motivasiya:** Tərbiyəçi-müəllim quş səsləri verir (səsucaldıcı ilə): Uşaqlar, dinləyin, bunlar nə səsləridir? Ən çox quşlar hansı fəsillərdə oxuyur?

-Uşaqlar, gəlin bu quş evini həyətdə yerləşdirək, yem də qoyaq, çöldə uçan quşlar gəlib yesinlər.

**Dərketmə mərhələsi:** Uşaqlar, ev quşları harada olur, onlara kimlər qulluq edir? Bəs çöl quşları harada yaşayır? Onlar necə qidalanır? Qışlayan quşlarla, isti ölkələrə gedən quşları tanıyırsınız? Adlarını kim deyər? Uşaqlar, sərçə necə quşdur? Bəs qaranquş? Onların fərqi nədədir?

**İdman dəqiqəsi:** Uşaqlar musiqi sədaları altında ritmik hərəkətlər edir.

**Tətbiqetmə mərhələsi:** Uşaqlar, sizə qarışıq olaraq heyvanların, quşların adlarını deyəcəm. Hansının heyvan, hansının ev quşu, hansının çöl quşu olduğunu deyəcəksiniz. Kartlara uyğun tərbiyəçi-müəllim deyir: -Ayı (şəkli göstərir). Uşaq: -Quş deyil, çöl heyvanıdır. -Qaranquş. -Çöl quşudur. Yazın müjdəçisidir.

## MƏŞĞƏLƏ 26
*(XXVI həftə)*

**2.1.1.** Dinləyib-anladığını verdiyi sual və cavablarla nümayiş etdirir.

**Mövzu:** Mətbəx əşyaları.

**Məqsəd:** Mətbəx əşyaları haqqında verilən sualları cavablandırır. Mətbəx əşyaların adlarını sadalayır.

**İnteqrasiya: 1.1.4.** Kiçik motor hərəkətlərini (əşyaları və oyuncaqları barmaqları arasında saxlayır, atıb-tutur, şəkil çəkir, yapışdırır, quraşdırır və s.) koordinasiya edir.

**2.1.2.** Əşyalar və sadə sujetli şəkillər üzrə danışır.

**2.3.2.** Əşyaları forma və ölçüsünə (uzununa, eninə, hündürlüyünə, qalınlığına) görə fərqləndirir.

**İş forması:** Qruplarla iş, fərdi iş, kollektiv iş.

**Üsullar:** Əqli hücum, sual-cavab, müzakirə və s.

**Resurslar:** Mətbəx əşyaları, şəkilli kartlar və s.

### Məşğələnin gedişi

**Motivasiya:** Tərbiyəçi-müəllim səbətdə müxtəlif tərəvəzlər gətirir: Uşaqlar, bu gün bizə qonaqlar gələcək. Bazardan tərəvəzlər almışıq. Gəlin baxaq görək, səbətdə hansı tərəvəzlər var? Adlarını deyək.

-Uşaqlar, bu tərəvəzlə nə edirlər?

-Yemək bişirirlər.

-Bəs yeməyi harada və necə bişirək, görəsən?
-Qonaqlar gələnə qədər bizim yeməklərimiz hazır olmalıdır.
-Mətbəxdə və mətbəx əşyaları ilə hazırlanmalıdır.



**Dərketmə mərhələsi:** Tərbiyəçi-müəllim oyuncaq mətbəx əşyalarını uşaqların qarşısına gətirir: -Uşaqlar, gəlin birinci əşyaların adlarını deyək, daha sonra qərarlaşdıraq ki, yeməyi harada və necə hazırlayacağıq?

Qaz sobası, elektrik sobası, qazan, tava, boşqab, stəkan, nəlbəki, çəngəl, bıçaq, çömçə və s.

-Biz birinci yeməyi nədə bişirək? -Qazanda. -Qazanı nəyin üstünə qoyaq? Qazana nə ataq? Tərbiyəçi-müəllim uşaqlara suallara cavab verməkdə yardım edir. Birlikdə kartofu, soğanı, göyü qazana qoyurlar və s.

**İdman dəqiqəsi:**

**Tətbiqetmə mərhələsi:** Uşaqlar, sizin qarşınızda müxtəlif mətbəx əşyalarının şəkilləri var. İndi hərənizə bir mətbəx əşyasının adını deyəcəyəm və göstərəcəyəm. Siz ona uyğun şəkli tapıb göstərəcəksiniz və adını deyəcəksiniz. Məsələn, stəkan-fincan, qazan-tava, çəngəl-qaşıq, çaydan-çaynik, qaz sobası-elektrik sobası.

Məşğələ sonlanır.

# MƏŞĞƏLƏ 27
## *(XXVII həftə)*

**2.2.5.** Danışığında iki-dörd sözdən ibarət sadə cümlələrdən istifadə edir.

**Mövzu:** "Hansı heyvan nə yeyir?" didaktik oyunu.

**Məqsəd:** Hansı heyvanın nə yediyini sadə sözlərlə cümlə qurub deyir. Həmin heyvanlar haqqında bildiklərini deyir.

**İnteqrasiya: 2.1.4.** Canlı və cansız aləmin obyektlərini (insan, heyvan, quş, bitki, qum, daş, torpaq, işıq) əlamətinə görə fərqləndirir.

**3.1.1.** Sadə təsvirlər çəkir.

**4.1.1.** Sadə ünsiyyət qaydalarına əməl edir.

**İş forması:** Fərdi iş, kollektiv iş, cütlərlə iş.

**Üsullar:** Əqli hücum, müzakirə, sual-cavab və s.

**Resurslar:** Heyvan kartları, oyuncaq heyvanlar və s.

### Məşğələnin gedişi

**Motivasiya:** Tərbiyəçi-müəllim lövhəyə heyvanların kölgələrinin şəkillərini qoyur: -Uşaqlar, bu gün biz heyvanları yemləyəcəyik. Lakin birinci bizə hansı heyvanların qonaq gəldiyini tapmalıyıq. Əgər o heyvanların adını bilməsək, o heyvan bizdən inciyib gedər.

**Dərketmə mərhələsi:** Uşaqlar, gəlin lövhəyə diqqətlə baxaq. (İnək, it, kirpi, dovşan, ayı və s.). Uşaqlar, gəlin bu heyvanların içindən ev heyvanlarını və vəhşi heyvanları tapaq, adlarını deyək. Ev heyvanları necə, çöl heyvanları necə qidalanır?

**İdman dəqiqəsi:** Musiqi sədaları altında ritmik hərəkətlər.

**Tətbiqetmə mərhələsi:** "Hansı heyvan nə yeyir?" didaktik oyunu.

Uşaqlar stolun üstündəki bitki və qidaların şəkli olan dairəvi formaya baxırlar. Onların adlarını deyirlər. Məsələn, ot, sümük, süd, buğda, fındıq, kök, bal, balıq, qoza, bambuk və s.

Sonra heyvan kartlarından birini əlinə götürüb adını çəkirlər (məsələn, ayı). -Ayı meşədə yaşayır. Böyük heyvandır. Ayı balıq, bal yeyir və s.

Heyvana aid bir-iki əlamət sadalayırlar. Onun nə yediyini tapıb, heyvanı həmin qidanın şəklinin üstünə qoyurlar.

Məşğələ yekunlaşır. Uşaqlar rəğbətləndirilir.

## MƏŞĞƏLƏ 28
*(XXVIII həftə)*

**2.2.5.** Danışığında iki-dörd sözdən ibarət sadə cümlələrdən istifadə edir.

**Mövzu:** "Qoxusundan tanı" didaktik oyunu.

**Məqsəd:** Duyğu orqanlarını tanıyır və cümlələr qurur.

**İnteqrasiya: 2.1.1.** Özü, ailəsi və vətəni haqqında suallara cavab verir.

**4.2.3.** Problemin həllində iştirak edir.

**İş forması:** Qruplarla iş, fərdi iş, kollektiv iş.

**Üsullar:** Əqli hücum, müzakirə, sual-cavab və s.

**Resurslar:** Meyvələr, güllər, tərəvəzlər və s.

### Məşğələnin gedişi

**Aktuallaşma:** Tərbiyəçi-müəllim pianinoda mahnı çalır. -Uşaqlar, nə eşidirsiniz? Ətiri uşaqlara iylədir. -Necə iy gəlir? Uşaqlara şəkil göstərir. -Burada nə görürsünüz? Uşaqlara alma dilimi paylayır. -Uşaqlar, necə dadı var? Qarşınızdakı oyuncağa nə edirsiniz? -Toxunursunuz.

**Dərketmə mərhələsi:** Uşaqlar, bu etdiklərimizi, gördüklərimizi hansı orqanlarımızla edirik? Duyğu orqanları hansılardır? Biz orqanlarımız olmasa, nələr edə bilmərik?

**İdman dəqiqəsi:** Musiqi sədaları altında ritmik hərəkətlər.

**Tətbiqetmə mərhələsi:** "Qoxusundan tanı" didaktik oyunu.

-Uşaqlar, biz qoxunu hansı orqanımızla bilirik. Gəlin qoxusundan tanıyaq.

Tərbiyəçi-müəllim uşağın gözünü bağlayır və deyir: İndi sənə bir əşyanı, meyvə və ya tərəvəzi, gülü yaxınlaşdıracağam. Sən qoxlayaraq onun nə olduğunu tapacaqsan. Tərbiyəçi-müəllim bananı uşağa yaxın tutur, uşaq meyvəyə toxunmadan qoxlayacaq və adını deyəcək. Adını düz tapan uşaq qalib gəlir.

# MƏŞĞƏLƏ 29
## *(XIX həftə)*

**2.1.1.** Dinləyib-anladığını verdiyi sual və cavablarla nümayiş etdirir.

**2.2.6.** Nitqində əlamət, hiss bildirən sözlərdən istifadə edir.

**Mövzu:** Balıqlar suda yaşayır.

**Məqsəd:** Balıqlar haqqında sualları cavablandırır. Balıqların əlamətlərini deyir.

**İnteqrasiya: 2.1.4.** Canlı və cansız aləmin obyektlərini (insan, heyvan, quş, bitki, qum, daş, torpaq, işıq) əlamətinə görə fərqləndirir.

**2.3.2.** Əşyaları forma və ölçüsünə (uzununa, eninə, hündürlüyünə, qalınlığına) görə fərqləndirir.

**3.1.1.** Sadə təsvirlər çəkir.

**İş forması:** Qruplarla iş, fərdi iş, cütlərlə iş.

**Üsullar:** Əqli hücum, tap-tapmaca, sual-cavab və s.

**Resurslar:** Şəkilli kartlar, rəngli kağızlar, balıq şəkilləri.



## Məşğələnin gedişi

**Motivasiya:** -Uşaqlar, pişik gəlib, sizə hədiyyə gətirib. Pişik tapmaca deyəcək, əgər onun cavabını tapsaq, hədiyyənin nə olduğunu bilərik.

*Su içində üzərəm,*
*Sudan çıxsam, ölərəm.*
*Əynimdə pullu paltar,*
*Məni torla tutarlar.*

**(Balıq)**

Pişik düz tapan uşaqlara təşəkkürünü bildirir. Vedrəsinin içindən bir balıq çıxarır (balıq maketi). -Sizə balıq gətirmişəm.

**Dərketmə mərhələsi:** Uşaqlar, sizcə balıqlar harada yaşayır? Onları sudan çıxarsaq, nə baş verər? Hansı balıqları tanıyırsınız? Kimin evində akvarium var? Balıqlar necə qidalanır?

**İdman dəqiqəsi:** Musiqi sədaları altında ritmik hərəkətlər.

**Tətbiqetmə mərhələsi:** Uşaqlar qrupa bölünür. -Uşaqlar, hər qrupa heyvanlar paylanacaq.

*I qrup:* Ev heyvanlarını tapıb ayıracaq, adlarını deyəcək.

*II qrup:* Suda yaşayan heyvanları tapıb ayıracaq, adlarını deyəcək.

*III qrup:* Çöl heyvanlarını tapıb ayıracaq.

*IV qrup:* Həm suda, həm quruda yaşayan heyvanları ayır.

Qrup işləri müzakirə olunur.

Məşğələ yekunlaşır.

## MƏŞĞƏLƏ 30

***(XXX həftə)***

**2.1.1.** Dinləyib-anladığını verdiyi sual və cavablarla nümayiş etdirir.

**2.2.5.** Danışığında iki-dörd sözdən ibarət sadə cümlələrdən istifadə edir.

**Mövzu:** Yay fəsli.

**Məqsəd:** Yay fəsli haqqında verilən sualları cavablandırır. Yay fəsli haqqında sadə cümlələr qurur.

**İnteqrasiya: 2.1.5.** Ətraf aləmdə baş verən proseslərə dair suallar verir və sadə ifadələrlə (böyüyür, uzanır, açılır, tökülür, saralır, dəyişir və s.) təsvir edir.

**3.1.1.** Sadə təsvirlər çəkir.

**4.2.1.** Arzu, hiss və istəklərini bildirir.

**İş forması:** Qruplarla iş, fərdi iş, cütlərlə iş.

**Üsullar:** Əqli hücum, müzakirə, sual-cavab.

**Resurslar:** Fəsillər təsvir olunmuş kartlar, rəngli kağızlar, karandaşlar və s.



## Məşğələnin gedişi

**Motivasiya:** Bu qutunun içində bəzi əşyalar var. Bir-bir əşyaları çıxardaq, görək bunlar bizə nəyi xatırladacaq? Tərbiyəçi-müəllim uşaqlardan bir-bir qutudan bir şəkli və ya əşyanı götürmələrini istəyir. Dondurma, gilas, buzlu su, günəş eynəyi, günəş şəkli və s.

-Uşaqlar, şəkillərə diqqətlə baxın. Siz bu əşya və şəkillərdən nə anladınız, sizə hansı vaxtı xatırlatdı?

**Dərketmə mərhələsi:** Uşaqlar, gəlin fəsillərin adlarını deyək. Həmin fəsillərə məxsus xüsusiyyətləri sadalayaq.

Tərbiyəçi-müəllim hər qrupa bir fəslin rəsmini paylayır. Və həmin fəslə aid xüsusiyyətləri tapıb ətrafa yığmalarını təklif edir. Daha sonra hər qrup öz fəsli haqqında sadə cümlələr qurub danışır.

**İdman dəqiqəsi:** Uşaqlar, pəncərədən çölə baxın. Günəş bizə gülümsəyir, bizi işıqlandırır.

Uşaqlar dairəvi formada yığılır.

-Günəş çox şəndir.

Uşaqlar durduqları yerdə əl çalırlar.

Ayaqlarını yerə vururlar.

-Uşaqlar, yağış yağır, qaçın evinizə.

Uşaqlar tez yerlərində oturur.

**Tətbiqetmə mərhələsi:** Uşaqlar, birlikdə boş ağacımızı yay fəslinə uyğun bəzəyəcəyik. Uşaqlar birlikdə ağaca yaşıl yarpaqlar, meyvələr yapışdırır, ətrafına yaşıl otlar, güllər, kəpənəklər yapışdırırlar. Və hər uşaq yay fəsli haqqında bir cümlə deyir.

Nərgiz NƏŞRİYYATI

**Direktor: Hidayət Musabəyli**
**Nəşriyyat redaktorları:** Soltan Orucoğlu, Leyla Namazova
**Korrektor:** Yasəmən İsmayılova
**Dizayn:** Naibə Səfərova
**Çapa imzalanmışdır:** 15.12.2023
**Kağız formatı:** 70x100/32/1
**Həcmi:** 8,0 çap vərəqi
**Tiraj:** 3000 nüsxə, sifariş: 1157
**Ünvan:** 8-ci km qəsəbəsi, R.Rüstəmov küç.36
**Nəşriyyatla əlaqə telefonları:**
012-520-32-02
050-738-37-22
055-923-25-35

**nesriyyat.nergiz@mail.ru**

*Nəşriyyat və müəllif hüquqları qanunla ("Nəşriyyat işi haqqında" qanun) qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron (PDF) informasiya vasitələri ilə yaymaq qadağandır!*

*Qiyməti: 7m.50 qəp.*